RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 74 (8667) BAZAR, 11 aprel 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# İLHAM ƏLİYEVİN QƏLƏBƏLƏRİ



**Böyük nəhrlər kiçik çaylardan yaranır!**

**Çaylar isə arxlardan formalaşır!**

**Zəfər də belədir: çoxsaylı qələbələr məcmusundan ibarət olur!**

**Kifayət qədər ciddi hazırlıq görmədən birbaşa, bir həmləyə qələbə çalmaq mümkün deyil!**

**Yeni dövr, yeni reallıqlar yaradan parlaq zəfərə isə illər boyu hazırlaşmaq, bu zirvəyə dayanmadan, yorulmadan dırmaşmaq lazım gəlir!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyev də iki əsrlik münaqişəyə son qoyan, beş əsrdə ilk dəfə itirilən torpaqların qaytarılması ilə nəticələnən möhtəşəm zəfərə dövlətə rəhbərlik etdiyi on yeddi il ərzində sarsılmaz iradə, dönməz qətiyyət, yorulmaz və məqsədyönlü fəaliyyət nəticəsində çoxsaylı qələbələri ilə nail oldu!**

**Bu minvalla həm də müstəqil Azərbaycanın yeni inkişaf dövrünün əsasını qoydu!**

❖ ❖ ❖

Böyük zəfərin tərkib hissəsi olan, əslində mühüm nailiyyətlər sayılan "kiçik qələbə"lər deyəndə nələri nəzərdə tuturuq.

Müharibə həm də böyük iqtisadi resurslar tələb edir.

Başqa sözlə, müharibənin hər günü on milyonlarla vəsait xərclənməsi deməkdir.

*Bütövlükdə, iqtisadi gücü və böyük maddi imkanları olmayan dövlət nə müharibə apara, nə də qələbə çala bilər!*

Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən cənab İlham Əliyev yeni neft strategiyasının yaratdığı imkanlardan bacarıqla istifadə edərək uzun illər Azərbaycanın dünya üzrə ən yüksək iqtisadi artım sürətinə nail oldu.

Neft gəlirlərinin iqtisadiyyatın digər sahələrinin inkişafı üçün lokomotiv rolunu oynaması, iqtisadiyyatın şaxələndirilməsi, habelə qeyri-neft sektorunun inkişafı digər uğurların təməlinə çevrildi.

*Bir qədər geriyə baxaq:*

1992-ci ildə, AXC-Müsavat cütlüyünün iqtidarı dövründə Azərbaycanın dövlət büdcəsi təsdiqlənmədi.

Çünki belə bir büdcə yox idi və onun haradan, necə formalaşacağı bilinmirdi.

Yeni yaranan məcburi köçkünlər ordusunu nə yerləşdirən, nə yardım göstərən, nə də halına qalan vardı...

"Cəbhəçilər" problemdən çıxış yolunu yurd-yuvasını itirmiş insanları Bakıya buraxmamaqda görürdülər...

**Əvvəlcə Ulu Öndər Heydər Əliyev, sonra isə Prezident İlham Əliyev belə vəziyyətdə olan ölkəni ayağa qaldırmaq üçün yorulmadan, dayanmadan çalışdılar.**

*Əslində Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi transmilli layihələrin həyat vəsiqəsi qazanması, Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin işə düşməsi böyük qələbələr sayılır.*

*Ardı 4-cü səh.*



## Ümumxalq sevgisinin təcəssümü

### Üç il öncə növbəti dəfə xalqın mütləq əksəriyyətinin etimadını qazanan İlham Əliyev Azərbaycanın xilaskar və alternativsiz lideri olduğunu bir daha təsdiqlədi

**Hər bir xalqın yüksəliş salnaməsində, dövlətin inkişafında dahi şəxsiyyətlərin, siyasi liderlərin çox böyük rolu olub. Həmin şəxsiyyətlərin öz xalqı, dövləti üçün misilsiz xidmətləri əsrlərin və nəsillərin yaddaşına əbədi həkk olunub.**

Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, xalqın 30 illik ən böyük problemi olan Dağlıq Qarabağ münaqişəsini hərb yolu ilə həll edərək adını tarixə qızıl hərflərlə yazdıran İlham Əliyev məhz belə liderlərdəndir.

#### Qətiyyətli, prinsipial, vədinə sadiq lider

Ötən 17 ildə İlham Əliyevin gördüyü fantastik işlər ona təkcə ölkə daxilində deyil, beynəlxalq aləmdə də böyük şöhrət qazandırıb. Sadəliyi, səmimiliyi, milli təəssübkeşliyi, Azərbaycan sevgisi, vətəninə, xalqına sədaqəti, qətiyyəti, prinsipiallığı, bəşəri duyğuları, insanlara canyanğısı və ən nəhayət, 44 günlük Vətən müharibəsində Baş Sərkərdə kimi Qarabağı işğaldan azad etməsi ona ümumxalq sevgisi qazandırıb.

Üç il öncə, 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində İlham Əliyevin xalqın 86,02 faizinin etimadını qazanaraq növbəti müddətə Azərbaycan Prezidenti seçilməsi məhz bu sevginin, inamın əyani təzahürü idi. Xalq növbəti dəfə İlham Əliyevi alternativsiz lider kimi qəbul edərək onu özünə rəhbər seçdi və bugünədək baş verən proseslər xalqın seçiminin nə dərəcədə doğru olduğunu göstərdi.

*Ardı 8-ci səh.*



## Zamanın bayraqdarı

**11 aprel 2018-ci il tariximizin növbəti mühüm dönüş nöqtəsinə, yeni parlaq səhifəsinin ilk sətirlərinin yazıldığı günə çevrildi. Xalqımız inandığı, sevdiyi şəxsiyyətə - İlham Əliyevə yenidən möhtəşəm güvəncini nümayiş etdirərək ən ali postu ona həvalə etdi.**

Bu şanlı missiyanın başlanğıc mərhələsi isə 2003-cü ilin 15 oktyabrı idi. Vətəndaşlarımız İlham Əliyevi öz rəhbəri seçərək milli dövlətçilik tarixinin daha bir doğru qərarını verdi, 15 oktyabr gününü tale gününə, əsrə bərabər gününə çevirdi.

*Ardı 8-ci səh.*

**İlham Əliyev müasir tariximizin ən şərəfli səhifələrinin müəllifidir**

*Bax: səh. 5*

**İlham Əliyevin islahatlar kursuna müxalifətdən tam dəstək**

*Bax: səh. 7*

**Azərbaycana Zəfər sevincini yaşadan Prezident**

*Bax: səh. 6*

**"Cənub qaz dəhlizi"nin təşəbbüskarı və lideri İlham Əliyevdir**

*Bax: səh. 10*

**Zəfər sərkərdəsi**

*Bax: səh. 9*

# Türkiyə-Azərbaycan qardaşlıq əlaqələri ən yüksək zirvədədir





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralı qəbul edib. AZƏRTAC xəbər verir ki, səfiri salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Hörmətli cənab səfir, sizin fəaliyyət müddətiniz başa çatır, siz Türkiyəyə qayıdırsınız. İlk növbədə, sizə gördüyünüz işlərə görə öz təşəkkürümü bildirmək istəyirəm.

Fəaliyyət müddətində siz Türkiyə-Azərbaycan qardaşlıq əlaqələrinin inkişafı üçün çox böyük işlər görmüsünüz, səylər göstərmisiniz və bu gün bu əlaqələr ən yüksək zirvədədir. Bütün sahələrdə Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı, birliyi özünü təsdiq etdi və 44 gün davam edən İkinci Qarabağ müharibəsində Türkiyənin Azərbaycana göstərdiyi dəstək, əlbəttə, həmişə bizim xatirimizdə olacaqdır, bizim qəlbimizdə yaşayacaqdır. Əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarından bizə verdiyi dəstək bizi ruhlandırdı və bəzi xarici qüvvələrin bu müharibədən kənarda durmasını təmin etdi.

Bizim əlaqələrimiz çoxşaxəlidir. Siz burada fəaliyyət göstərən səfir kimi, əlbəttə ki, bu əlaqələrin nə qədər dərin olmasını yaxşı bilirsiniz. Elə bir sahə yoxdur ki, o sahədə biz əməkdaşlıq etməyək. Son illərdə bütün sahələrdə böyük inkişaf var. Artıq bizim vətəndaşlarımızın qardaş ölkələrə pasportsuz, yəni daxili sənədlə səfər etməsi, əlbəttə ki, əlaqələrimizin nə qədər dərin olmasından xəbər verir.

Sizin buradakı fəaliyyətiniz həm bir səfir, həm də bir türk vətəndaşı kimi böyük təqdirlə qarşılanır. Siz burada özünüzü vətəninizdəki kimi hiss etmisiniz, bu da təbiidir. İndi demək istəyirdim ki, vətənə qayıdırsınız, əslində, siz vətəndəsiniz və hər zaman burada sizin yeriniz var, bizim ürəyimizdə yeriniz var. Bilirəm ki, Azərbaycan ictimaiyyəti, Azərbaycanda fəaliyyət göstərən ictimai təşkilatlar, media nümayəndələri, rəsmi şəxslər sizin fəaliyyətinizə çox böyük qiymət verirlər, o cümlədən mən. Çünki bu illərdə, əlbəttə ki, həm burada, həm Türkiyədə çoxsaylı səfərlərim əsnasında sizin fəaliyyətinizin şahidi olmuşam və görmüşəm. Bilirəm ki, siz bütün səylərinizi iki qardaş xalqın bir-birinə daha yaxın olmasına istiqamətləndirmisiniz.



Bütün bunları nəzərə alaraq, siz Azərbaycan dövlətinin yüksək ordeni - "Dostluq" ordeni ilə təltif edilmisiniz və istərdim ki, bu yüksək mükafatı sizə təqdim edim.

❖ ❖ ❖

Prezident İlham Əliyev "Dostluq" ordenini səfir Erkan Özorala təqdim etdi.

❖ ❖ ❖

**Səfir Erkan ÖZORAL** dedi:

- Çox təşəkkür edirəm. Çox sağ olun.

Cənab Prezident, məni bu şərəfə layiq bildiyiniz üçün Sizə çox təşəkkür etmək istəyirəm, minnətdarlığımı bildirirəm. Siz də dediyiniz kimi, mən Azərbaycan ilə Türkiyəni heç vaxt bir-birindən ayırmadım. İkisi də mənim Vətənimdir, birinci Vətənim, ikinci Vətənim deyil. İkisi də eyni dərəcədə Vətənimdir. Ankara mənim üçün nə qədər əzizdirsə, Bakı da eynidir mənim üçün. Bu sevginin nəticəsi odur ki, özümü çox bəxtiyar hiss edirəm. Çünki Azərbaycana gəlmiş və gələcək bütün türk səfirləri içində ən gözəl anlara şahidlik edən səfir mən oldum. Bu Vətən müharibəsinə şahidlik etmək mənim üçün çox böyük xoşbəxtlik oldu. Özümü fərqli hiss edirəm.

Mən burada Türkiyə ilə Azərbaycanın bir-birinə daha da yaxınlaşması üçün vəzifəmi yerinə yetirdim. Xalqlarımızın bir-birinə yaxınlaşması üçün çalışdım. Amma bu işi görməyə imkanı təmin edən Sizlər, cənab Prezidentlərimiz bizim üçün açdığınız yol oldu. Bunları onun sayəsində edə bildik. Azərbaycanda fəaliyyət göstərdiyim müddətdə bütün qurumlardan, rəsmi şəxslərdən bütün səviyyələrdə başda Siz olmaqla hər zaman dəstək aldım. Hamınıza ayrıca təşəkkür və minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycan xalqına Sizin şəxsinizdə minnətdarlığımı çatdırmaq istəyirəm. Hər zaman qardaşlığımızı hiss etdim, getdiyim hər yerdə ona şahid oldum. İnşallah, Türkiyə ilə Azərbaycan bundan sonra daha da bir-birinə yaxın olacaq. Çünki Sizin də söylədiyiniz kimi, biz birlikdə güclüyük. Çox təşəkkür edirəm, çox sağ olun.

## Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 14-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126; 2002, № 12, maddə 702; 2004, № 7, maddə 505; 2006, № 2, maddə 66, № 11, maddə 923, № 12, maddələr 1005, 1006; 2007, № 1, maddə 4, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1218; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 3, maddə 171, № 5, maddə 380, № 7, maddə 578; 2011, № 7, maddələr 585, 620, № 12, maddə 1110; 2014, № 12, maddə 1515; 2019, № 2, maddə 185, № 5, maddə 800, № 12, maddə 1906; 2020, № 7, maddə 832; Azərbaycan Respublikasının 2020-ci il 20 noyabr tarixli 199-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 117.6-1-ci maddəyə "qohumu" sözündən sonra "(bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları)" sözləri, "övladlığa verilməsinə" sözlərindən sonra "onlar uçota alındıqları gündən" sözləri əlavə edilsin.

2. 118-ci maddə üzrə:

2.1. 118.3.2-ci maddədə "şəxslərin" sözü "şəxsin (şəxslərin)" sözləri ilə əvəz edilsin;

2.2. 118.3.3-cü maddəyə "şəxsə" sözündən sonra "(şəxslərə)" sözü əlavə edilsin;

2.3. 118.15-ci maddədə "yaxın qohumlar" sözləri "qohumları" sözü ilə, "118.1.1-ci və 118.3.1-ci maddələrinin tələbləri həmin şəxslərə də şamil edilir" sözləri "118.3.2-118.3.5-ci maddələrinin tələbləri həmin şəxslərə şamil edilmir" sözləri ilə əvəz edilsin;

2.4. 118.24-cü maddədə "yaxın qohumlar" sözləri "qohumları" sözü ilə əvəz edilsin.

3. 119-cu maddə üzrə:

3.1. 119.4-cü maddədə "Yaxın qohumlar" sözləri "Qohumları" sözü ilə əvəz edilsin və həmin maddəyə "tərəfindən" sözündən əvvəl ", eləcə də ögey ata (ögey ana)" sözləri əlavə edilsin;

3.2. 119.11-ci maddədə "119.9.2-ci" sözləri "119.10.2-ci" sözləri ilə əvəz edilsin.

4. 120.1.8-ci maddədə "yaxın qohumlar" sözləri "qohumları" sözü ilə əvəz edilsin.

5. 120.4-cü maddədə "yaxın qohumları olan" sözləri "qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) tərəfindən" sözləri ilə əvəz edilsin.

6. 121.1-ci və 121.2-ci maddələrdə "yaxın qohumlar" sözləri "qohumları" sözü ilə əvəz edilsin.

7. 124-cü maddə üzrə:

7.1. 124-cü maddənin adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 124. Valideyn himayəsindən məhrum olan uşaqların övladlığa götürülməsinə razılıq";**

7.2. 124.2-ci maddədə "yazılı razılığı lazımdır" sözləri "həmin uşaqlarla bağlı fikri öyrənilir" sözləri ilə əvəz edilsin;

7.3. 124.3-cü maddədə "fikri öyrənilir" sözləri "rəyi alınır" sözləri ilə əvəz edilsin;

7.4. 124.4-cü maddəyə "razılığı olmadan" sözlərindən sonra "və ya fikri nəzərə alınmadan" sözləri əlavə edilsin.

8. 134-cü maddə üzrə:

8.1. 134.10-cu maddədə "da" sözü "bu Məcəllənin 125.3-cü maddəsi ilə müəyyən edilmiş tələblər nəzərə alınmaqla" sözləri ilə əvəz edilsin;

8.2. 134.11-ci maddə ləğv edilsin.

9. 142.1-ci maddədə "uşağı" sözü "uşağın" sözü ilə, "vermə müqaviləsi" sözləri "verilməsinə dair müqavilə" sözləri ilə əvəz edilsin.

10. 145.3-cü maddənin birinci cümləsində "rəyi" sözü "fikri" sözü ilə əvəz edilsin.

11. 155.3-cü maddəyə birinci halda "vətəndaşı" sözündən sonra ", habelə əcnəbi və vətəndaşlığı olmayan şəxs" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 mart 2021-ci il*

## "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 aprel tarixli 222 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 aprel tarixli 222 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 297; 2009, № 6, maddə 419; 2011, № 3, maddə 182; 2017, № 5, maddə 802) aşağıdakı dəyişikliklər edilsin:

1.1. Preambula üzrə:

1.1.1. "Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə"nin və" sözləri çıxarılsın;

1.1.2. "müddəalarına" sözündən əvvəl "və Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Əsasnaməsi"nin" sözləri əlavə edilsin;

1.2. 2-ci hissədə "Vergilər Nazirliyinə" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə" sözləri ilə əvəz edilsin;

1.3. həmin Fərmanla təsdiq edilmiş "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə" üzrə:

1.3.1. 1.1-ci bənddə "2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə"nin" sözləri "2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Əsasnaməsi"nin" sözləri ilə əvəz edilsin;

1.3.2. 1.3-cü bəndə "Test imtahanı" sözlərindən sonra "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (bundan sonra - Xidmət) təklifi əsasında" sözləri əlavə edilsin;

1.3.3. 1.4-cü bənd ləğv edilsin;

1.3.4. 1.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.5. Dövlət vergi orqanlarında vakant vəzifələr olduqda, Xidmət, işə qəbulla əlaqədar sənədlərin təqdim edilməsi üçün müəyyən olunmuş son müddət göstərilməklə, kütləvi informasiya vasitələrində və özünün rəsmi internet saytında müsabiqə elanı verir. Müvafiq elan müsabiqənin başlamasına ən azı bir ay qalmış verilir.";

1.3.5. 2.1-ci bənd üzrə:

1. birinci cümlədə "Vergilər Nazirliyi" sözləri "Xidmət" sözü ilə əvəz edilsin;

2. ikinci cümlədə "vergilər nazirinin" sözləri "Xidmət rəisinin" sözləri ilə, "Vergilər Nazirliyinin Kollegiyasında baxılır və" sözləri "Xidmət rəisinin əmri ilə" sözləri ilə əvəz edilsin;

1.3.6. 2.4-cü bənd ləğv edilsin;

1.3.7. 3.1-ci bəndə "üçün" sözündən sonra "keçirilən" sözü əlavə edilsin və həmin bənddə "ərizə ilə Azərbaycan Respublikasının Vergilər Nazirliyinə" sözləri "forması Xidmət tərəfindən müəyyən edilən ərizə ilə Xidmətə" sözləri ilə əvəz edilsin;

1.3.8. 3.2-ci bənddə "bir ay" sözləri "10 iş günü" sözləri ilə, "Vergilər Nazirliyi tərəfindən yoxlama aparılır" sözləri "Xidmət tərəfindən yoxlama aparılır və nəticəsi barədə namizədə məlumat göndərilir" sözləri ilə əvəz edilsin;

1.3.9. 3.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"3.3. Vergi orqanlarına işə qəbul üçün aşağıdakı sənədlər tələb olunur:

3.3.1. şəxsiyyəti təsdiq edən sənədin surəti;

3.3.2. tərcümeyi-hal;

3.3.3. kadrlar uçotunun şəxsi vərəqəsi;

3.3.4. 4x6 sm ölçüdə dörd ədəd, 9x12 sm ölçüdə bir ədəd rəngli fotoşəkil;

3.3.5. ali təhsil haqqında dövlət sənədinin (xaricdə təhsil almış namizədlər üçün təhsil haqqında sənədlərin (xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının) tanınması ilə bağlı müvafiq sənədin) notarial qaydada təsdiq olunmuş surəti;

3.3.6. əmək kitabçasının surəti (ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla);

3.3.7. sağlamlıq haqqında arayış;

3.3.8. narkoloji dispanserdən müayinə aktı və arayış;

3.3.9. məhkumluğun olmaması barədə arayış;

3.3.10. hərbi biletin və ya qanunla müəyyən olunmuş qaydada hərbi xidmətdən möhlət hüququ verilməsini təsdiq edən sənədin surəti (qadınlar istisna olmaqla).";

1.3.10. aşağıdakı məzmunda 3.3-1-ci bənd əlavə edilsin:

"3.3-1. Tərcümeyi-halı və kadrlar uçotunun şəxsi vərəqəsini müraciət edən şəxs özü əllə yazır və imzalayır. Müraciət edən şəxs tərcümeyi-halda və kadrlar uçotunun şəxsi vərəqəsində göstərilən məlumatların doğruluğuna görə cavabdehdir.";

1.3.11. 3.4-cü və 3.5-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"3.4. Namizəd aşağıdakı hallarda müsabiqəyə buraxılmır:

3.4.1. bu Əsasnamənin 3.3-cü bəndində göstərilən sənədlər təqdim edilmədikdə və ya həmin sənədlərdə təhrif olunmuş məlumatlar aşkar edildikdə;

3.4.2. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;

3.4.3. məhkumluğu ödənilmədikdə və ya götürülmədikdə;

3.4.4. çağırış yaşlı vətəndaşlar qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçmədikdə (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla).

3.5. Ərizələri qəbul edilmiş namizədlər Mərkəzin internet portalında qeydiyyatdan keçir.";

1.3.12. 3.6-cı bənd ləğv edilsin;

1.3.13. 3.7-ci bənddə "Vergilər Nazirliyi" sözləri "Xidmət" sözü ilə əvəz edilsin;

1.3.14. 3.9-cu, 3.11-ci və 3.13-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"3.9. Test imtahanının nəticələri haqqında məlumat Mərkəzin internet portalında yerləşdirilir. Namizədin müraciəti əsasında test imtahanında topladığı bal barədə 2 gün müddətində ona Xidmət tərəfindən yazılı məlumat verilir.";

"3.11. Test imtahanının nəticələri Xidmətə təqdim edildiyi gündən 14 iş günü müddətində müsahibənin keçirilmə vaxtı barədə Komissiya qərar qəbul edir. Müsahibənin keçirildiyi yer və vaxt barədə namizədlərə ən azı 5 gün əvvəl məlumat verilir. Müsahibə zamanı videoçəkiliş aparılır. Videoçəkiliş müsahibənin keçirilməsinə, eləcə də Komissiyanın normal fəaliyyətinə maneə törətməməlidir.";

"3.13. Hər bir namizədlə müsahibə fərdi qaydada aparılır. Müsahibə başa çatdıqdan sonra Komissiyanın üzvləri arasında namizədin iştirakı olmadan onun barəsində fikir mübadiləsi aparılır.";

1.3.15. 3.14-cü bəndin birinci cümləsindən "0, 1," rəqəmləri çıxarılsın və həmin bəndə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Müsahibənin yekun nəticəsi protokolla rəsmiləşdirilir.";

1.3.16. 4.1-ci bəndin ikinci cümləsinə "əldə etmiş şəxslərdən" sözlərindən sonra "ali təhsil pilləsinin daha yüksək səviyyəsini bitirənlərə, təhsil səviyyəsi eyni olduqda isə" sözləri əlavə edilsin;

1.3.17. 4.2-ci bənd ləğv edilsin;

1.3.18. 4.3-cü bənddə "elan olunur və mətbuatda dərc etdirilir" sözləri "Xidmətin rəsmi internet saytında yerləşdirilir" sözləri ilə əvəz edilsin;

1.3.19. 4.4-cü bəndin birinci cümləsində "vergilər nazirinə" sözləri "Xidmət rəisinə" sözləri ilə əvəz edilsin;

1.3.20. 4.5-ci bəndin birinci cümləsində "Azərbaycan Respublikasının vergilər nazirinə" sözləri "Xidmət rəisinə" sözləri ilə əvəz edilsin, ikinci cümləsində "Vergilər naziri" sözləri "Xidmət rəisi" sözləri ilə əvəz edilsin;

1.3.21. 4.6-cı bənddə "Vergilər Nazirliyinin cari ildəki" sözləri "Xidmətin" sözü ilə əvəz edilsin, həmin bənddən "və bərabər nəticələr əldə edən" və "il ərzində" sözləri çıxarılsın və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Namizədlərin kadr ehtiyatında saxlanılma müddəti iki ildir.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. dövlət vergi orqanlarına işə qəbul mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 aprel 2021-ci il*

## Erkan Özoralın "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafındakı xüsusi xidmətlərinə görə Erkan Özoral "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 aprel 2021-ci il*

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672, № 11, maddələr 2209, 2225, № 12 (I kitab), maddələr 2524, 2534; 2019, № 1, maddə 23, № 5, maddələr 792, 812, № 7, maddə 1197, № 12, maddələr 1897, 1907; 2020, № 7, maddə 832, № 11, maddə 1333) aşağıdakı dəyişikliklər edilsin:

1. 347-ci maddə üzrə:

1.1. 347.1.1-ci maddəyə "şəxs" sözündən sonra "(Azərbaycan Respublikasının vətəndaşı, habelə qohum (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) olan əcnəbi və vətəndaşlığı olmayan şəxs)" sözləri əlavə edilsin;

1.2. 347.3-cü maddəyə "vətəndaşları" sözündən sonra ", əcnəbilər və vətəndaşlığı olmayan şəxslər" sözləri əlavə edilsin.

2. 348-ci maddə üzrə:

2.1. 348.2.5-ci maddədən "ögey valideynlərinin," sözləri çıxarılsın və həmin maddəyə "valideynlərin" sözündən sonra ", qəyyumun (himayəçinin)" sözləri əlavə edilsin;

2.2. 348.2.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"348.2.6. valideyn himayəsindən məhrum olmuş uşağın övladlığa götürülməsinə dair həmin uşağın yerləşdiyi müəssisənin rəhbərinin rəyi və ya uşağın tərbiyə olunduğu himayədar ailənin yazılı ifadə olunmuş fikri;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 mart 2021-ci il*

## "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 mart tarixli 280-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 946 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 mart tarixli 280-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 946 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 104, № 12 (I kitab), maddə 1467) ilə təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.15-ci bənddə "yaxın qohumu" sözləri "qohumu (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları)" sözləri ilə əvəz edilsin;

1.2. 2.18.8-ci yarımbənddə "yaxın qohumunu" sözləri "qohumunu" sözü ilə əvəz edilsin;

1.3. 3.4-cü bənddə "yaxın qohumları olan" sözləri "qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) tərəfindən" sözləri ilə əvəz edilsin;

1.4. 11.7-ci bəndə "qohumu" sözündən sonra "(bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları)" sözləri əlavə edilsin və həmin bənddə "uçota alındıqdan" sözləri "onlar uçota alındıqları gündən" sözləri ilə əvəz edilsin;

1.5. 15.1-ci bənddə "yaxın qohumlar" sözləri "qohumları" sözü ilə, "118.1.1-ci və 118.3.1-ci maddələrinin tələbləri həmin şəxslərə də şamil edilir" sözləri "118.3.2 - 118.3.5-ci maddələrinin tələbləri həmin şəxslərə şamil edilmir" sözləri ilə əvəz edilsin;

1.6. 15.2-ci bənddə "bu Məcəllənin" sözləri "Ailə Məcəlləsinin" sözləri ilə əvəz edilsin;

1.7. 15.3-cü bənddə "yaxın qohumlar" sözləri "qohumları" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 mart tarixli 280-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 aprel 2021-ci il*

## Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi və "Azərbaycan alüminiumu" ("Azəralüminium") Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə müasir texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalını genişləndirmək, bu sahədə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin məşğulluq səviyyəsini artırmaq məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. iki ay müddətində:

1.1.1. "Azərbaycan alüminiumu" ("Azəralüminium") Səhmdar Cəmiyyətinin (bundan sonra - Cəmiyyət) Sumqayıt istehsalat sahəsinin istifadəsində olan Sumqayıt şəhəri, Metallurgiya küçəsi, 1 ünvanındakı 67.35 hektar və Sumqayıt şəhərində Sumqayıt Kimya Sənaye Parkının qərb sərhədi boyunca yerləşən 8.05 hektar olmaqla, ümumilikdə 75.4 hektar torpaq sahəsinin icarəyə vermək hüququ ilə Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinin daimi istifadəsinə verilməsini təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.2. Cəmiyyətin kreditor borclarının tənzimlənməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.3. özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətini itirmiş işçilərinə və ya ölmüş işçilərinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə verilən aylıq ödəncin əvəzinə dövlət büdcəsinin vəsaiti hesabına ödənilən aylıq müavinətin ölkə üzrə müəyyən edilmiş minimum əməkhaqqı nəzərə alınmaqla, məbləğin və həmin ödəncin ödənilməsi qaydasına dair mövcud normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

2.1. Cəmiyyətin Sumqayıt istehsalat sahəsinin müasir sənaye istehsalı üçün yararsız olan, fiziki və mənəvi cəhətdən köhnəlmiş əmlakının satışını təşkil etsin və əldə edilən vəsaitin Cəmiyyətin Sumqayıt istehsalat sahəsinin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətini itirmiş işçilərinə və ya ölmüş işçilərinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq ödənclər, işçilərin əməkhaqqı, vergilər, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları üzrə yaranmış borcların, habelə Cəmiyyətin Sumqayıt istehsalat sahəsinin bu Sərəncam qüvvəyə mindiyi günədək olan digər borclarının (ödənişinə möhlət verilmiş borclar istisna olmaqla) ödənilməsinə yönəldilməsini təmin etsin;

2.2. bu Sərəncamın 2.1-ci bəndində göstərilən borclar ödənildikdən sonra Cəmiyyətin Sumqayıt istehsalat sahəsinin istifadəsindəki əmlakın satışından əldə olunmuş vəsaitin qalan hissəsini özəlləşdirmədən daxilolmalara aid edilməklə dövlət büdcəsinə köçürülməsini təmin etsin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Müəyyən edilsin ki, Cəmiyyətin ləğvi və yenidən təşkili ilə bağlı ümumi yığıncağın səlahiyyətləri Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş digər məsələlər isə "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinə həvalə edilir.

4. "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə:

4.1. Cəmiyyətin restrukturizasiyasını və sağlamlaşdırılmasını (borcların silinməsi daxil olmaqla), habelə yerli xammal və materiallarla təchizatını təmin etmək və idxaldan asılılığını aradan qaldırmaqla alüminium sənayesini inkişaf etdirmək, alüminium istehsalını artırmaq, bu sahənin rəqabət qabiliyyətini və ixrac imkanlarını genişləndirmək üçün dövlət-özəl tərəfdaşlığı əsasında investisiyaların cəlb edilməsi üçün təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

4.2. bu Sərəncamın 2.1-ci və 4.1-ci bəndləri nəzərə alınmaqla, Cəmiyyətin nizamnamə kapitalının miqdarının müəyyən edilməsi ilə bağlı tədbirlər görsün.

5. Sumqayıt Şəhər İcra Hakimiyyəti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 aprel 2021-ci il*

## Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət



Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının informasiya və media üzrə məsul nazirlərinin, yüksəkvəzifəli rəsmilərinin üçüncü toplantısının iştirakçıları aprelin 10-da Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə əklil və gül dəstələri qoyublar.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Şəhidlər xiyabanına gələn tədbir iştirakçıları Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Daha sonra toplantı iştirakçıları Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk Şəhidliyi" abidəsi önünə gül dəstələri qoyublar.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən tədbir iştirakçılarına Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

## Azərbaycan Prezidentinin köməkçisi Türk Şurasının Baş katibi ilə görüşüb



Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev aprelin 10-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) informasiya və media üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin üçüncü toplantısında iştirak etmək məqsədilə Bakıda səfərdə olan təşkilatın Baş katibi Bağdad Amreyevlə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Türk Şurası çərçivəsində əməkdaşlıq, Azərbaycanın sədrliyi dövründə təşkilatın fəaliyyətinin, üzv ölkələr arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün görülən işlər və gələcək addımlar müzakirə olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2019-cu il oktyabrın 15-də Bakıda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşünün Yekun Bəyannaməsində media və informasiya siyasəti sahəsində əməkdaşlığın əhəmiyyətinin vurğulandığı qeyd olunaraq bu tapşırıqdan irəli gələrək təşkil olunan bugünkü toplantının üzv ölkələr arasında sözügedən sahədə əməkdaşlığın gücləndirilməsinə və onun praktiki həyata keçirilməsinə töhfə verəcəyi bildirilib. Görüşdə bu xüsusda perspektiv istiqamətlərə dair fikir mübadiləsi aparılıb.

## Görüşdə Azərbaycan-Macarıstan ikitərəfli əlaqələri müzakirə olunub

Aprelin 10-da Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) informasiya və media üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin üçüncü toplantısında iştirak etmək üçün Bakıda səfərdə olan Macarıstanın Təhlükəsizlik siyasəti üzrə dövlət katibi Peter Ştarayla görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Macarıstan ikitərəfli əlaqələri, Türk Şurası çərçivəsində əməkdaşlıq məsələləri və inkişaf perspektivləri müzakirə olunub. Ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətləri qeyd olunaraq ikitərəfli və çoxtərəfli əməkdaşlığın gücləndirilməsi üçün geniş potensialın olduğu vurğulanıb.

## *Hikmət HACIYEV:* "Türk Şurası çərçivəsində Media Koordinasiya Komitəsi yaradılmalıdır"



Türk Şurası çərçivəsində media sahəsində əməkdaşlığın daha da sistemləşdirilməsinin tərəfdarıyıq. Bugünədək yaxşı təşəbbüslər olub. Lakin gəldiyimiz qənaətlərdən biri odur ki, təşkilat çərçivəsində Media Koordinasiya Komitəsi yaradılmalıdır. Necə ki, digər sahələrdə davamlı olaraq müvafiq komitələr çərçivəsində iş aparılır, bu istiqamətdə də işlər görülməlidir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə açıqlamasında bildirib.

Prezidentin köməkçisi deyib: "Türkdilli ölkələrin dövlət media qurumları ilə bərabər, özəl media qurumları arasında da təmasların qurulmasına ehtiyac var. Çünki məqsəd məlumatların geniş şəkildə işıqlandırılmasına nail olmaqdır. Mediaforum konsepsiyası barədə də düşünürük. Ölkələr arasında biznes-forumlar keçirildiyi təqdirdə, media sahəsində də birbaşa əlaqələr qurulması məqsədəuyğundur. Bu gün media agentlikləri tərəfindən ilkin mənbədən olmayan məlumatlara istinadlar çoxdur".

Türkdilli ölkələrin media resursları arasında ortaq yayımının olduğunu diqqətə çatdıran Hikmət Hacıyev bildirib ki, bu, əsasən dövlət televiziya resursları vasitəsilə həyata keçirilir. "Bildiyiniz kimi, "TRT AVAZ" uzun müddət fəaliyyət göstərib. Azərbaycanın Dövlət Televiziyasının və İctimai Televiziyanın Türkiyədən və digər qardaş ölkələrdən olan televiziya resursları ilə əlaqələri mövcuddur, həmçinin AZƏRTAC-ın münasibətləri var. Amma ortaq qiymətləndirməmiz ondan ibarətdir ki, dost və qardaş ölkələrimiz haqqında verilən məlumatların həcmi bu gün tam qaneedici səviyyədə deyil. Məsələn, qardaş Türkiyə ilə Azərbaycan arasında bu münasibətlər çox yaxşı şəkildə qurulub. Biz Vətən müharibəsi dövründə də gördük ki, qardaş Türkiyə mediası Azərbaycanın media mənsubları ilə çiyin-çiyinə ön cəbhədən xəbərləri verirdilər. Amma qardaş Mərkəzi Asiya ölkələrinin media resurslarında Azərbaycan xəbərlərinin daha fəal şəkildə işıqlandırılması, yaxud onların xəbərlərinin ilkin mənbədən alınaraq ölkəmizin mediasında işıqlandırılması üçün birgə fəaliyyətə ehtiyac var", - deyə Prezidentin köməkçisi əlavə edib.

## Bakıda Türk Şurasının informasiya və media üzrə məsul nazirlərinin, yüksəkvəzifəli rəsmilərinin üçüncü toplantısı keçirilib

Aprelin 10-da Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) informasiya və media üzrə məsul nazirlərinin, yüksəkvəzifəli rəsmilərinin üçüncü toplantısı keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin sədri Fahrettin Altun, Qırğızıstanın mədəniyyət, informasiya, idman və gənclər siyasəti naziri Kayrat İmanaliyev, Özbəkistan Prezidenti Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiya Agentliyinin direktoru Asadjon Xojayev, Qazaxıstanın informasiya və ictimai inkişaf nazirinin müavini Asxat Oralov, Macarıstanın Xarici Əlaqələr və Ticarət Nazirliyinin təhlükəsizlik siyasəti üzrə dövlət katibi Peter Sztaray, Türk Şurasının Baş katibi Bağdat Amreyev və digər rəsmi şəxslər iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, 44 günlük Zəfər savaşında Türk Şurası Azərbaycana öz dəstəyini açıq şəkildə göstərdi. İnformasiya və kommunikasiya sahəsində də Azərbaycan ilə Türk Şurası arasında sıx münasibətlər var. Media sahəsində əməkdaşlığın inkişafı üçün əsaslar müəyyən olunub. Türk Şurası çərçivəsində enerji, nəqliyyat və digər sahələrdə işçi qruplar yaradılıb. Buna görə də hər bir sahənin informasiya təminatı olmalıdır. Vətən müharibəsində Azərbaycan mediası həqiqətləri dünyaya düzgün çatdırmaq üçün səmərəli şəkildə fəaliyyət göstərdi. Bu məsələdə qardaş Türkiyə mediası bizimlə birgə oldu.

Hikmət Hacıyev qeyd edib ki, türk dünyasının ortaq tarixi, dəyərləri var. Bu gün Türk Şurasının üzv ölkələrinə qarşı təxribat xarakterli informasiya hücumları olur. Buna görə də biz birgə fəaliyyət göstərməliyik. Bu baxımdan bugünkü tədbirin xüsusi əhəmiyyəti var.

Azərbaycan Prezidentinin köməkçisi diqqətə çatdırıb ki, müasir dövrün ən problemli məsələlərindən biri də sosial şəbəkələrdə feyk xəbərlərin tirajlanmasıdır. Düşünürəm ki, Türk Şurası çərçivəsində bu sahədə də birgə fəaliyyət vacib məsələdir.

Ermənistan 30 il işğal altında saxladığı Azərbaycan torpaqlarında bütün maddi-mədəniyyət abidələrini dağıdıb. Bu həqiqətlərin dünya ictimaiyyətinə düzgün çatdırılması vacibdir. Bu baxımdan Türk Şurasına üzv ölkələrin birgə fəaliyyəti xüsusi önəm daşıyır.

"Media haqqında" yeni qanun layihəsinin hazırlandığını deyən Hikmət Hacıyev vurğulayıb ki, bu qanun layihəsinin təkmilləşdirilməsi üçün Türkiyənin təcrübəsindən də istifadə edilib. Yeni qanun layihəsində bir sıra vacib məsələlər öz əksini tapıb. Bu qanun layihəsi medianın inkişafına imkan verəcək.

"Azərbaycan türkdilli dövlətlər arasında əlaqələrin inkişaf etdirilməsi istiqamətində lazımi işləri görür. Eyni zamanda, ölkəmiz türkdilli dövlətlərlə əməkdaşlığın inkişafı məqsədilə yol xəritəsi hazırlayır.

Türkdilli ölkələr arasında bütün sahələrdə əməkdaşlıq uğurla inkişaf edir. İnformasiya və kommunikasiya sahəsində əməkdaşlığın genişləndirilməsi də qarşıda duran prioritet istiqamətlərdən biridir", - deyə H.Hacıyev əlavə edib.

Media sahəsində əməkdaşlığın lazımi hüquqi parametrlərinin müəyyənləşdirildiyini, zəruri sənədlərin qəbul edildiyini diqqətə çatdıran Prezidentin köməkçisi deyib ki, bütün bunlar əməkdaşlığın praktiki formada genişləndirilməsi üçün imkanlar yaradır. Türkdilli ölkələr arasında informasiya təminatının yaradılması vacib şərtlərdən biridir. Biz Qarabağ müharibəsi dövründə gördük ki, türk mediası bu məsələnin işıqlandırılmasında fəal iştirak etdi. Biz bundan sonra da birgə səylər göstərməliyik.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev bu gün media sahəsində əməkdaşlığın Türk Şurasında ən önəmli mövzulardan biri olduğunu bildirib. Qeyd edib ki, Şuraya üzv dövlətlər arasında media sahəsində əməkdaşlıq strateji əhəmiyyət daşıyır.

Torpaqlarının azad edilməsi münasibətilə Azərbaycanı təbrik edən Baş katib bildirib ki, türk dövlətləri bundan sonra da Azərbaycanın yanında olacaq.

"Çox şadıq ki, Azərbaycan torpaqlarını işğaldan azad etdi. Biz türk dövlətləri olaraq Azərbaycanla həmrəyliyimizi ifadə edirik" deyən B.Amreyev əlavə edib ki, türkdilli dövlətlər, eyni zamanda, işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulmasında Azərbaycanın yanında olacaq və əlindən gələn dəstəyi göstərəcək.

Bu il Türk Şurasının ilk Zirvə görüşünün keçirilməsindən 12 il ötdüyünü və ötən müddət ərzində Türk Şurasının artıq dünyada önəmli bir platformaya çevrildiyini deyən Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin sədri Fahrettin Altun qeyd edib ki, bugünkü dünya 12 il əvvəlki dünya deyil. Türkiyəyə qarşı təhdidlər hələ də davam edir. Yeni təhdidlər qarşısında bizim türk dünyası olaraq birlikdə olmağımız zərurətdir. Bu, qardaşlığımızın tələbidir.

Türkiyə Prezidenti Administrasiyasının idarə sədri bildirib ki, Türkiyə 44 günlük Vətən müharibəsində Azərbaycanın yanında oldu, eyni zamanda, media sahəsində əlindən gələni əsirgəmədi. Türkiyə ilə Azərbaycan arasında yaradılmış media platforması önəmli bir örnək təşkil edir. Biz türkdilli dövlətlər bu platformanı genişləndirməli, daha da gücləndirməli və təhdidlərə qarşı birgə mübarizə aparmalıyıq.

Türk dünyasının əsas problemlərindən birinin dezinformasiyalarla mübarizə olduğunu deyən F.Altun vurğulayıb: "Rəqəmsal faşizmlə mübarizə aparmaq olduqca vacibdir. Biz rəqəmsal faşizmlə mübarizə istiqamətində lazımi addımları atmağa başladıq. Türkdilli ölkələr olaraq media platformasında səylərimizi birləşdirməli və bu bəlaya qarşı da birgə mübarizə aparmalıyıq".

Qırğızıstanın mədəniyyət, informasiya, idman və gənclər siyasəti naziri Kayrat İmanaliyev qeyd edib ki, türkdilli dövlətlər arasında əlaqələri gücləndirmək, o cümlədən media sahəsində əməkdaşlığı genişləndirmək zəruridir.

Kayrat İmanaliyev 2021-2022-ci illərdə media sahəsində praktik əməkdaşlığın həyata keçiriləcəyinə əminliyini ifadə edib.

Özbəkistan Prezidenti Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiya Agentliyinin direktoru Asadjon Xojayev isə ölkəsinin 44 günlük Zəfər müharibəsindən sonra Qarabağın bərpa prosesinə töhfə vermək istədiyini bildirib. O qeyd edib ki, Özbəkistanın inşaat şirkətləri buna tam hazırdır.

Qazaxıstanın informasiya və ictimai inkişaf nazirinin müavini Asxat Oralov Türk Şurasının himayəsi altında siyasi, iqtisadi, mədəni, təhsil və digər sahələrdə fəal əməkdaşlığın həyata keçirildiyini xatırladıb. Onun sözlərinə görə, türkdilli ölkələrin əməkdaşlığının möhkəmlənməsinə yönəlmiş səylər Qazaxıstanın informasiya siyasətinin inkişafının prioritet istiqamətidir. Qazaxıstan media və informasiya sahəsində Türk Şurasına üzv ölkələrlə uğurla əməkdaşlıq edir.

Macarıstanın Xarici Əlaqələr və Ticarət Nazirliyinin təhlükəsizlik siyasəti üzrə dövlət katibi Peter Sztaray ölkəsinin özünü türkdilli dövlətlər arasında gördüyünü vurğulayıb. "Hazırda ən böyük çətinliklərdən biri saxta xəbərlərə qarşı mübarizədir. Milli və beynəlxalq səviyyələrdə ictimaiyyətə düzgün məlumatların çatdırılması vacibdir. Saxta məlumatların dünya miqyasında nəticəsi və kənar təsirlərinin şahidi oluruq. Macarıstan barədə də saxta məlumatların yayıldığını görürük. Bu sahədə əməkdaşlıq vacibdir. Macarıstan informasiya sahəsində təcrübəsini bölüşməyə hazırdır",- deyə Peter Sztaray qeyd edib.

Tədbir müzakirələrlə davam edib.

## Xarici ölkələrin Azərbaycandakı hərbi attaşeləri HHQ-nin hərbi hissəsini ziyarət ediblər

Müdafiə nazirinin təsdiq etdiyi illik fəaliyyət planına əsasən, xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş hərbi attaşeləri üçün Hərbi Hava Qüvvələrinin (HHQ) hərbi hissəsinə tanışlıq səfəri təşkil olunub.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, on iki dövlətin hərbi attaşelik aparatının 15 nümayəndəsinə hərbi hissə, eləcə də HHQ-nin Vətən müharibəsində həyata keçirdiyi fəaliyyəti haqqında məlumat verilib və onların sualları cavablandırılıb. Səfər çərçivəsində qonaqlara aviasiya texnikası, o cümlədən təlim-uçuş simulyatorları nümayiş etdirilib.

Hərbi attaşelər ziyarətin yüksək səviyyədə təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# İLHAM ƏLİYEVİN QƏLƏBƏLƏRİ



*Əvvəli 1-ci səh.*

Üstəgəl Azərbaycanın və paytaxt Bakının başdan-başa yenidən tikilib qurulması, yol infrastrukturunun yaranması, ölkənin enerji, nəqliyyat, ərzaq təhlükəsizliyinin təmin edilməsi, işsizliyin, yoxsulluğun minimum həddə endirilməsi, xalqın sosial rifahının və həyat səviyyəsinin əsaslı şəkildə yüksəldilməsi və daha nələr-nələr...

Bütün bunların hər biri özlüyündə çox mühüm iqtisadi qələbələrdir.

❖ ❖ ❖

**Cənubi Qafqazın liderinə, söz sahibinə çevrilmək üçün təkcə iqtisadi qüdrət azdır, yüksək siyasi nüfuza da sahib olmalısan!**

**Prezident İlham Əliyev bunu da bacardı!**

Azərbaycanı dünyanın sayılıb-seçilən, öndə gedən, bütün növ reytinq cədvəllərində qabaqcıl yer tutan müstəqil dövlətə çevirdi.

*Bu gün hamı Azərbaycanı daim müstəqil siyasət yürüdən, maraqlı, səmərəli ideya və təşəbbüslərlə çıxış edən, əməkdaşlıq etdiyi ölkələrə də fayda gətirən dövlət kimi tanıyır və hörmət edir.*

**Əslində İlham Əliyev Azərbaycanı, Azərbaycan isə İlham Əliyevi ucaldıb!**

Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının iclaslarına sədrliyi zamanı, habelə Qoşulmama Hərəkatına, Türk Şurasına rəhbərliyi dövründə üzv dövlətlərin maraqlarına xidmət edən məsələlərin müzakirəyə çıxarılması, faydalı təşəbbüslərin irəli sürülməsi, ədalətlilik, obyektivlik prinsiplərinə dönmədən əməl edilməsi, ehtiyacı olan dövlətlərə təmənnasız yardımlar göstərilməsi sayəsində böyük hörmət qazandı.

**Azərbaycan Prezidenti İlham Əliyev beynəlxalq miqyasda keçirilən bütün tədbirlərin və forumların ən sevilən qonağı, maraqlı və səmərəli ideyalar irəli sürən çıxışçılarından biridir.**

*Azərbaycanın iqtisadi və siyasi cəhətdən tam müstəqil olması, daim dünyaya və əməkdaşlıq etdiyi ölkələrə fayda gətirən transmilli layihələrin təşəbbüsçüsü və icraçısı qismində çıxış etməsi, bərabər hüquqlu və qarşılıqlı maraqların təmininə əsaslanan mövqe ortaya qoyması dövlətimizin siyasi nüfuzunun özəyini təşkil edir.*

❖ ❖ ❖

**İlham Əliyev iqtisadi və siyasi sahədəki qələbələrini diplomatiya sahəsindəki qələbəsi ilə tamamladı.**

Yüksək hazırlığı, sinədəftər, məntiqli və təkzibedilməz faktlarla zəngin maraqlı nitqi, bir neçə dildə sərbəst danışması, sözünün sahibi olması və dediklərinə daim əməl etməsi, qarşılıqlı maraqları təmin edərək əməkdaşlığın mühüm prinsiplərini dönmədən yerinə yetirməsi dövlət başçımızın diplomatiya sahəsindəki qələbələrinin təminatçısıdır.

*Qardaş Türkiyə ilə dostluğu və sıx əməkdaşlığı tarixinin ən yüksək səviyyəsinə qaldırması, yaxın qonşularla mehribanlığa və qarşılıqlı hörmətə əsaslanan münasibətlər qurması, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə dil tapması, bütün məqamlarda ölkəmizin milli maraqlarını qoruması və təmin etməsi İlham Əliyevin diplomatik məharətinin bəhrəsi, son nəticədə isə qələbəsidir.*

...Maraqlı bir fakt:

Otuz il ərzində qəbul etdiyi dörd məlum qətnaməsinin yerinə yetirilməsinə əhəmiyyət verməyən BMT-nin Təhlükəsizlik Şurası Azərbaycana dost münasibəti bəsləməyən dövlətlərin təşəbbüsü ilə yeni qətnamə qəbul etməyə cəhd göstərdi. Həm də budəfəki sənəd əvvəlki qətnamələrə istinad etmədiyindən və Azərbaycanın Qarabağ probleminin hərbi yolla həllini qadağan etdiyindən yeni müharibədə böyük uğurlar qazanan ölkəmizə əngəl yarada bilərdi.

**Müzakirələrin gedişində Qoşulmama Hərəkatına üzv olan dövlətlər bu ədalətsizliyin qarşısını almaq üçün təsirli addımlar atdılar.**

**Nəticədə yeni, ziyanlı qətnamə qəbul olunmadı!**

*Bu həm də Azərbaycanın və İlham Əliyevin böyük qələbəsi idi.*

*Belə ki, xalqımızın dostları onun xeyirxahlığını unutmayaraq vacib məqamda öz borclarını şərəflə yerinə yetirdilər!*

❖ ❖ ❖

**İlham Əliyevin möhtəşəm qələbələrindən biri müstəqillik dövrünün bilikli, öz xalqına və dövlətinə, milli-mənəvi dəyərlərinə sadiq yeni nəsil vətənpərvər gəncləri yetişdirməsidir.**

*Biz bu nəslin nümayəndələrini 14 iyul 2020-ci ildə Bakıda kütləvi yürüş keçirərkən gördük və qürur duyduq.*

Minlərlə gənc hayqıraraq erməni işğalına və Vətəninə qarşı haqsızlıqlara etiraz edir, torpaqların işğaldan azad edilməsi uğrunda döyüşə hazır olduqlarını, bu yolda canlarından və qanlarından belə keçəcəklərini bildirdilər.

Hadisələrin sonrakı inkişafında, habelə 44 günlük Vətən müharibəsi dövründə azərbaycanlı igidlərin vədlərinə sadiq qaldıqlarının, hərbi əməliyyatlarda hünərlə iştirak edərək qəhrəmanlıqlar göstərdiklərinin şahidinə çevrildik.

Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycan gənclərinin vətənpərvərliyini və şücaətini yüksək qiymətləndirərək deyir: *"Gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canın fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq".*

Yeni gənclər nəslinin tərbiyəsinə İlham Əliyev Milli Olimpiya Komitəsinə prezident seçildiyi ilk günlərindən başlamışdı. O zaman ölkədə idman tamamilə unudulmuş, idman qurğuları, stadionlar, zallar acınacaqlı vəziyyətə düşərək dağıdılmış, yaxud da təyinatları üzrə istifadə edilmirdilər. Məşqçilər xarici ölkələrə getmiş, idmançılarımız vəsait yoxluğundan yarışlarda iştirak edə bilmir, ən yaxşı halda isə başqa ölkələrin komandalarında yarışırdılar.

**Cənab İlham Əliyev qısa müddətdə bu sahədə ciddi dönüş yaratdı. Gedənlər geri döndü, Azərbaycanda çoxsaylı olimpiya idman qurğuları, arenalar, idman meydançaları tikildi, köhnələri yenidən qurularaq müasir vəziyyətə gətirildi, gənclər həvəslə idmanla məşğul olmağa başladılar.**

*İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə İ Avropa Oyunlarının, İV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi, paytaxt Bakının beynəlxalq idman yarışlarının təşkili məkanına çevrilməsi ölkəmizin nüfuzunun yüksəlməsinə, dünyaya yeni imicdə təqdiminə şərait yaratmaqla yanaşı, idmanın kütləviləşməsinə, bütün növlər üzrə güclü idmançıların yetişməsinə, yeni nəslin sağlam ruhda tərbiyəsi prosesinə də töhfəsini verdi.*

**Dünyanın hər yerində dövlət bayrağımızı qaldıraraq himnimizi səsləndirən Azərbaycan gəncləri Qarabağı azad edərək onun bütün guşələrində, o cümlədən Şuşada zəfər bayrağımızı ucaltdılar!**

❖ ❖ ❖

*Müzəffər Ali Baş Komandan İlham Əliyevin bütün dünya tərəfindən qəbul edilən ən böyük uğurlarından biri də yeni, müasir Azərbaycan Ordusunu yaratmasıdır!*

**Məhz İlham Əliyevin yaratdığı və silahlandırdığı ordu Ermənistan ordusunu diz üstə qoydu, belini sındırdı!**

**Məhz İlham Əliyevin yaratdığı və silahlandırdığı ordu Ermənistanın 30 il ərzində istehkamlar, səngərlər qurduğu, bunkerlər tikdiyi müdafiə xətlərini sürətlə ələ keçirərək düşmən ordusunu qorxaq və fərarilər dəstəsinə çevirdi!**

**Məhz İlham Əliyevin yaratdığı və silahlandırdığı ordu Ermənistanı məğlubiyyətini etiraf etməyə, kapitulyasiya sənədinə qol çəkməyə, Azərbaycanın bütün şərtləri ilə razılaşmağa məcbur etdi!**

*Əslində ordu quruculuğundakı qələbə hərb meydanındakı zəfərin əsası oldu!*

*Əslində aprel müharibəsindəki qələbə böyük zəfərin başlanğıcı oldu!*

*Azərbaycan yeni əsrin yeni müharibəsini apardı!*

*Azərbaycan yeni silahların və yeni strategiyasının tətbiqi ilə yeni nümunə yaratdı!*

**Azərbaycan həm də Qarabağ münaqişəsinin yalnız hərbi yolla həllinin mümkünlüyünü əyani şəkildə nümayiş etdirdi!**

*Bu gün dünya İlham Əliyevin hərb təcrübəsindən öyrənir!*

*Bu gün dünya Azərbaycanın 44 günlük müharibəsini təhlil edərək özünə dərs götürür!*

*Bu gün güclü ordusu olan dövlətlər Qarabağ müharibəsi təcrübəsini əsas tutaraq yenidən silahlanır, ordularında və hərbi əməliyyatların aparılmasında zəruri dəyişikliklər edir!*

**İlk dəfə müharibə aparan Müzəffər Ali Baş Komandan İlham Əliyev bu sahədə də hamının qəbul etdiyi və öyrəndiyi yeni nümunə, yeni model yaratdı!**

❖ ❖ ❖

*Lakin İlham Əliyevin qələbələri bunlarla da bitmir!*

*İlham Əliyev dünya erməniliyinin təşkilatçılığı və dünya KİV-in iştirakı ilə Azərbaycana qarşı aparılan informasiya müharibəsində təkbaşına çarpışaraq 30-dan çox "həmləni" dəf etməklə mühüm qələbə qazandı!*

*Beləliklə, eyni vaxtda iki döyüş cəbhəsində zəfər çalmış oldu!*

❖ ❖ ❖

**İlham Əliyevin qələbəyə bərabər möhtəşəm uğurları da vardır!**

- İlk dəfə olaraq möhkəm milli birliyimiz yarandı, hamı düşmənə qarşı mübarizəyə səfərbər oldu!
- Xalqın milli qüruru, özünəinamı geriyə qayıtdı!
- Dünya Azərbaycan xalqının cəsur, döyüşkən, qalib xalq olduğunun şahidinə çevrildi!
- Azərbaycan əsgəri 44 gün ərzində öz hünərini, döyüş əzmini və məharətini dünyaya təqdim etdi!
- Azərbaycan hərbi əməliyyatların aparılmasında çox mühüm dəyişikliklərə və yeniliklərə imza atdı!

❖ ❖ ❖

**Ordusu məhv, özü biabırcasına məğlub edilən Ermənistan isə miskin və acınacaqlı duruma, hərbi siyasi, iqtisadi və mənəvi iflasa salındı!**

Ermənilər hələ də məğlubiyyətlərinin ağrı-acısını yaşayır, özlərinə gələ bilmirlər:

- Hələ də Azərbaycan ərazisində qoyub qaçdıqları leşlərini axtarıb tapırlar;
- Hələ də qorxaq, fərari əsgərlərini mühakimə edirlər;
- Hələ də məğlub və qorxaq zabitlərini, hərbi hissə komandirlərini həbsxanalara atırlar;
- Hələ də erməni valideynləri öz övladlarının Azərbaycan ərazisində hərbi xidmətə göndərilməsindən qorxaraq etiraz aksiyaları keçirirlər;
- Erməni gənclər isə Qarabağa göndərilməkdən it kimi qorxurlar!

❖ ❖ ❖

**Kiçik qələbələri böyük zəfərə çevirən cənab İlham Əliyev Qarabağa dalbadal səfərlər edərək dirçəliş proqramına şəxsən rəhbərlik edir, zəruri göstəriş və tapşırıqlarını verir, zəfər təntənəsini yaşayır!**

*Azərbaycan xalqı Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərin tezliklə minalardan təmizlənərək yenidən tikilib-qurulacağına, cənnətə çevriləcəyinə əmindir!*

**Xalq sevimli Prezidentinin bu dəfə də verdiyi vədi yerinə yetirəcəyinə və daha bir qələbəyə imza atacağına inanır!**

**Bəxtiyar SADIQOV**

# 2018 Sürətli islahatlar, qüdrətli dövlət, möhtəşəm Zəfər 2021

**Son üç ildə Azərbaycanda baş verən uğurlu prosesləri saymaqla bitirmək olmaz. 2018-ci ildən bugünədək olan dövrə nəzər yetirsək aydın görərik ki, Azərbaycan bütün istiqamətlərdə böyük uğurlara imza atıb. Prezident İlham Əliyevin həyata keçirdiyi mütərəqqi islahatların nəticəsi bu gün göz önündədir. Dövlət başçısının böyük siyasi əzmlə başlatdığı çoxşaxəli islahatlar son üç ildə ardıcıllıqla davam edib. Dünyanın yeni bir mərhələyə qədəm qoyduğu və hətta ən inkişaf etmiş ölkələrin böyük problemlərlə üzləşdiyi bir zamanda Azərbaycan öz dinamik inkişaf tempini qoruyub saxlayıb.**



## Azərbaycanı ucaldan siyasət

**Bu gün Prezident İlham Əliyevin respublikamıza prezidentlik müddətinin 3-cü ili tamam olur. 2018-ci ilin aprelin 11-də keçirilən seçkilərdə xalqımız növbəti dəfə doğru seçimini edərək əldə edilən uğurların davamlı olmasına, dövlətimizin və xalqımızın maraqlarını inamla təmin edən siyasətə səs verdi.**



Prezident seçkilərinin nəticələri Ulu Öndər Heydər Əliyevin uzaqgörən bir strateq olaraq müəyyən etdiyi inkişaf konsepsiyasının alternativsizliyini bir daha təsdiqlədi. Prezident İlham Əliyev bu strategiyanı inamla davam etdirərək Azərbaycanı Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf edən və qüdrətli dövlətinə çevirdi. 2003-cü ildən başlayaraq görülən işlərin miqyası, dövlət proqramlarının nəticələri, ölkəmizin dünya birliyində öz mövqelərini möhkəmləndirməsi bu həqiqətləri təsdiq edir.

2018-ci il aprelin 18-də Prezident İlham Əliyev Milli Məclisdə and içməklə rəsmən növbəti dövr üçün vəzifəsinin icrasına başladı. Dövlət başçısının çıxışından bir daha bəlli oldu ki, qarşıdakı 7 ilin prioritetləri, gediləcək yol məlumdur və bu yolda məqsəd Azərbaycanı daha da gücləndirmək, daha da inkişaf etdirmək və daha qüdrətli dövlətə çevirməkdir.

Azərbaycan tarixinin ötən 3 ilinin reallıqları göstərir ki, İlham Əliyev xalqın etimadını layiqincə doğruldan liderdir. Ötən ilə qədər Azərbaycanın yeganə ağır problemi torpaqlarımızın işğal altında olması idi. Ona görə İlham Əliyevin prezident kimi fəaliyyətinin əsas prioritetlərindən birini Ermənistanın işğal siyasətinə son qoyulması təşkil edirdi. Bu illərdə İlham Əliyev Ali Baş Komandan kimi ordumuzun döyüş imkanlarını ən müasir səviyyəyə çatdırdı. Beynəlxalq təşkilatların hesabatlarında da qeyd olunur ki, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusundan biridir.

Prezident İlham Əliyevin torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində fəaliyyətinin bir istiqamətini beynəlxalq səviyyədə həyata keçirilən siyasi-diplomatik tədbirlər təşkil etdi. Bütün beynəlxalq tədbirlərdə Ermənistan diplomatik küncə sıxışdırıldı, onun işğalçılıq siyasəti ifşa edildi. Bu baxımdan 2019-cu ildə Rusiyanın Soçi şəhərində keçirilən “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclası Prezident İlham Əliyev tərəfindən Ermənistana vurulan diplomatik zərbə ilə yadda qaldı. Dünyanın siyasi dairələrinin diqqət mərkəzində olan iclasın əsas hadisəsi Prezident İlham Əliyevin Ermənistanın baş naziri N.Paşinyana verdiyi tutarlı və kəsərli “Qarabağ Azərbaycandır və nida işarəsi” cavabı oldu.

Bundan başqa, həmin il oktyabrın 11-də Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında, oktyabr ayının 25-26-da Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşündə çıxışları zamanı işğalçı Ermənistanı tutarlı faktlarla ifşa etdi. 2020-ci il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində isə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr zamanı, eləcə də iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən sammitində Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətini ifşa edən dövlət başçısı Ermənistanın baş nazirinə beynəlxalq hüquqdan və tarixdən əsl dərs keçdi. Bütün bunlar Prezident İlham Əliyevin beynəlxalq hüququ dərindən bilən siyasətçi, mahir və peşəkar diplomat olğunu bir daha bütün dünyaya nümayiş etdirdi.

İnkişafın və nailiyyətlərin kökündə dayanan əsas amil ölçülüb biçilmiş iqtisadiyyat və maliyyə imkanlarıdır. Dünya iqtisadiyyatında başlanan böhran son 3 ildə də davam edib. Bütün bunlara, o cümlədən neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, həyata keçirilən islahatların, düşünülmüş iqtisadi siyasətin nəticəsi olaraq 2018-2019-cu illərdə Azərbaycanda qeyri-neft sektorunun inkişafında artım qeydə alındı. Daha dəqiq desək, yalnız 2018-ci ildə qeyri-neft sektorunda 9 faizdən çox artım oldu. O cümlədən ixrac əvvəlki illə müqayisədə təxminən 40 faiz çoxaldı. Həmin il “Cənub qaz dəhlizi”nin, TANAP kəmərinin inşasının başa çatdırılması, Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin istifadəyə verilməsi ilə yeni enerji və nəqliyyat-logistika infrastrukturunun formalaşdırılması istiqamətində qarşıya qoyulan vəzifələr yerinə yetirildi. 2019-cu ildə isə Azərbaycanda iqtisadiyyat 2,2 faiz, qeyri-neft sektoru 3,5 faiz, qeyri-neft sənayesi 14 faizdən çox artdı.

Pandemiyanın bütün dünyada yayıldığı ötən il bir çox inkişaf etmiş dövlətlərin iqtisadi həyatında ciddi geriləmələr baş verdi. Azərbaycan iqtisadiyyatında isə cüzi azalma baş verməsinə rəğmən qeyri-neft sənayesinin 11 faizdən çox artımı respublikamızda həyata keçirilən mühüm iqtisadi uğur sayılmalıdır.

Bu dövr üçün başqa bir mühüm hadisə Azərbaycanın Dünya Bankının “Doing Business 2020” Hesabatında mövqeyinin 6 pillə yaxşılaşması və ölkəmizin bir daha dünyanın “Ən islahatçı on ölkəsi” sırasına daxil olmasıdır. Hesabata əsasən inkişaf etməkdə olan 74 ölkə arasında aparılmış araşdırmaya görə, Azərbaycan dünya miqyasında inklüziv inkişaf indeksi üzrə üçüncü, əhalinin elektrik təchizatı səviyyəsinə görə ikinci, islahatçı obrazı əmsalına görə beşinci yerdədir. Bu göstəricilər təsdiqləyir ki, Azərbaycan dünyanın inkişaf edən ölkələrindəndir.

Bütün dünyanı bürüyən koronavirus pandemiyasına gəldikdə isə onu qeyd etmək yerinə düşər ki, problemlə mübarizə ilk gündən Prezident İlham Əliyevin ayrıca nəzarətindədir. Azərbaycan pandemiya ilə mübarizədə qabaqlayıcı tədbirlər görən azsaylı nümunəvi ölkələr sırasındadır. Qısa müddətdə 13 modul tipli xəstəxana inşa edilib, 40-dan çox müasir laboratoriya fəaliyyətə başlayıb.

Azərbaycan həm də pandemiya ilə mübarizədə qlobal həmrəyliyə böyük töhfələr verir. Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması, Türk Şurasının Zirvə görüşünün keçirilməsi, həmçinin Ümumdunya Səhiyyə Təşkilatına 10 milyon dollar dəyərində ianənin edilməsi Azərbaycanın pandemiya ilə qlobal mübarizəyə verdiyi dəstəyin ayrı-ayrı nümunələridir. Aprelin 6-da Ümumdünya Sağlamlıq Günü münasibətilə Prezident İlham Əliyevin videomüraciətindən sonra çıxış edən Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru da Azərbaycan Prezidentinin peyvəndlərə bərabərhüquqlu, məqbul qiymətə, vaxtında əlçatanlığın təmin olunması ilə bağlı BMT-nin İnsan Hüquqları Şurasında göstərdiyi liderliyi alqışladı.

Artıq bir neçə müddətdir dünyada pandemiyaya qarşı mübarizə çərçivəsində vaksinasiya prosesinə start verilib. Cənubi Qafqazda isə bu proses ilk olaraq Azərbaycanda başlayıb və ölkəmiz hazırda peyvəndləmə səviyyəsinə görə MDB-də liderdir.

Prezident İlham Əliyevin yeni müddətə prezidentliyinin ən böyük hadisəsi isə işğal altında olan torpaqlarımızın azad edilməsi oldu. Ötən il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı törətdiyi növbəti hərbi təxribat tariximizə Vətən müharibəsi kimi düşən savaşa yol açdı. Şanlı ordumuz elə həmin gün başlatdığı əks-hücum əməliyyatları ilə düşməni ilk andan işğal olunmuş ərazilərimizdən qovub çıxardı. 44 gün davam edən müharibədə 30 ilə yaxın işğal altında olan əzəli torpaqlarımız azad edildi.

Noyabrın 10-da imzalanan bəyanatla Azərbaycanın qələbəsi və Ermənistanın məğlubiyyəti bütün dünyaya bəyan olundu. Bu Qələbə Azərbaycanın son əsrlərdəki ən böyük zəfəri oldu. Şah İsmayılın, Nadir şahın qurduğu imperiyaların süqutundan sonra Azərbaycan ilk dəfə olaraq bu miqyasda tarixi torpaqlarını işğaldan azad etdi. Dövlət başçısının Novruz bayramı münasibətilə Şuşadan xalqımıza etdiyi qürurdoğuran müraciətində dediyi kimi, hazırlaşdıq və düşməni məğlub etdik.

Artıq “Dağlıq Qarabağ problemi” ifadəsi yoxdur. Çünki İlham Əliyev bu problemə son qoydu və Dağlıq Qarabağdakı ermənilərin Azərbaycan dövlətinin qanunları ilə yaşamaqdan başqa yolları yoxdur. Bu Qələbə həm də regionda yeni reallıqlara yol açıb. Bu mənada xüsusi qeyd edilməlidir ki, Prezident İlham Əliyev Ermənistanın işğal siyasətinə son qoymaqla həm də bütün türk dövlətlərinin daha da yaxınlaşmasına xidmət edən tarixi bir missiyanı yerinə yetirdi. Belə ki, 10 noyabrda imzalanmış üçtərəfli bəyanatda Naxçıvanı Azərbaycanın əsas ərazisi ilə birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası ilə bağlı müddəa yer aldı. Vaxtilə Zəngəzurun Ermənistana verilməsi ilə türk dünyası arasında coğrafi parçalanma baş vermişdi. Azərbaycanın Qələbəsi isə artıq Zəngəzur vasitəsilə bütün türk dünyasını birləşdirəcək. Zəngəzurdan keçəcək yeni nəqliyyat dəhlizləri həm də son onilliklərdə bərpa olunan tarixi İpək yolunun mühüm komponentini təşkil edəcək. Çin dövləti də Avropaya doğru Azərbaycandan keçən nəqliyyat dəhlizlərinin əhəmiyyətini və Prezident İlham Əliyevin bu məsələdəki təşəbbüslərini yüksək qiymətləndirir.

Müharibə günlərində respublikamızı döyüş yolundan döndərmək üçün siyasi-diplomatik təzyiqlərin edilməsinə cəhd göstərildi, erməni təəssübkeşlərinin sifarişi ilə xarici KİV-də Azərbaycana qarşı qarayaxma kampaniyası aparıldı. Lakin bunu edənlər gördülər ki, Azərbaycanı öz yolundan döndərmək mümkün deyil. Ermənistanın tərəfini tutan siyasi mərkəzlər anlayırlar ki, bu ölkənin üçtərəfli bəyanatın yerinə yetirilməsindən başqa yolu yoxdur. Amma son günlərdə Almaniyanın bəzi siyasi dairələri və media orqanları nədənsə yenidən “fəallaşıblar”. Bu ölkənin qəzetlərində davamlı şəkildə ölkəmiz əleyhinə yazılar dərc olunur, televiziyalarında qərəzli reportajlar, proqramlar efirə gedir. Görünən odur ki, İlham Əliyevin uğurları, Zəngəzur vasitəsilə türk dünyasını birləşdirməsi antiazərbaycançı şəbəkəni, dünya erməniliyini qıcıqlandırır və buna görə Azərbaycana qarşı yeni qarayaxma kampaniyası başladıblar. Bunun üçün ən “münbit” ölkə isə Almaniya seçilib. Çünki bu ölkədə pula satılan media orqanları və siyasətçilər kifayət qədər çoxdur. Amerikanın müstəqil nəşri “The USA Tribune”da dərc olunan məqalədə də Almaniyada həm federal, həm də yerli səviyyədə korrupsiyaya uğramış, neo-nasizm ideyalarının daşıyıcısı olan deputatların ermənipərəst lobbiçilər tərəfindən ələ alındığı diqqətə çatdırılır.

*Ötən illərin təcrübəsi və reallıq göstərir ki, Azərbaycana təsir və təzyiq etmək qeyri-mümkündür. Prezident İlham Əliyev tam müstəqil, qətiyyətli siyasət yürüdür və torpaqlarımızın işğaldan azad olunması bunun bariz təsdiqidir. Yaxın vaxtlarda isə azad olunmuş Qarabağ zonası dirçələcək. Azərbaycan İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da böyük nailiyyətlər qazanmaqla dostları sevindirəcək, bədxahlara isə əzab verəcək.*

***Eldar QULİYEV,***
***Azərbaycan Ağsaqqallar Şurasının sədri,***
***Milli Məclisin deputatı***

## İlham Əliyev müasir tariximizin ən şərəfli səhifələrinin müəllifidir



Bu gün bəşəriyyətin varlığını təhdid altına almış koronavirus təhlükəsi də dövlətin iqtisadi inkişaf sürətinə və siyasi sabitliyinə mane ola bilməyib. Dünyanı öz ağuşuna alan pandemiyanın ağır fəsadlarının davam etdiyi dövrdə Prezidentin gördüyü qabaqlayıcı tədbirlərlə Azərbaycan dünyaya bəyan etdi ki, dövlət hər zaman vətəndaşının yanındadır. Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyevanın pandemiya dövründə xalqa göstərdiyi diqqət və qayğı isə əvəzolunmazdır. Bu istiqamətdə atılan addımlar, dövlət tərəfindən tədbirlərin görülməsi o dərəcədə uğurlu oldu ki, dünya ölkələri Azərbaycanın pandemiyaya qarşı mübarizə tədbirlərini alqışladı, təcrübəsini nümunə kimi göstərdi. Bu da bir daha onu təsdiq etdi ki, dövlət üçün ən birinci vəzifə vətəndaş sağlamlığının qorunmasıdır.

Bütün bunlarla yanaşı, Prezidentin idarəetmənin bütün səviyyələrində həyata keçirdiyi struktur islahatları keyfiyyət baxımından yeni idarəçilik mexanizmini formalaşdırdı. Parlament seşkiləri bu islahatların məntiqi davamı idi. Bu seçkilər demokratik inkişaf istiqamətində atılmış növbəti addım kimi dəyərləndirilir. Parlamentin və onun komitələrinin rəhbərliyində müxalifət partiyaları nümayəndələrinin təmsil olunması isə müstəqil Azərbaycan parlamentarizmi tarixində ilkdir.

2020-ci ilin ən böyük tarixi uğuru isə əlbəttə ki, 44 günlük Vətən müharibəsində əldə edilmiş şanlı Qələbəmiz oldu. Bu qələbə Azərbaycanın dövlətçilik tarixinə yazılan yeni qəhrəmanlıq salnaməsidir. Bu Zəfər respublikamızı beynəlxalq münasibətlər sistemində söz sahibinə çevirdi. Ən əsası Azərbaycanın torpaqlarını işğaldan azad elməsi ilə Qarabağ problemi başa çatdı, ATƏT-in Minsk qrupunun münaqişənin həllinə yönəlmiş 30 illik “turist” fəaliyyətinə son qoyuldu. “Dağlıq Qarabağ münaqişəsinin sülh yolundan başqa həlli yolu yoxdur” tezisi darmadağın edildi. Sübut olundu ki, bu münaqişə hərb yolu ilə həll oluna bilərmiş.

Ermənistanın uzun illər nail olmaq istədiyi məsələlərdən biri Qarabağın statusu ilə bağlı idi. Lakin Prezident İlham Əliyevin ifadəsi ilə desək, Dağlıq Qarabağın statusu məsələsi gorbagor olub getdi. Bu, ən böyük uğurlarımızdan biridir. Bununla da 1923-cü ildən bəri Azərbaycan xalqının başı üzərindən asılan “damokl qılıncı” da məhv edildi. Tarix boyu bizi təhdid edən, tariximizdə daim faciələr törədən bir qüvvəni məğlub etməklə dünya erməniliyinə də qalib gəldik. Tariximizin və taleyimizin ən şərəfli səhifəsi məhz bu üç ildə yazıldı.

Zəfər paradında Qalib Sərkərdəmiz bəyan etdi ki, bu gün dünya dövlətləri sırasında Azərbaycanın da yeri var, bizi aşağılamaq olmaz. Həqiqətən də bu gün dünya millətləri sırasında Azərbaycan xalqının yeri ucadır. Bu qələbə ilə beynəlxalq münasibətlər sistemindəki yeri və rolunu daha da möhkəmləndirən Azərbaycan strateji tərəfdaşlarının sayını artırmış oldu. Tarixi qələbə nəticəsində Azərbaycan Cənubi Qafqazda yaratdığı yeni reallıqlarla bütün türk dünyasının güclənməsinə misilsiz töhfə verdi.

Bütün bunlar onu göstərir ki, cənab İlham Əliyev Tanrı tərəfindən Azərbaycana göndərilmiş xilaskar Liderdir. Çünki Ali Baş Komandan millətin ruhunu, varlığını xilas etdi.

Tarixdə çox sərkərdələr olub. Ancaq onların hamısı öz millətinin taleyində bu qədər böyük rol oynaya bilməyib. Ona görə də bu xalq cənab İlham Əliyevə ömür boyu böyük sevgi bəsləyəcək. Hesab edirəm ki, dünyada çox az dövlət başçılarına bu qədər millət sevgisi qazanmaq nəsib olub. Prezident İlham Əliyev də millət sevgisi ilə əhatə olunan liderdir.

Allah Prezidentimizi qorusun. Böyük xarüqələr yaradıb və bu gün də xoşməramlı missiyasını davam etdirir. Qarabağı yenidən cənnətə çevirmək üçün var gücü ilə çalışır. Tezliklə o günün də şahidi olacağıq. İlham Əliyev indiyədək verdiyi bütün vədlərinə sadiq çıxan liderdir. Onun yürütdüyü müstəqil, prinsipial siyasətlə Azərbaycan güclü iqtisadiyyata, qüdrətli orduya, sarsılmaz xalq-iqtidar birliyinə sahib olan dövlətə çevrilib. Bizlər çox xoşbəxtik ki, məhz tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanda baş verən bütün bu proseslərin canlı şahidləriyik.

İlham Əliyev tariximizin ən şərəfli səhifələrinin müəllifidir. Bu səbəbdən də hesab edirəm ki, Qarabağın ən uca nöqtəsində bu tarixi Zəfəri bizə yaşadan Liderin qızıldan heykəlinin ucaldılmasının vaxtıdır.

***Fəzail İBRAHİMLİ,***
***Milli Məclis sədrinin müavini***

## Son 3 il - islahatlar, idarəetmə sistemində yeniləşmə və Böyük Qələbə mərhələsi

**2018-ci il aprelin 18-də Prezident İlham Əliyevin andiçmə mərasimi oldu və onun qarşıdakı 7 il ərzində hansı məsələləri prioritet kimi irəli sürəcəyi hər kəs kimi siyasi müxalifət üçün də maraqlı idi. İlham Əliyev birmənalı şəkildə qeyd etdi ki, növbəti illərdə çox ciddi islahatlar aparacaq, onları dərinləşdirəcək və vətəndaşların yaşayış səviyyəsi daha da yaxşılaşacaq. Həmçinin vurğuladı ki, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə bundan sonra da güclənəcək.**



Prezident iqtisadi islahatlar və ordu quruculuğu, siyasi opponentlərlə münasibətlərin sağlam əsaslar üzərində qurulması və digər məsəslələrə də toxunmuşdu.

Bildirmişdi ki, seçki kampaniyası dövründə rəqiblərin səsləndirdiyi haqlı tənqidləri öz fəaliyyətində nəzərə alacaq, onların təkliflərini həyata keçirməyə çalışacaq. Eyni zamanda bildirmişdi ki, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, münaqişənin qısa zamanda həlli onun üçün ən əsas prioritetdir.

Bəs İlham Əliyevin növbəti dəfə prezident kimi and içməsindən ötən 3 il ərzində nələr baş verdi?

Bu gün görünən reallıq odur ki, İlham Əliyev andiçmə mərasimindəki nitqində verdiyi vədləri demək olar ki, böyük uğurla yerinə yetirməkdədir. Biz hər şeydən əvvəl siyasi hakimiyyət strukturunda ciddi institusional dəyişikliklərin şahidi olduq. Eyni zamanda artıq yeni dövrün tələbləri ilə ayaqlaşa bilməyən dövlət institutlarının daha dinamik və effektiv olanlarla əvəz edildiyini gördük. Bu zaman gənc, xaricdə təhsil almış, bilikli və bacarıqlı insanlar, peşəkar menecerlər hakimiyyət strukturlarında idarəçiliyə gətirildi. Bu proses hazırda da davam etməkdədir. Kommunist partiyasından bizə miras qalmış, yeni dövrün tələbləri ilə ayaqlaşa bilməyən, öz əməlləri ilə ölkədə inkişafın gedişini ləngidən, xalqın haqlı qınağı ilə üzləşən köhnə komanda modern və gənc kadrlarla əvəz edilməkdədir.

Xüsusilə qeyd edilməlidir ki, Prezident hakim komandanı yeniləyərkən partiya faktoruna yox, peşəkarlığa üstünlük verir. Dövlət idarəetməsinin hər pilləsində əsas prinsip kimi islahatların reallaşdırılması qəbul edilib. Biz dərin islahatlar gözləyirik. Bu, bütün sahələri əhatə etməlidir, dövlət idarəetməsi daha da təkmilləşməlidir.

Eyni zamanda ölkədə gedən siyasi islahatlar öz səmərəsini verməkdədir. İlk öncə qeyd edə bilərik ki, son dövrlərdə iqtidar-müxalifət dialoquna doğru mühüm və çox ciddi addımlar atılıb. Xüsusən də Prezidentin Administrasiyasında Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin yaradılmasından və müvafiq quruma Ədalət Vəliyevin müdir təyin edilməsindən sonra bu struktur fəaliyyətini intensiv həyata keçirir. Bu, ölkədə siyasi mədəniyyətin formalaşması, ölkənin siyasi sisteminin güclənməsi, inkişafı istiqamətində bir prosesdir və hər kəs tərəfindən təqdir olunur.

Son bir il göstərdi ki, Azərbaycan pandemiya ilə mübarizədə ön yerlərdən birini tutur. İlk gündən ölkədə pandemiya ilə mübarizəyə start verilib və çətin dövrdən daha az itkilərlə çıxmaq hədəf götürülüb. Təsadüfi deyil ki, bu gün Azərbaycan peyvənd olunmuş əhalinin faizinə görə MDB regionunda liderdir. Bu istiqamətdə dövlət səviyyəsində görülən işlər özünü rəqəmlərdə, müxtəlif statistikalarda ifadə edir.

Bundan əlavə, ölkədə aparılan vergi, bank-maliyyə, kənd təsərrüfatı, ekoloji təhlükəsizlik sahəsindəki islahatlar da təqdirəlayiqdir.

Ötən dövr ərzində İlham Əliyevin Azərbaycan dövləti və xalqı üçün göstərdiyi ən böyük xidmət ərazilərimizin işğaldan azad edilməsidir. O, 44 günlük Vətən müharibəsinin qalibiyyətlə başa çatmasının əsas səbəbkarıdır. Vətən müharibəsi zamanı şərəflə yazılan Azərbaycanın Zəfər tarixi Müzəffər Ali Baş komandanın ordu və xalqı ilə birlikdə yaratdığı əsl qəhrəmanlıq dastanıdır. 30 illik həsrət cəmi 44 günə sona çatdı, xalqımız öz liderinin ətrafında yumruq kimi birləşdi və nəticədə “dəmir yumruq” düşmənin başına endirildi. Bu zəfər sonrakı min illər ərzində də Azərbaycanın şanlı tarixini bəzəyəcək.

Təəssüf ki, Azərbaycan müharibə dövründə olduğu kimi, müharibədən sonra da xaricdəki anti-Azərbaycan qüvvələrlə mübarizə aparmalı olub. Həm informasiya cəbhəsində, həm də döyüş cəbhəsində aparılan mübarizə ölkəmizin, onun rəhbərinin gücünü göstərdi. Lakin hələ işlər bitməyib. Üstümüzə erməni lobbilərinin dəstəyi ilə daha güclü informasiya savaşçıları gəlməkdədir. Biz müharibənin ardından informasiya savaşını da, diplomatiya savaşını da qazanmaq məcburiyyətindəyik. Ona görə də hamımız ayıq-sayıq olmalı, bütün siyasi ambisiyalarımızı kənara qoyub, vətən naminə ümumi dövlət prinsipləri ətrafında sıx birləşməliyik.

Ümidvarıq ki, ölkədə gedən dərin islahatlar, qələbə əhvali-ruhiyyəsi, nəsil dəyişikliyi və idarəetmə sisteminə gətirilən yeniliklər İlham Əliyevə qarşıdakı illərdə daha böyük uğurlara imza atmağa imkan verəcək.

***Asim MOLLAZADƏ,***
***Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədr müavini***

# 2018 Sürətli islahatlar, qüdrətli dövlət, möhtəşəm Zəfər 2021



**Bu gün İlham Əliyevin növbəti müddətə Prezident seçilməsinin 3-cü ili tamam olur. Ötən 3 ilin mənzərəsi xalqımızın İlham Əliyevin ətrafında birləşməklə inkişafa, yüksəlişə və güclü Azərbaycana səs verdiyini göstərir.** ***Milli Məclisin deputatlarının qəzetimizə açıqlamaları da bu barədədir.***

# Azərbaycana Zəfər sevincini yaşadan Prezident

## Xalqın sevdiyi rəhbər

**Tahir RZAYEV,**
*Milli Məclisin*
*Aqrar siyasət komitəsinin sədri:*

2018-ci ilin Prezident seçkilərinin yüksək səviyyədə, demokratik şəraitdə keçirilməsi və Azərbaycan xalqının cənab İlham Əliyevə bir daha yüksək etimad göstərməsi ölkə vətəndaşlarının öz rəhbərinə olan sonsuz inamının və məhəbbətinin ifadəsi idi. Çünki cənab İlham Əliyev ilk dəfə Prezident seçilərkən qətiyyətlə bəyan etmişdi ki, "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" və fəaliyyəti dövründə də öz vədinə sədaqətlə əməl etmişdi. Bu illərdə Azərbaycan iqtisadiyyatı xeyli dərəcədə inkişaf etdirilmiş, çox mühüm sosial layihələr, proqramlar həyata keçirilmiş, beynəlxalq aləmlə münasibətlər yaxşılaşdırılmışdır. İnsanların rifah halı yüksəlmiş, işsizlik aradan qaldırılmış, güclü ordu yaradılmışdır. Xalq Aprel döyüşlərində Ali Baş Komandanın cəsarətinin, qətiyyətinin şahidi olmuşdur.

İnsanlar inanırdılar ki, cənab İlham Əliyev işğal altında olan torpaqları da mütləq təcavüzkarlardan azad edəcək, uzun illər od-ocaq həsrəti çəkən sakinlər öz ata-baba yurdlarına qayıdacaq, Azərbaycanda yeni, xoşbəxt bir həyat başlanacaqdır.

Buna ölkə Prezidentinin uğurlu fəaliyyəti, çıxışları, vətən, xalq sevgisi, torpağa bağlılığı, düşmənə sonsuz nifrəti, beynəlxalq aləmdə qazandığı nüfuz, həyata keçirdiyi düşünülmüş siyasət, xalqla birliyi əsas verirdi. Cənab İlham Əliyev ən mötəbər tədbirlərdə ilk olaraq Qarabağ məsələsini qaldırırdı, ermənilərin təcavüzkarlığını qabardırdı, əsaslı faktlarla erməni faşizmini, separatçılığı, terroru ifşa edirdi, təcavüzkarlara dəstək verənlərə öz yerini göstərirdi. "Biz torpaqlarımızı işğaldan azad edəcəyik, üçrəngli bayrağımızı Şuşada dalğalandıracağıq, Qarabağ Azərbaycandır" ifadələrini dönə-dönə söyləməklə, təkrar etməklə xalqı qələbəyə, mübarizəyə ruhlandırır, həm də düşmənə bir mesaj verirdi.

Prezidentimiz ilk növbədə öz gücünə, iradəsinə, qətiyyətinə, həm də xalqının qüdrətinə, əyilməzliyinə, ona olan inamına, məhəbbətinə, ordumuzun, əsgər və zabitlərimizin yenilməzliyinə inanırdı. Dövlət başçısı həm də Azərbaycan iqtisadiyyatının davamlılığına, başda Türkiyə rəhbərləri, xalqı olmaqla ölkəmizə dəstək verən dövlətlərin səmimiyyətinə, bir çox beynəlxalq təşkilatların bizə göstərdikləri sağlam münasibətlərə arxalanırdı. Cənab İlham Əliyev Prezident seçildiyi ilk gündən sülh, əmin-amanlıq və əməkdaşlıq uğrunda mübarizə aparmış və öz əməli fəaliyyəti nəticəsində bu nailiyyətləri, dostluğu, səmimiyyəti, birliyi əldə etmişdi. Sözsüz ki, çətin anda bu bəşəri dəyərlərə sadiqlik, haqq-ədalət uğrunda mübarizə öz bəhrələrini verməli idi və verdi. Bu gün nəinki Azərbaycan xalqı, bütün Türk dünyası, tərəqqipərvər bəşəriyyət cənab İlham Əliyevlə fəxr edir. O, dünyada insan azadlığının, təhlükəsizliyinin, sağlamlığının qarantı kimi çıxış edir, qalib bir xalqın oğlu olaraq erməni faşizmi üzərində tarixi qələbə qazanılmasına baxmayaraq yenə də qonşu dövlətlər, dünya xalqları ilə qarşılıqlı əməkdaşlıq, mehriban şəraitdə yaşamağa böyük önəm verir və bu yolda əlindən gələni əsirgəmir.

Məhz bütün bunlara görə də xalq öz Prezidentini sevir, onun siyasi gedişlərini, insanların rifah halı, gələcəyi, ölkənin inkişafı üçün həyata keçirdiyi tədbirləri dəstəkləyir və öz münasibətləri, fəaliyyətləri ilə cənab İlham Əliyevlə birlikdə olduqlarını nümayiş etdirirlər.

## Tariximizə şanlı Qələbəni yazan Lider

**Novruzəli ASLANOV,**
*Milli Məclisin deputatı,*
*Azərbaycan Qızıl Aypara*
*Cəmiyyətinin prezidenti:*

- 2018-ci il respublikamızın ictimai-siyasi və iqtisadi həyatında mühüm hadisələrlə yadda qaldı, Azərbaycan Xalq Cümhuriyyətinin və Silahlı Qüvvələrimizin yaradılmasının, Bakının işğaldan azad edilməsinin 100-cü ildönümləri təntənə ilə qeyd edildi. Naxçıvandakı Günnüt qələbəsi isə təsdiq etdi ki, torpaqlarımızın işğaldan azad ediləcəyi gün uzaqda deyil.

Həmin ilin ən əlamətdar və mühüm siyasi hadisəsi isə aprel ayının 11-də keçirilən prezident seçkiləri oldu. Xalqımız bu seçkidə də ən layiqli namizədi dəstəklədi, İlham Əliyevin ətrafında birləşməklə inkişafın davamlı olmasına, daha qüdrətli Azərbaycana səs verdilər. Bir daha təsdiq olundu ki, müdrik və qədirbilən xalq öz taleyini məhz illərin sınağından çıxan, ölkənin inkişafını təmin edən siyasətə etibar edir.

İlham Əliyevin hər bir prezidentlik dövrü xalqımıza verdiyi uğurlu hesabatdır. Bu hesabatın hər səhifəsi xalqımızın görmək istədiyi nailiyyətlərlə əlamətdardır. 2003-2018-ci illərdə milli iqtisadiyyatımızın 3, qeyri-neft iqtisadiyyatımızın 2,8 dəfə artması, ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial siyasət sayəsində insanların həyat şəraitinin yüksəldilməsi, rifahının yaxşılaşdırılması, yoxsulluq həddinin 50 faizdən 5 faizə endirilməsi, başqa sözlə, təxminən 10 dəfə azaldılması, işsizlik səviyyəsinin təxminən 5 faizə endirilməsi qısa dövrdə onilliklərə bərabər keçilən inkişafın təcəssümü idi.

İndiyədək iki dəfə prezident seçkilərində cənab İlham Əliyeviin vəkili olmuşam. Hər dəfə vətəndaşların İlham Əliyevə olan dərin rəğbətini görmüşəm. 2003-cü ildən sonrakı dövrdə həyata keçirdiyi uğurlu siyasətlə Azərbaycanı dinamik inkişaf yoluna çıxaran İlham Əliyevin 2018-ci ilin seçkilərində də qələbə qazanaraq Prezident seçilməsi xalqımızın arzusu idi. Ona görə seçicilərin 86,02 faizi məhz İlham Əliyevin adı üzərində dayanaraq öz seçimlərini etmişdilər. Beləliklə, 15 ildə ölkəmizin nail olduğu uğurlar, keçdiyi böyük inkişaf yolu İlham Əliyevin növbəti prezident seçkilərində də qələbə qazanması ilə nəticələndi. Başqa cür ifadə etsək, Azərbaycanda həyata keçirilən genişmiqyaslı sosial-iqtisadi layihələrin dövlətimizə və xalqımıza verdiyi dividendlərin, Azərbaycanın beynəlxalq imicinin yüksəlməsinin və digər nailiyyətlərin məntiqi yekunu həm də İlham Əliyevin prezident seçkilərində qazandığı möhtəşəm qələbə oldu.

Cəmiyyətdəki çoxluğun mənafeyinə cavab verən praqmatik və realist siyasət yürüdən Prezident İlham Əliyevin son seçkilərdəki möhtəşəm qələbəsini şərtləndirən əsas amillərdən biri də dövlət başçısının məhz Heydər Əliyev siyasi kursuna istinad etməsi, Ulu Öndərin ideyalarını bütün sahələrdə gerçəkləşdirməsi, zənginləşdirməsi idi. Həm də İlham Əliyev əvvəlki prezidentlik müddətlərində Ulu Öndər Heydər Əliyevin milli inkişaf strategiyasını yeni dövrün tələbləri, modern yanaşma ilə uğurla davam etdirməklə Ümummilli Liderin siyasi kursunun alternativsizliyini birmənalı təsdiqləmişdi. 2018-ci ilin aprel seçkisi bir daha Heydər Əliyev siyasi kursunun Azərbaycanın yeganə nicat yeri olduğunu, milli inkişafda mühüm rol oynadığını növbəti dəfə təsdiqlədi. Hər bir vətəndaşın mənafeyi uca tutulmaqla həyata keçirilən bu siyasi kursun böyük ictimai etimada, dəstəyə malik olduğu növbəti dəfə sübuta yetdi.









Aprel ayının 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimində İlham Əliyev həmişəki kimi lider görkəmində idi. O, inkişaf yoluna çıxardığı Azərbaycanın iftixar doğuran yüksəlişinin icmalını verdi və qarşıdakı 7 ildə respublikamızın hədəflərini diqqətə çatdırdı, inkişafının yeni priorietlərini elan etdi. Bir daha İlham Əliyev kimi prezidentimizin olması ilə fəxr etdik, qürur duyduq. Proqram xarakterli həmin çıxışında İlham Əliyev dedi: "Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var".

Bu gün dönüb geriyə baxanda İlham Əliyevin ötən 3 ildə nə qədər möhtəşəm işlər gördüyünün, andiçmə mərasimində toxunduğu məsələlərin qısa dövrdə reallığa çevrilməsinin şahidi oluruq. Bu 3 ilin hər bir dövrü möhtəşəm və gələcəyimizə işıq salan, dövlətimizi yüksəldən, xalqımıza sonsuz sevinc bəxş edən hadisələrlə, uğurlarla, qələbələrlə zəngindir. 2018-ci ilin seçkilərindən sonrakı aylar Prezident İlham Əliyevin müəllifi olduğu möhtəşəm infrastruktur layihələrin icrasının başa çatması ilə əlamətdar oldu. Həmin ilin may ayının sonlarında "Cənub qaz dəhlizi"nin istifadəyə verilməsi, əsas seqmentlərindən olan TANAP kəmərinin açılışı göstərdi ki, Ulu Öndərin əsasını qoyduğu enerji siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Həm də bütün dünya bir daha gördü ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan müəyyən etdiyi vəzifələri vaxtında yerinə yetirən, aydın və düşünülmüş strategiyası, dəqiq siyasəti olan dövlətdir. Bunlarla yanaşı, "Star" neft emalı zavodunun, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin istifadəyə verilməsi, üçüncü peykimizin orbitə çıxarılması isə təsdiq etdi ki, Azərbaycan təkbaşına qlobal layihələri həyata keçirməyə qadirdir.

2019-cu ildən isə cəmiyyətimizdə mühüm yeniliklərə səbəb olan islahatlara start verildi. Bu barədə cənab İlham Əliyev hələ andiçmə mərasimində məlumat vermişdi. Bu islahatların əsas hədəfləri Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirmək, nöqsanları aradan qaldırmaq, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaq, insanların rifah halını yaxşılaşdırmaq idi. Ötən illərin reallıqları göstərir ki, ölkəmiz bu hədəflərə doğru sürətlə və inamla irəliləyir.

Prezident İlham Əliyevin ötən 3 ildəki rəhbərliyini xarakterizə edən ən böyük göstərici isə işğal altında olan ərazilərimizin azad edilməsi oldu. 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciət edərək minnətdarlığını ifadə edən Prezident İlham Əliyev onu da bildirmişdi ki, gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq. 44 günlük Vətən müharibəsində qazanılan böyük Qələbə o günü yetişdirdi və indi işğaldan azad edilmiş bütün torpaqlarımızda, Qarabağın qəlbi Şuşada üçrəngli müqəddəs bayrağımız qürurla dalğalanır. İlham Əliyevin Novruz bayramı münasibətilə xalqımıza Şuşadan etdiyi müraciətində deyildiyi kimi, heç kim bundan sonra bizi buradan çıxara bilməz.

İlham Əliyev son 200 ildə ilk dəfə olaraq işğal olunmuş torpaqlarımızı azad edən böyük sərkərdədir. İlham Əliyev tariximizə şanlı Qələbəni yazan liderdir. Ona görə Vətən müharibəsində qazanılan möhtəşəm Qələbə xalqımızın İlham Əliyevə olan inam və etimadını qat-qat artırdı. Eyni zamanda bu zəfər Azərbaycanın bundan sonrakı inkişafı üçün yeni perspektivlər açıb. Bu yolda xalqımız cənab İlham Əliyevin ətrafında bundan sonra da sıx səfərbər olacaq və tariximizə bundan sonra da möhtəşəm uğurlar həkk olunacaq.

## Qürur doğuran 3 il

**Nəsib MƏHƏMƏLİYEV,**
*Milli Məclisin deputatı:*

- Azərbaycanda yeni keyfiyyət dəyişikliklərinin əsasının qoyulduğu son prezident seçkilərindən 3 il ötür. Bu seçki ilk növbədə bəlli həqiqətə yeni işıq salaraq göstərdi ki, İlham Əliyev öz xalqının yüksək etimadına malikdir. Seçkidə iştirak edən vətəndaşların 86 faizindən çoxunun öz səsini məhz İlham Əliyevə verməsi təsdiq etdi ki, Azərbaycan xalqı respublikamızın yüksəlişinə və qüdrətlənməsinə aparan siyasi xətti birmənalı dəstəkləyir.

Bu qələbənin təməlində Prezident İlham Əliyevin respublikamıza rəhbərlik etdiyi 2003-cü ildən ötən on beş il ərzində gördüyü işlər, Azərbaycanın iqtisadiyyatında, sosial həyatında və digər sahələrdə qazanılan əzəmətli uğurlar, Heydər Əliyev yoluna olan inam dayandı. Bütün bunları rəhbər tutan seçicilərin mütləq əksəriyyəti seçimini məhz ötən dövrün sosial-iqtisadi uğurların nəticəsini göstərən səmərəli islahatların üzərində qurdu. Seçkilərin nəticəsi göstərdi ki, vətəndaşlar Prezident İlham Əliyevin sabitliyə, sülhün və firavanlığın möhkəmləndirilməsinə, dövlətçiliyimizin qüdrətlənməsinə, ölkənin sosial-iqtisadi inkişafına xidmət edən siyasətini dəstəkləyir və çox böyük etimad bəsləyir. Bu etimad həm də perspektiv nailiyyətlərə hesablanan siyasi kursun yenilməzliyinə və alternativinin olmadığına olan inamın təcəssümü idi.

Bütövlükdə, bu seçim Azərbaycanın yüksəlişinə xidmət edən ümumxalq qərarı idi. 2018-ci il aprelin 11-də seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciət edərək minnətdarlığını bildirən cənab İlham Əliyev də xalqımızın bu seçkilərdə sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs verdiyini dedi: "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq".

Prezident seçkilərinin nəticəsi həm də cəmiyyətin mövcud siyasi kursu gələcək uğurların mühüm şərti olaraq qəbul etməsi idi. Yəni Prezident İlham Əliyevin qələbəsi qarşıdan gələn 7 ildə 15 il ərzində başlanılmış işlərin yeni keyfiyyət mərhələsində davam etdirilməsi, Azərbaycanın nailiyyətlərinin daha da artması demək idi. Bu baxımdan beynəlxalq miqyasda davam edən iqtisadi çətinliklərə, o cümlədən koronavirus pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq dövlət olaraq bu 3 ildə olduqca mühüm uğurlara imza atmışıq. Bu qısa zaman kəsiyində həyata keçirilən əzəmətli layihələr, Azərbaycanın hərtərəfli yeniləşməsi, modernləşməsi doğma vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradıb. Müxtəlif sahələrdə başladılan yeni islahatlar son nəticədə dövlət-vətəndaş münasibətlərinin yeni keyfiyyət mərhələsinə qədəm qoymasına yol açıb, sosial rifahın yüksəlməsinə xidmət edib. Ən mühüm nailiyyətlərimiz sırasında qlobal layihələrin işə salınması, Avropanın enerji xəritəsinə ciddi dəyişikliklər edən "Cənub qaz dəhlizi"nin istifadəyə verilməsi, üçüncü peykimizin kosmosa göndərilməsi kimi məsələlər xüsusi yer tutur.

İlham Əliyevi xalqa sevdirən cəhətlər dövlət başçısının daim xalqın yanında olması, verdiyi bütün vədləri yerinə yetirməsidir. Yeganə ağrılı problemimiz torpaqlarımızın işğal altında olması idi. Lakin möhtərəm Prezident hər zaman bəyan edirdi ki, Azərbaycan Qarabağda ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək, işğal altında olan torpaqlarımız mütləq azad ediləcək. 2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ savaşında qazandığımız möhtəşəm Zəfər bir daha İlham Əliyevin vədinə sadiq, öz fəaliyyətini dövlətə və xalqa xidmət məramı üzərində quran lider olduğunu sübuta yetirdi.

Vətən müharibəsində qazanılan Qələbə İlham Əliyevin ötən 17 ildə həyata keçirdiyi düşünülmüş və məqsədyönlü siyasətinin uğurlu nəticəsi idi. Belə ki, bu illərdə cənab Prezidentin atdığı addımlar, həyata keçirdiyi genişmiqyaslı tədbirlər torpaqlarımızın azad edilməsinə istiqamətlənmiş kompleks siyasətdən xəbər verir. Ermənistanın məğlubiyyəti, torpaqlarımızın azad edilməsi ilə nəticələnən bu müharibə həm də milli həmrəyliyimizin təntənəsi, xalqımızın öz rəhbərinin ətrafında sıx birləşməsinin nümayişi oldu. Bu Qələbə göstərdi ki, ötən illərdə müxtəlif uğurlarla yanaşı, İlham Əliyevin liderliyi ilə dövlətçilik tariximizi şərəfləndirən qələbələrə də imza atılıb.

Ötən 3 ilin yekunları pozitiv və qürurdoğuran notlarla, hadisələrlə zəngindir. Qarşıda duran hədəflərə doğru gedilən yolda Prezident İlham Əliyevin müəyyən etdiyi siyasət sistemli, ardıcıl və məqsədyönlüdür. Ən əsası bu siyasət hər addımda dövlətə və xalqa xidmət missiyasını daşıyır. Qarşıda isə bizi yeni qələbələr, o cümlədən Qarabağın dirçəlişi gözləyir. Azad edilmiş bütün torpaqlarımız qısa müddətdə yenidən qurulacaq və xalqımız İlham Əliyevin rəhbərliyi və öndərliyi ilə yeni uğurlara imza atacaq.

## Bugünümüzün və sabahımızın ən layiqli təminatçısı

**Müşfiq MƏMMƏDLİ,**
*Milli Məclisin deputatı:*

- Azərbaycan dövləti və xalqı demokratiya yolu ilə inamla irəlilədiyini 2018-ci ilin prezident seçkiləri ilə bir daha bütün dünyaya nümayiş etdirdi. Bu gün keçirilməsinin 3-cü ili tamam olan həmin seçki bütün parametrləri ilə Azərbaycanın siyasi tarixinə şəffaf, ədalətli və azad seçkilər kimi düşdü və xalqımız özünün növbəti tarixi və ən doğru seçimini edərək cənab İlham Əliyevlə davama səs verdi.

Yeni Azərbaycan Partiyasının 2018-ci ilin fevral ayında keçirilən qurultayında Prezident İlham Əliyevin növbəti müddət üçün prezidentliyə namizədliyinin irəli sürülməsi tək partiyamızın deyil, cəmiyyətin bütün təbəqələrinin ürəyindən xəbər verdi. Seçki kampaniyası ərəfəsində cərəyan edən proseslər də təsdiq edirdi ki, xalqımızın seçkiqabağı ovqatı bütünlüklə cənab İlham Əliyevin namizədliyinin dəstəklənməsi üzərində köklənib. Çünki məhz İlham Əliyevin şəxsində xalqımız Azərbaycanın müasir gücünün ifadəsini görürdü. Buna görə də aprelin 11-də keçirilən səsvermədə xalqımız birmənalı şəkildə İlham Əliyevə dəstəyini nümayiş etdirdi.

Seçkilərin nəticələri göstərdi ki, insanlar Heydər Əliyev yolunu, İlham Əliyev siyasi kursunu perspektiv inkişafın yeganə yolu olaraq qəbul edirlər. Ona görə bu seçim Azərbaycan cəmiyyətinin öz layiqli liderinə sarsılmaz inam və rəğbətinin əyani təcəssümü oldu. Eyni zamanda bu seçim təkcə İlham Əliyevin deyil, onun apardığı siyasətə qəlbən inanan ölkə vətəndaşlarının, dövlətimizin qurucusunun şərəfli adı ilə bağlı olan Yeni Azərbaycan Partiyasının qələbəsi kimi yadda qaldı.

Öncə onu qeyd edim ki, ötən 3 il respublikamızda prezident seçkilərindən sonra bir çox sahələrdə başlanan yeni və səmərəli islahatlar, quruculuq işlərinin davam etdirilməsi mühüm enerji və logistik layihələrin başa çatdırılması ilə əlamətdardır. Bütün bunlar və Prezident İlham Əliyevin yürütdüyü müstəqil və çoxşaxəli siyasət Azərbaycanın dünyadakı mövqelərini möhkəmləndirib, o cümlədən Cənubi Qafqazın aparıcı dövləti kimi rolunu artırıb.

Son bir ili isə koronavirus pandemiyası ilə mübarizə dövrü adlandıra bilərik. Çindən başlanan pandemiya ilə bütün dünya mübarizə aparır, amma heç də bütün dövlətlər bu sınaqdan uğurla çıxmağı bacarmırlar. Azərbaycan da bu sınaqla üz-üzə qalsa da, ilk gündən Prezident İlham Əliyevin qətiyyətli mövqeyi, problemi xüsusi diqqət mərkəzində saxlaması göz önündə idi. Məhz dövlət başçısının müdrik siyasəti nəticəsində ölkəmizdə vaxtında pandemiyaya qarşı səmərəli mübarizənin əsası qoyuldu. Xüsusilə qeyd edilməlidir ki, əvvəlki illərdə səhiyyə sistemində yaradılmış böyük potensial bu prosesdə mühüm rol oynayaraq İlham Əliyevin sosial siyasətinin uzaqgörənliyini təsdiq etdi. Eyni zamanda bu dövrdə yaradılan modul xəstəxanalar, respublikamıza gətirilən laboratoriyalar və bu kimi digər tədbirlər Azərbaycanda koronavirus pandemiyasının faciəvi fəsadlar verməsinin qarşısını aldı. Azərbaycanın Cənubi Qafqazda koronavirusa qarşı peyvəndlənməni ilk həyata keçirən dövlət olması da Prezident İlham Əliyevin bu məsələdə qətiyyətli siyasətinin nəticəsidir.

Cənab İlham Əliyevin prezidentlik müddətinin geridə qalan 3 ilinin ən böyük hadisəsi isə əlbəttə ki, torpaqlarımızın işğaldan azad edilməsi oldu. Xalqımızın intizarında olduğu bu tarixi reallığın müəllifi Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Cənab İlham Əliyevin ötən 17 ildə həyata keçirdiyi kompleks inkişaf siyasəti, respublikamızın yüksəlişi torpaqlarımızın azad edilməsi üçün tarixi şəraitin formalaşmasını təmin etdi. Ötən il sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsində torpaqlarımızın azad edilməsi ilə Prezident, Ali Baş Komandan İlham Əliyev həm də dövlətimiz və xalqımız üçün olduqca mühüm və tarixi vəzifəni şərəflə yerinə yetirdi.

Bu Qələbə həm də onu göstərdi ki, Prezident İlham Əliyev bugünümüzün və sabahımızın ən layiqli təminatçısıdır. Ona görə Azərbaycan xalqı öz rəhbərinin ətrafında hər zaman sıx səfərbər olacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# İlham Əliyevin islahatlar kursuna müxalifətdən tam dəstək



**Üç il öncə, 2018-ci il aprelin 11-də ölkəmizdə tam demokratik şəraitdə və beynəlxalq standartlara uyğun, azad və ədalətli şəkildə keçirilən prezident seçkilərində xalqımız İlham Əliyevə növbəti dəfə etimad göstərərək Prezident seçdi. Seçicilərin 86,02 faizinin səsini qazanan İlham Əliyevin ötən üç il müddətindəki fəaliyyəti ictimaiyyət tərəfindən təqdir edilir.**
**Prezidentin fəaliyyəti barədə müxalifət partiyalarının rəhbərlərinin də fikirlərini öyrəndik.**

## Azərbaycanda sivil və etimadlı siyasi münasibətlər sistemi formalaşıb

**Qüdrət HƏSƏNQULİYEV,**
*Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini:*

- 2018-ci ildə Azərbaycanda keçirilən prezident seçkilərindən sonra Prezident Administrasiyasında aparılan struktur islahatları nəticəsində Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi yaradıldı və qısa müddət ərzində dialoq və əməkdaşlıq mühitinin formalaşması istiqamətində önəmli addımlar atıldı.

Qənaətimə görə, siyasi partiyalar arasında dialoq və əməkdaşlıq mühitinin yaradılması, siyasi partiyaların fəaliyyətinə real məzmun verilməsi çoxpartiyalı sistemin inkişafına töhfə verməklə yanaşı, sivil və etimadlı siyasi münasibətlərin təşəkkül tapmasına, partiyaların cəmiyyətdəki rolunun və funksionallıqlarının artmasına müsbət təsirini göstərdi. Bu struktur islahatlarından sonra ölkəmizdə parlament seçkilərinin keçirilməsi, Milli Məclisdə təmsil olunan müxalifət və digər partiyaların nümayəndələrinin vitse-spiker, komitə sədrləri və komitə sədrlərinin müavinləri vəzifələrinə seçilmələri parlamentdaxili demokratiyanın və plüralizmin inkişafı baxımından müsbət nəticələrin əldə edilməsinə imkan yaratdı, ölkəmizdə yeni, sivil və etimadlı siyasi münasibətlər sisteminin formalaşması ilə bağlı cəmiyyətə önəmli mesajlar verdi.

Ötən 3 il ərzində ölkəmizdə həyata keçirilən iqtisadi islahatların tərkib hissəsi olaraq atılan ən önəmli addımlardan biri də, şübhəsiz ki, Azərbaycan İnvestisiya Holdinqinin yaradılması, holdinqin idarəetməsinə verilən dövlət müəssisələrinin vahid prinsiplər əsasında idarə olunması, onların fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən həyata keçirilən investisiya proqramlarının şəffaflığının və iqtisadi səmərəsinin yüksəldilməsi, rəqabət qabiliyyətinin artırılması, maliyyə sağlamlığının və dayanıqlılığının yaxşılaşdırılmasıdır.

Ötən prezident seçkilərindən sonra məhkəmə-hüquq sistemində həyata keçirilən kompleks islahatlar, bu xüsusda Prezident İlham Əliyevin 2019-cu il aprelin 3-də məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında imzaladığı fərman bu sahədə mövcud olan çatışmazlıqların aradan qaldırılmasına, dövlətin ədalətinin istisnasız olaraq təmin edilməsinə xidmət göstərir.

Prezident seçkilərindən və bütövlükdə dövlət müstəqilliyimizin bərpasından sonra əldə etdiyimiz ən böyük nəticə 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımızın Azərbaycan Ordusunun rəşadəti nəticəsində azad olunması, işğalçı ordunun darmadağın edilməsi, sərhədlərimizin toxunulmazlığının təmin edilməsidir. Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və iradəsi, Silahlı Qüvvələrimizin qəhrəman əsgər və zabitlərinin fədakarlığı sayəsində əldə olunan Zəfər Azərbaycan tarixinin ən önəmli hadisələrindən biridir. Bu Zəfər xalqımızın özünəinam hissinin geri qaytarılması, milli qürurumuzun yenidən dirçəlməsi baxımından da xüsusi əhəmiyyətə malikdir.

2020-ci il bütün bəşəriyyəti, o cümlədən Azərbaycanı yeni növ koronavirus pandemiyası təhlükəsi qarşısında qoysa da, özü ilə yanaşı çoxsaylı problemlər gətirsə də, dövlətimizin COVID-19 virusuna qarşı mübarizə çərçivəsində həyata keçirdiyi tədbirlər, Prezident İlham Əliyevin təşəbbüsləri sayəsində Azərbaycanın qlobal məsuliyyəti dərk edən ölkələr arasında ön sıralara yüksəlməsi olduqca önəmli faktdır. Azərbaycanın koronavirusa qarşı mübarizə məqsədilə insanlığı birliyə, humanizmə səsləyən təşəbbüsləri, ölkəmizin Qoşulmama Hərəkatının sədri kimi BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılmasına nail olması, Azərbaycan Prezidentinin təşəbbüslərinin qlobal miqyasda böyük dəstək qazanması təkcə son 3 ilin deyil, daha geniş bir zaman kəsiyinin ən böyük nailiyyətlərindən biridir.

## Xalqın doğru seçimi onun tarixi qələbəsinin təminatı oldu

**Fazil MUSTAFA,**
*Böyük Quruluş Partiyasının sədri, Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini:*

- 2018-ci il aprelin 11-də Azərbaycanda növbədənkənar prezident seçkiləri keçirildi. Bu tarixdən iki il öncə Aprel döyüşləri olmuşdu və Azərbaycanda sağlam düşünən hər kəs anlayırdı ki, bu döyüşlərdə azad olunmuş Vətən torpağının kiçik bir parçası sadəcə təsəlli üçün abadlaşdırılmırdı...

Şuşa məscidinin modelində Cocuq Mərcanlıda ibadət yeri boşuna ucaldılmırdı. Həm də Prezident İlham Əliyev birbaşa Şuşada Gövhər Ağa məscidinin bərpa olunacağını Cocuq Mərcanlıdan yüksək səslə və böyük inamla bəyan edirdi. Və keçirilən referendum nəticəsində böyük missiyanı yerinə yetirmək üçün prezidentlik müddətinin beş ildən yeddi ilədək artırılmasına vətəndaşların müsbət səs verməsi ölkəmizin tarixində yeni bir mərhələnin başladığının anonsunu verirdi. Çünki qarşıda dövləti və milləti gözləyən böyük savaşda ölkənin bütün resurslarının səfərbər olunması və dəmir intizamın yaradılması ən vacib şərtlərdən biri idi. Üstəlik 2003-cü ildə ilk dəfə prezident seçildiyi tarixdən başlayaraq İlham Əliyev müdafiə xərclərinin dinamik artımını təmin edərək ordu quruculuğunu prioritet məsələ olaraq diqqətdə saxlayırdı.

Üç il öncə aprelin 11-də seçki oldu və Prezident İlham Əliyev dördüncü dəfə xalqın etimadını qazanaraq yüksək səs çoxluğu ilə ölkənin ən ali kürsüsünə yenidən seçildi. Bu tarix həm də Azərbaycan dövlətinin və xalqının növbədənkənar, təxirəsalınmaz və inanılmaz dərəcədə mümkünsüz görünən bir probleminin çözülməsi üçün başlanğıc oldu. Qarabağın azad olunmasının ilk anonsu məhz xalqın, cəmiyyətin 11 aprel 2018-ci ildə Prezidentə yenidən etimadı, inamı oldu.

Maraqlıdır ki, 11 apreldə prezident seçilən İlham Əliyevin ilk fərmanı da istisnasız olaraq şəhid ailələrinə 11 min manatlıq birdəfəlik müavinətin verilməsi barədə oldu. Böyük Vətən savaşına hazırlıq məhz şəhid ailələrinə verilən dəyərdən başlamalıydı və bu addım 44 günlük Vətən savaşının ilk günündən səfərbərlik idarələrinin qarşısına axın edən Azərbaycan gənclərinin simasında öz effektini göstərdi. Hər bir sağlam ruhda böyüyən Azərbaycan insanı ölkə prezidentinin səfərbərlik çağırışı ilə könüllü şəkildə şəhidliyi və qaziliyi şərəf mərtəbəsi kimi anlayaraq torpaqlarımızın işğaldan azad olunması mübarizəsinə qoşuldu. Bu mübarizədə Ali Baş komandan kimi İlham Əliyevin həm hərbi, həm diplomatik, həm də təbliğat sahəsində göstərdiyi möhtəşəm performans milli ruhun yenidən dirilişi üçün ən vacib amilə çevrildi.

11 aprel seçkilərindən ötən üç il bəlkə də Azərbaycan tarixinin ən gərgin və taleyüklü bir dövrü kimi yaddaşlarda yer alacaq. COVID-19 pandemiyasının dəhşətli nəticələrini çevik zərərsizləşdirərək ölkə vətəndaşlarının can güvənliyini qoruya bilmiş Prezidentin nə qədər böyük sıxıntılara sinə gərdiyinin hamımız şahidi olmuşuq. O, ölkəni bu bəladan ən az itkilərlə çıxarmaq üçün mobil bir səfərbərlik təşkilatçılığı göstərməklə yanaşı, istər Tovuz hadisələrində, istərsə də 44 günlük savaşda vəhşi düşmən qarşısında qələbəmizi təmin edən böyük Sərkərdə iradəsi və Lider qətiyyəti göstərdi. Xalqın doğru seçimi onun tarixi qələbəsinin təminatı oldu.

Bu gün Prezident İlham Əliyev haqlı olaraq dünya siyasətində söz sahibi olan bir lider olaraq qəbul olunur və işğaldan azad olunmuş ərazilərimizin bərpası üçün Böyük Qayıdış missiyasına uğurla rəhbərlik edir. Millətini zəfərə daşıyan liderin əsas dayağı qələbə ruhu yenidən canlanan böyük Azərbaycan xalqının birliyidir.

## İlham Əliyevin adı əbədi olaraq tariximizə qızıl hərflərlə yazılıb

**Tahir KƏRİMLİ,**
*Vəhdət Partiyasının sədri, Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini:*

- Son illər Azərbaycan tarixində çox mühüm nailiyyətlər əldə edilib. Baş verən proseslər, qazanılan uğurlar müstəqillik tariximizdə qızıl hərflərlə qeyd edilib.

2018-ci ildə keçirilən prezident seçkilərindən dərhal sonra cənab İlham Əliyevin özünün islahatlar proqramını təqdim etməsi və 9 istiqamət üzrə yol xəritələrinin müəyyənləşdirilməsi ən mühüm hadisə oldu. Ölkədə institusional islahatlara start verildi. Sosial-iqtisadi, siyasi, struktur, məhkəmə-hüquq islahatları çərçivəsində böyük dəyişikliklər baş verdi.

Bu islahatların tərkib hissələrindən biri olan Milli Məclisə keçirilən növbədənkənar seçkilər də yeniliklərlə yadda qaldı. Parlamentin rəhbərliyi dəyişdi, Milli Məclisin və onun komitələrinin rəhbərliyində müxalifət partiyalarının nümayəndələri təmsil olundular.

Prezident Administrasiyasında Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi yaradıldı və mütəmadi olaraq partiya sədrləri ilə görüşlər keçirilir. Bu görüşlərdə partiyalar və dövlət münasibətləri, siyasi partiyalar və parlament fəaliyyəti ətrafında səmərəli və işgüzar söhbətlər aparılır. Bu görüşlərlə hökumətlə partiyalar arasında koordinasiya yaranıb. Ümummilli məsələlərlə bağlı birgə bəyanatlar qəbul edilib.

Eyni zamanda ölkədə ciddi kadr islahatları aparıldı. Prezident İlham Əliyev gənclərə meydan verdi. Müasir düşüncəli kadrların irəli çəkilməsi də müsbət qiymətləndirildi. Nazirlər Kabinetində, Prezident Administrasiyasında aparılan struktur və kadr islahatları da daxil olmaqla bütün bunları son 30 ilin ən böyük islahatları adlandırmaq olar.

Prezidentin həyata keçirdiyi iqtisadi islahatlar isə Azərbaycana böyük uğurlar qazandırdı. Bu islahatlarla korporativ idarəetmə mexanizmləri, vahid mərkəzdən idarəetmə sistemləri formalaşdı, müşahidə şuraları yaradıldı. Hazırda da bu istiqamətdə işlər davam etməkdədir və yaxın gələcəkdə bu müsbət effektini verəcək.

Ən nahayət, bütün bu proseslərin kulminasiya nöqtəsi 2020-ci ildəki 44 günlük Vətən müharibəsində əldə edilmiş böyük qələbəmiz oldu. Xalqımızın arzusunu İlham Əliyev gerçəkliyə çevirdi. Prezident kimi diplomatik gedişləri, Ali Baş Komandan kimi qətiyyəti ilə İlham Əliyev Qarabağı düşmən tapdağından azad etdi. Müzəffər Azərbaycan Ordusu xalqımızın 30 illik həsrətinə son qoydu. Bu son 200 illik tariximizdə qazandığımız ən böyük qələbə oldu. İlham Əliyev Ali Baş Komandan, Baş Sərkərdə kimi də özünün bacarığını, qabiliyyətini göstərdi. Bu da ordumuzda, xalqımızda qələbəyə inam hissini daha da artırdı. Hamımız çəkici bir zindana vurub Prezidentimizin ətrafında yumruq kimi birləşdik. Bu mütəşəkkillik, möhkəm birlik qələbəmizi şərtləndirdi və bütün bunlara əsasən deyə bilərəm ki, İlham Əliyevin adı əbədi olaraq tariximizə qızıl hərflərlə yazıldı.

## Əldə edilən uğurlar birbaşa İlham Əliyevin adı ilə bağlıdır

**Fərəc QULİYEV,**
*Milli Dirçəliş Hərəkatı Partiyasının sədri:*

- Azərbaycanın son dövrlərdə əldə etdiyi uğurlara nəzər salsaq görərik ki, istər daxili, istərsə də xarici siyasətdə böyük nailiyyətlər əldə edilib. Son üç ildə isə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar davamlı xarakter daşıdı. Bu islahatlar ilk növbədə Azərbaycanın qüdrətinin daha da artmasına xidmət etdi.

Prezidentin son üç ildəki fəaliyyəti əslində ondan əvvələ qədər nəzərdə tutulan hədəflərə çatmaq üçün qarşıya qoyulan məqsədlər idi. Yəni bu, əvvəlki illərin məntiqi sonluğu, məntiqi davamı idi. Hesab edirəm ki, bu dövrdə çox mühüm işlər həyata keçirildi və uğurlar əldə edildi. Bəzən bunu siyasi rəqiblər qərəzli şəkildə qeyd etmək istəmirlər. Amma siyasi rəqabət reallığı danmaqdan ibarət deyil, yaxşı alternativlər təklif etməkdən ibarətdir. Bizim məqsədimiz Azərbaycanın rifahının yaxşılaşdırılması, müstəqilliyinin qorunması və ərazi bütövlüyünün təmin olunmasıdır. Ərazimizin təmin olunması məsələsini ona görə xüsusi vurğulayıram ki, əslində aparılan bütün siyasi proses işğal altında olan torpaqlarımızın geri qaytarılmasına yönəlmişdi. Çünki 30 il ərzində Azərbaycan əraziləri işğal və talan olunmuş ölkə idi. Bu ərazilərin xilas olunması üçün müxtəlif variantlar təklif olunurdu. Ancaq sonucda müharibə variantı seçildi və Azərbaycan Prezidentinin prinsipial qərarları, siyasi-diplomatik bacarığı və Ali Baş Komandan qətiyyəti ilə işğal altında olan torpaqlarımız geri qaytarıldı.

Bəzən bütün prosesləri 44 günlük Vətən müharibəsinə bağlayırlar. Ancaq İkinci Qarabağ müharibəsi sadəcə nəticə idi. Çünki buna qədər çox ciddi hazırlıqlar görülmüşdü. Əldə edilən uğurlu nəticələr bu günə qədər Prezident İlham Əliyevin apardığı siyasi-iqtisadi islahatlardan çox asılı oldu. Buna qədər milli birliyin yaranması, 50 siyasi partiyanın birlikdə ortaya mövqe qoyması, birlik nümayiş etdirilməsi, kənar güclərin burdakı maşalarının neytrallaşdırılması mühüm məsələ idi. Bununla yanaşı, iqtisadiyyatımızın dirçəldilməsi və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, yaxşı ordu quruculuğu, gənclərimizin vətənpərvərlik ruhunda hazırlanması bunun məntiqi ardıcıllığını təşkil edirdi.

Prezident Administrasiyasında Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin yaradılması da uğurlu islahatların tərkib hissəsi idi. Bu şöbənin rəhbəri Ədalət Vəliyevin fəaliyyəti nəticəsində Prezidentin ortaya qoyduğu istəklərin reallaşması mümkün oldu. Bütün siyasi güclərlə əlaqələrin qurulması, dialoq mühitinin yaradılması çox əhəmiyyətli oldu. Çünki savaş zamanı dialoqun nəticələri özünü göstərdi, 50 siyasi partiya ortaq mövqedən çıxış etdi. Hər kəs bu savaşda əsgər kimi iştirak etməyə hazır olduğunu bəyan etdi və bu da dünyada bir nümunə kimi qiymətləndirildi.

Böyük uğurlara imza atan Prezident İlham Əliyev adını tariximizə əbədi yazdırdı və bu, onun haqqıdır. Çünki cənab İlham Əliyev məhz bu dövrdə xalqın 30 il həsrətlə gözlədiyi məsələyə son qoyub. Əminliklə deyə bilərəm ki, Prezidentin yürütdüyü siyasi kurs xalqın istəyinə uyğundur və bundan sonrakı fəaliyyətində də dövlət başçısına uğurlar arzulayırıq.

## İlham Əliyev Azərbaycanı regionun liderinə çevirib

**Arzuxan ƏLİZADƏ,**
*Azərbaycan Milli İstiqlal Partiyasının sədri:*

- Prezident İlham Əliyevin növbəti dəfə dövlət başçısı seçilməsindən ötən üç il ərzində ölkəmizdə və dünyada baş verən hadisələri analiz etdikdə görürük ki, çox mürəkkəb tarixi bir mərhələdən keçmişik. Dövlətlərarası münasibətlər sistemində ciddi siyasi proseslərlə müşayiət olunan bu illər ərzində Azərbaycanın iqtisadi və siyasi baxımdan güclənməsi ilə həm də yerləşdiyimiz regionda yeni və fərqli bir ortam formalaşıb.

Azərbaycan artıq regionun şəriksiz liderinə çevrilib. Bununla yanaşı, qardaş Türkiyənin də regionda siyasi mövcudluğu Azərbaycan Prezidentinin bu istiqamətdə yürütdüyü siyasətin uğuru kimi dəyərləndirilmədir.

Son üç il ərzində əldə olunmuş bir sıra uğurlarla yanaşı, 2018-ci il avqustun 12-də Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanmasını da qeyd etməmək mümkün deyil.

Ötən ilin əvvəllərindən başlayaraq dünyanı ağuşuna alan koronavirus pandemiyasına qarşı mübarizə sahəsində də Azərbaycanda bir çox ölkələrə örnək ola biləcək addımlar atıldı ki, bu da təqdirəlayiqdir. Ötən il Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində 4 may tarixində videoformatda keçirilən zirvə görüşünə təşkilatçılıq etdi. Həmin toplantının praktik nəticəsi olaraq, COVID-19 ilə mübarizə və koronavirusla bağlı Qoşulmama Hərəkatının üzv dövlətlərinin əsas humanitar, tibbi ehtiyac və digər tələblərinə dair məlumat bazasının yaradılması üçün İşçi Qrupunun təsis edilməsi qərara alındı. Daha sonra İlham Əliyevin təşəbbüsü ilə 3-4 dekabr 2020-ci tarixində BMT Baş Assambleyasının COVID-19 pandemiyasına qarşı xüsusi sessiyası keçirildi.

Prezident İlham Əliyev 2018-ci il seçkilərindən sonra ölkədə bir sıra sferalarla yanaşı, ciddi siyasi islahatların da həyata keçiriləcəyi anonsunu vermişdi və biz həqiqətən də reallıqda ölkədə yeni siyasi münasibətlərin, yeni siyasi konfiqurasiyanın formalaşdığının şahidi olduq. Bu, ilk növbədə siyasi partiyalara münasibətdə özünü göstərdi. Ölkədə bir ilk olaraq Prezident Administrasiyasının Siyasi partiyalarla və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi formalaşdırıldı və bu şöbə vasitəsilə istisnasız olaraq bütün qeydiyyatdan keçən siyasi təşkilatlarla əlaqələr quruldu.

Bunun ardınca korrupsiya və rüşvətə qarşı kampaniyaya start verildi və bir sıra mərkəzi və yerli icra strukturlarının rəhbərləri cəzalandırıldılar ki, bu da ictimaiyyət tərəfindən olduqca müsbət qiymətləndirildi. Çünki korrupsiya, rüşvət, məmur özbaşınalığı, iqtisadi sferada monopoliyanın mövcudluğu istənilən ölkənin inkişafına, dövlətin güclənməsinə və insanların maddi rifah halının yüksəlməsinə ciddi maneədir və bu səbəbdən də sadalanan neqativ hallara qarşı davamlı mübarizə aparılması həm də bir sosial sifarişdir.

Nəhayət, İlham Əliyevin hazırkı prezidentlik fəaliyyətinin ən uğurlu və Azərbaycanın tarixi yaddaşından heç zaman silinməyəcək hadisəsi 30 ilə yaxın bir müddət ərzində işğal altında olan torpaqlarımızın azad edilməsidir. Məlumdur ki, bu Qələbəyə çatmaq üçün dövlət olaraq uzun bir yol keçmişik və artıq heç kimə sirr deyil ki, buna dövlətimizin iqtisadi gücünün siyasi, diplomatik və hərbi sahədə maddiləşməsi yönündə aparılan uğurlu siyasət sayəsində nail olmuşuq. Bununla yanaşı, hesab edirəm ki, dövlət və millət olaraq bizi bu böyük zəfərə daşıyan başlıca amillərdən biri də ölkədə bir barış mühitinin formalaşmasıdır. Ən azından son bir il ərzində bu istiqamətdə görülən işlər də Prezident İlham Əliyevin hazırkı dönəm prezidentliyinin əsas uğurlarından biri kimi qiymətləndirilməlidir.

## İlham Əliyevin adı tarixə Müzəffər Sərkərdə kimi yazıldı

**Əlisahib HÜSEYNOV,**
*Milli Həmrəylik Partiyasının sədri:*

- 11 aprel prezident seçkilərindən artıq üç il keçir. Üç il böyük tarixin ümumi mənzərəsi kontekstində əslində çox kiçik bir zaman kəsimidir. Lakin bu üç il ərzində Azərbaycanın ictimai-siyasi həyatında olduqca böyük tarixi hadisələr baş verib, mühüm proseslər yaşanıb. Bu baxımdan son üç ili Azərbaycan üçün Böyük Tarix, epoxa kimi də dəyərləndirmək olar.

Bu epoxa 11 aprel seçkilərində İlham Əliyevin Azərbaycan seçicilərinin 86 faizindən çoxunun səsini qazanaraq yenidən ölkə prezidenti seçilməsi ilə başladı. Bu, olduqca yüksək göstərici idi. Yəni, bununla 4 milyondan çox potensial seçici elektoratının timsalında Azərbaycan xalqı əvvəlki 15 il ərzində həyata keçirilən siyasi kursu dəstəklədiyini nümayiş etdirdi və yeni dövrdə görüləcək böyük işlər üçün Prezidentə etimad göstərdi. Bu mənada son üç il Prezidentin özü üçün də, Azərbaycan xalqı üçün də böyük sınaqlar və uğurlar mərhələsi kimi səciyyələndirilə bilər.

Bu gün əvvəlki 15 il ərzində düzgün təməli qoyulan effektiv xarici və daxili siyasət sayəsində qazanılan böyük uğurlarımızın hamısı göz qabağındadır. Əgər ümumiləşdirmə aparsaq, Azərbaycanın hər bir vətəndaşının və dövlətimizin maraqları son üç ildə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət üçün yenə də prioritet təşkil edib. Biz bu gün dövlət başçısının hələ seçkilər ərəfəsində yeni iqtisadi modelə keçidlə, iqtisadi və siyasi sahədə köklü islahatların aparılacağı ilə, yeni siyasi konfiqurasiyanın qurulacağı ilə bağlı vədlərinin son üç il ərzində ardıcıl olaraq yerinə yetirildiyinin şahidi oluruq. Ötən üç il ərzində Prezident İlham Əliyev xalqla təmasları daha da artırdı və vətəndaşları narahat edən məsələləri, problemləri birbaşa onların öz dilindən dinləməyə üstünlük verdi.

Mən son üç ildə İlham Əliyevin dörd mühüm məsələdə əldə etdiyi uğurları xüsusilə qeyd etmək istəyirəm. Struktur islahatlarının və kadr dəyişikliklərinin həyata keçirilməsi, iqtisadi sferada islahatların gerçəkləşdirilməsi; Siyasi islahatlara start verilməsi, yeni siyasi konfiqurasiyanın təşəkkül tapması, siyasi dialoq prosesinin dərinləşdirilməsi; COVID-19 pandemiyasına qarşı səmərəli mübarizənin təşkili; Siyasi qüvvələrin həmrəyliyinə nail olunması və torpaqlarımızın işğaldan azad edilməsi.

Hakimiyyətdə olduğu illər ərzində Dağlıq Qarabağ probleminin həlli İlham Əliyevin yürütdüyü siyasətin daim ana xəttini təşkil edib. Lakin son 3 il ərzində İlham Əliyevin rəhbərliyi ilə ardıcıl şəkildə həyata keçirilən məqsədyönlü siyasətin getdikcə daha da intensivləşməsi nəticəsində Qarabağ münaqişəsinin ədalətli həlli üçün tam əlverişli zəmin yarandı. 30 ilə yaxın işğal altında olan torpaqlarımız 44 günlük Vətən müharibəsi nəticəsində Ali Baş Komandanımızın çevik siyasəti və sərkərdəlik məharəti ilə azad olundu. Ordumuzun gücü, qüdrəti qarşısında Ermənistan diz çökdü, kapitulyasiya aktına imza atdı. 30 ilin ədalətsizliyinə və nisgilinə son qoyuldu.

Beləliklə, Ali Baş Komandanımız İlham Əliyevin adı tarixə Müzəffər Sərkərdə kimi, Azərbaycan xalqı yenilməz xalq kimi, Ordumuz isə qalib ordu kimi düşdü.

44 gün davam edən Vətən müharibəsi zamanı ölkəmizin siyasi mühitində də əvvəllər heç vaxt müşahidə olunmayan tarixi prosesin şahidi olduq. Belə ki, ölkədə fəaliyyət göstərən 50 siyasi partiya siyasi konsensus və milli birlik mövqeyindən çıxış edərək birgə bəyanat imzaladı və siyasi partiya sədrləri müharibənin ilk günlərindən Ali Baş Komandanın yanında olduqlarını, ordumuzun haqq işi uğrunda apardığı mübarizəsini dəstəklədiklərini bildirdilər, bəyan etdilər. Bu həqiqətən də misli görünməmiş bir hadisə idi və eyni zamanda yeni siyasi mədəniyyət nümunəsi idi. 44 günlük müharibə dövründə siyasi partiyaların başlatdığı bu birlik, həmrəylik prosesində sədri olduğum Milli Həmrəylik Partiyasının da yer aldığını xüsusi qürur hissilə qeyd etmək istəyirəm. Biz də bu prosesə bacardığımız qədər öz töhfəmizi verdik.

Bu gün dövlət başçısı tərəfindən milli maraqlarımıza cavab verən siyasət yürüdülürsə, bu siyasət istər-istəməz həm bölgənin lider dövləti statusunu qorumağımıza yardımçı olacaq, eyni zamanda da ölkəmizin beynəlxalq nüfuzunun gündən-günə artmasını stimullaşdıracaq.

Bir sözlə, İlham Əliyevin son üçillik fəaliyyəti tarixçilər üçün ayrıca bir araşdırma mövzusu olmaqla bərabər, həm də Azərbaycanın gələcək uğurları üçün əlverişli zəmin rolunu oynayacaq.








***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## 2018 Sürətli islahatlar, qüdrətli dövlət, möhtəşəm Zəfər 2021

# Zamanın bayraqdarı





*Əvvəli 1-ci səh.*

Azərbaycan Prezidenti seçilərkən cənab İlham Əliyevin cəmi 42 yaşı vardı və o, bu yaşda dünyanın ən gənc dövlət başçılarından sayılırdı. O gündən keçən 18 il ərzində İlham Əliyev əslində lider böhranının yaşandığı müasir dünyamızda öz şəxsi nümunəsi ilə yeni dövrün əsl liderinin, kamil dövlət adamının mükəmməl obrazını yaratdı.

O, yeni əsrin yeni lideri olaraq Azərbaycanı mətinliklə, inamla irəli aparır. İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərin hər günü bu dövlətə, bu cəmiyyətə qazandırdığı nailiyyətlərlə mahiyyətcə əsrə bərabərdir. Onun hakimiyyət dövrü Azərbaycanın dinamik inkişaf, sürətli modernləşmə mənzərəsidir. Dövlətimizin rəhbəri kifayət qədər gərgin və mürəkkəb coğrafiyada, geopolitik güclərin maraqlarının toqquşma nöqtəsində yerləşən, müstəqilliyini yenicə əldə etmiş kiçik bir ölkəni öz qətiyyətinin, diplomatiyasının gücü ilə bütün dünyada böyük nüfuz və söz sahibinə çevirə bilib.

Beynəlxalq güclər cənab İlham Əliyevin mövqeyi ilə hesablaşırlar. Fərqindədirlər ki, hər hansısa təzyiq üsulları ilə onu Azərbaycanın milli maraqlarından çəkindirmək əsla mümkün deyil. 18 illik tarixi təcrübə bunu təkrar-təkrar sübuta yetirib. İlham Əliyev ölkəmizin milli mənafelərini hər zaman, hər yerdə, bütün səviyyələrdə qətiyyətlə qoruyur, müstəqil xarici siyasət yürüdür. Bütün məsələlərlə bağlı Azərbaycan Prezidentinin öz fikri, öz sözü, öz mövqeyi var! Bu, eyni zamanda Azərbaycan xalqının fikridir, sözüdür, mövqeyidir! Bütün qərarlarında o, xalqın rəyini ifadə edir, vətəndaşlarımızın dəstəyinə güvənir.

İlham Əliyevin düşünülmüş islahatları, müdrik qərarları həyatımıza yeni nəfəs gətirib, cəmiyyətin inkişafında yeni səhifələr açıb, Azərbaycanı dünyanın öncül ölkələrindən birinə çevirib. Bu məqamda türk dünyasının fəxri Çingiz Aytmatovun ruhunu hörmətlə anaraq, onun dəyərli bir fikrini xatırlayıram: “İlham Əliyev qloballaşan dünyanın müasir lider etalonudur”.

Prezident İlham Əliyev Azərbaycanı fərqli mədəniyyətlərin dialoqu məkanına, tolerantlıq, multikulturalizm ünvanına çevirdi. Milli-mənəvi dəyərlərə, müxtəlif dinlərə və sivilizasiyalara hörmət ruhu ilə parlaq bir nümunə yaratdı. Tolerantlığın Azərbaycan modeli dünyada ən mükəmməl örnək kimi qəbul olunmağa başladı.

“Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam” - Prezident kimi ilk andiçmə mərasimində cənab İlham Əliyevin ölkə vətəndaşları qarşısındakı əsas sözü bu olmuşdu. O, 18 ilin hər günündə bu sözünü tutdu. Nəinki hər bir vətəndaşımızın, özünü Azərbaycana bağlı sanan hər kəsin ümid yerinə çevrildi. İnsanlarımızın təhlükəsizliyi, firavan həyatı, inkişafı məramı ilə gördüyü işlərdən, atdığı ardıcıl addımlardan cəmiyyətimizin hər bir üzvü bəhrələnə bildi və bəhrələnməkdədir.

Prezident İlham Əliyevin rəhbərliyi altında regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan dövlət proqramları şəhərlə kənd arasında fərqi aradan qaldırdı. Azərbaycanın ən ucqar kəndlərinə abad yollar, qaz, içməli su xətləri çəkildi. Sosial infrastruktur sistemi yeniləndi. Vaxtilə bölgələrimizdə olan bir çox problemlər öz həllini tapdı. Bu gün Azərbaycanın regionları bütün zəruri şəraitlə təmin olunub və Avropanın şəhər və kəndlərindən əsla geri qalmır.

İlham Əliyevin 2018-ci ilin 11 aprelində xalqın yekdil dəstəyi ilə yenidən Prezident seçilməsindən ötən üç ildə həyatımızın ən müxtəlif sahələrində islahatların daha da geniş vüsət aldığını görürük. Azərbaycan Prezidentinin həyata keçirdiyi islahatlar kursu həyatımıza şəffaflıq gətirdi, bürokratik maneələri aradan qaldırdı. Ölkəmizdə idarəçilik sistemi də indi xeyli dəyişib, təkmilləşib, dövlət-vətəndaş münasibətləri daha da yaxşılaşıb, dövlət institutları vətəndaşlar üçün onun xidmətində dayanan, dar məqamda köməyinə tələsən, problemlərini anında aradan qaldıran bir dəyərə çevrilib.

Prezidentin siyasi iradəsi ilə həyata keçirilən bu islahatlar nəticəsində cəmiyyət böyük dəyişikliklər ovqatındadır. İnsanlarımızın narahatlığına səbəb olan problemlər aramla həllini tapır. İndiyə qədər inkişafa müxtəlif səviyyələrdə əngəllər törətmiş maneələr ortadan götürülür. Cəmiyyətdə çox mühüm proseslər gedir. Bu proseslərin özəlliyi ondadır ki, onlar bir-birini tamamlayır, hamısı bir arada baş verir və vahid ideyaya, amala xidmət edir.

Cənab İlham Əliyevin qətiyyəti, yüksək siyasi iradəsi sayəsində həyata keçirilən ardıcıl islahatlar dövləti gücləndirir, insanların rifah halını yüksəldir, dövləti, dövlət məmurlarını xalqa daha da yaxınlaşdırıb, doğmalaşdırır. Aparılan bütün bu islahatların mərkəzində həm də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ictimai obrazı dayanır. Dövlət başçısının verdiyi strateji qərarların, islahatların aparılması, müsbətə doğru dəyişikliklərin həyata keçirilməsi niyyəti ilə irəli sürdüyü vəzifələrin uğurla icrasını, öz məqsədinə çatmasını təmin edən başlıca amil də elə məhz Mehriban xanım Əliyeva şəxsiyyətidir. Mehriban xanım bütün cəhətləri ilə xalq adamıdır, vətəndaşlarımızın birmənalı dəstəyini qazanmış dövlət xadimidir, gördüyü işlərlə xalqın istəklərini yerinə yetirən, insanların arzularından gəlmiş uğurlu, parlaq simadır.

İlham Əliyevin müəyyənləşdirdiyi hücum diplomatiyası erməni təbliğatının illərlə yaratdığı mifi havaya uçurdu. Dünya Dağlıq Qarabağ probleminin mahiyyətinə varmağa başladı, Azərbaycan haqqında həqiqətlərə diqqət kəsildi. Beləliklə, beynəlxalq ictimai rəy Azərbaycanın xeyrinə dəyişməyə başladı. İlham Əliyev Azərbaycanda dünyanın 50 ən güclü ordusundan birini qurdu. Və bu ordu işğalçıların təxribatlarına qarşı əks-hücum həmlələri ilə düşmənə öz gücünü layiqincə göstərdi.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun Vətən savaşında qazandığı qələbə yeni bir reallıq yaratdı. Tariximizdə tamam başqa bir səhifə açdı, tarixin axarında böyük dönüş nöqtəsinə çevrildi. Azərbaycan Prezidenti tək 30 illik problemi həll etmədi, iki əsrin münaqişəsinə son qoydu! İki keşməkeşli yüzillik boyu bağrımızın başında qövr edən, əcdadlarımızdan üzübəri bu yurdun insanına rahatlıq verməyən yaranı kəsib atdı!

Amma bu da Ali Baş Komandanımızın, Ordumuzun qazandığı parlaq Zəfərin tarixi mahiyyətini tam əhatə etmir. Azərbaycan düz beş əsrdən sonra ilk dəfədir öz torpaqlarını geri qaytara bildi!

İlham Əliyevin xalqımıza bəxş etdiyi bu tarixi qələbə mahiyyət etibarilə Şah İsmayılın qurduğu mərkəzçi dövlətlə, müsəlman Şərqinin ilk demokratik cümhuriyyəti faktı ilə, Heydər Əliyevin uğurla həyata keçirdiyi müstəqil dövlət quruculuğu ilə bir sırada dayanan tarixi nailiyyətdir!

Cənab İlham Əliyev adi bir düşmənə qalib gəlmədi. O, arxasında böyük imperiyaların, dünyanı lərzəyə salan fövqəlgüclərin dayandığı və geopolitik maraqlarını həyata keçirmək üçün onların əlində maşa rolunu oynayan, mənəviyyatsızlığı, həyasızlığı sərhəd tanımayan, comərdlik nədir bilməyən son dərəcə rəzil bir düşmənə zəfər çaldı.

İlham Əliyevin bu qələbəsi Azərbaycan tarixindəki böyük gözləntiləri reallığa çevirməklə möhtəşəmliyinə görə dünya siyasətində, dünya sərkərdəliyində, dünya hərb tarixində özünə daim parlaq yer tutacaq. Çünki bu, ən incə detalına qədər düşünülmüş, hər bir məqamı böyük strateq səbri, müdrikliyi, əzmi və qətiyyəti ilə nəzərə alınmış bir döyüşün zəferidir.

İlham Əliyev Azərbaycanı demək olar ki, hər gün yeniləyir, qurur, yaradır, ölkə, cəmiyyət həyatına zamanın çağırışlarına uyğun yeniliklər gətirir, effektivliyə şərait yaradan meyilləri daha da inkişaf etdirir, sürəti ləngidən məqamları aradan qaldırır, problemləri imkanlara çevirir. Verdiyi strateji qərarları doğru-dürüst və vaxtında yerinə yetirməyə qabil icraçılar komandası, çevik, səmərəli idarəetmə sistemi formalaşdırır, bunun üçün ciddi kadr islahatları, struktur dəyişiklikləri aparır, eyni zamanda zamanın ruhuna uyğun yeni yanaşmalar, fərqli metodlar, meyarlar formalaşdırır.

Azərbaycan indi tamamilə yeni dövrə qədəm qoyur. Bu dövrün adı inkişafdır, sosial rifahdır, milli barış və vəhdətdir. Hər bir vətəndaşa həssas münasibətdir, hər bir insana bərabər imkanlar mühitinin yaradılmasıdır... Vətəndaşların həllini arzu etdikləri problemlərin aradan qaldırılmasıdır, dövlətin insanlara ən dogma adamları qədər əlçatan olmasıdır...

İlham Əliyev təkcə dövlət idarə etmir, tarix yaradır: Azərbaycanın ən qüdrətli dövrünün tarixini!

***Hüseynbala MİRƏLƏMOV,***
***Yeni Azərbaycan Partiyası***
***Xətai rayon***
***təşkilatının sədri***

# Uğurlarımızın memarı

**2018-ci il aprel ayının 11-də keçirilən növbədənkənar seçkilərdə xalqımız İlham Əliyevə etimad göstərməklə Heydər Əliyev yolunun davamına və inkişaf siyasətinə, respublikamızın yüksəlişinə səs verdi, ölkənin taleyinə biganə olmadığını göstərdi. Növbədənkənar prezident seçkiləri həm də belə bir həqiqətin növbəti təsdiqi oldu ki, Azərbaycan xalqı özünün və respublikamızın gələcək inkişaf yolunda mövcud siyasi kursa heç bir alternativ görmür.**



Bu da təsadüfi deyildi. Çünki son seçkilərə qədər, daha dəqiq ifadə etsək, cənab İlham Əliyevin 15 ilə yaxın rəhbərliyi dövründə ölkə ictimaiyyəti yalnız və yalnız davamlı inkişafın, yüksələn sosial rifahın, Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqelərini inamla möhkəmləndirən, torpaqlarımızın işğaldan azad olunmasına aparan, Ermənistanı hərb və diplomatiya cəbhələrində küncə sıxışdıran siyasətin şahidi olmuşdu.

Məhz bu həqiqətlərə söykənən seçicilər 11 aprel seçkilərində də aktiv iştirak etdilər və onların 86,02 faizi səsini İlham Əliyevə verdi. Azərbaycan xalqı İlham Əliyevə etimad göstərməklə həm də son 15 il ərzində görülən işlərə yüksək qiymət verdi. 2018-ci ilin seçkilərinin nəticəsi həm də növbəti illərdə Prezident İlham Əliyevin Azərbaycanın tərəqqi və inkişafına, uğurlu gələcəyinə daha çox töhfələr verəcəyinə olan dərin və səmimi inamın təcəssümü idi. Bu mənada 3 il əvvəl insanlar həm də sabitliyə, təhlükəsizliyə və gələcək inkişafa səs verdilər.

Xatırladım ki, hələ 2018-ci il fevral ayının 8-də keçirilən Yeni Azərbaycan Partiyasının VI qurultayı Prezident İlham Əliyevin bu fikirləri ilə yekunlaşmışdı: “Sizi və bütün Azərbaycan xalqını əmin etmək istəyirəm ki, əgər prezident seçkilərində Azərbaycan xalqı mənə yenidən yüksək etimad göstərərsə, doğma xalqıma ləyaqətlə xidmət edəcəyəm”. Ötən illər İlham Əliyevin öz vədinə sadiq, dövlətimizin və xalqımızın maraqlarını hər şeydən uca tutan başçı olduğunu təsdiqlədi.

Əlbəttə, 3 il qarşıya qoyulmuş inkişaf məqsədlərinin reallaşdırılması baxımından uzun zaman kəsiyi sayıla bilməz. Amma bu müddətdə görülən işlər, atılan addımlar və əldə olunan nəticələr Prezident İlham Əliyevin elan etdiyi inkişaf prioritetlərinin, Milli Məclisdə andiçmə mərasimindəki nitqində qarşıya qoyduğu vəzifələrin real həyata sürətlə vəsiqə aldığını göstərir. Bu dövr Prezident İlham Əliyevin elan etdiyi yeni islahatlar konsepsiyasının uğurla reallaşması cəmiyyət həyatına bəxş etdiyi pozitiv yeniliklər baxımından əlamətdardır. Bu dövrdə yeni iqtisadi islahatlar nəticəsində Azərbaycanın maliyyə imkanlarının əhəmiyyətli dərəcədə artması və bunun nəticəsində vətəndaşların sosial rifahının yüksəldilməsi istiqamətində atılan addımlar, struktur və kadr islahatları, parlamentin yenilənməsi cəmiyyət tərəfindən xüsusi rəğbətlə qarşılandı. Məhkəmə-hüquq islahatları ədalət mühakiməsi sistemində yeni keyfiyyət dəyişikliklərinin baş verməsi ilə müşayiət olundu.

Ötən 3 ilin ən böyük hadisəsi isə, əlbəttə ki, torpaqlarımızın işğaldan azad edilməsi, respublikamızın ərazi bütövlüyünün bərpası oldu. 2018-ci il aprel ayının 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimində Aprel qələbəsinə toxunan Prezident İlham Əliyev demişdi: “Bizim hərbi qələbəmiz Azərbaycan xalqının gücünü, yenilməz ruhunu göstərir. Onu göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Bunu göstərir ki, biz öz torpaqlarımızı azad edəcəyik”.

Bəli, uğurlarımızın memarı olan İlham Əliyevin həyata keçirdiyi siyasət, bütün istiqamətlərdə görülən kompleks tədbirlər 44 günlük Vətən müharibəsində torpaqlarımızın azad edilməsi ilə nəticələndi. Bu Qələbə ilə İlham Əliyev dövlətimiz və xalqımız qarşısında tariximizə qızıl hərflərlə həkk olunan möhtəşəm missiyanı yerinə yetirdi. Ona görə Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa edən lider kimi tariximizin ən qüdrətli sərkərdələri ilə bir cərgədə dayanır.

Artıq Azərbaycan ən ağrılı problemini yoluna qoyub və torpaqlarımızın azad edilməsi dövlətimiz üçün yeni inkişaf perspektivləri yaradıb. Ona görə qarşıdakı dövrdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın yeni və həm də daha möhtəşəm inkişaf salnaməsi yazılacaq.

***Könül NURULLAYEVA,***
***Milli Məclisin deputatı***

*Əvvəli 1-ci səh.*

# Ümumxalq sevgisinin təcəssümü

## Üç il öncə növbəti dəfə xalqın mütləq əksəriyyətinin etimadını qazanan İlham Əliyev Azərbaycanın xilaskar və alternativsiz lideri olduğunu bir daha təsdiqlədi

Hər zaman sözü ilə işi bir olan dövlət başçısı aprelin 18-də keçirilən andiçmə mərasimindəki çıxışı zamanı bəyan etdi ki, Azərbaycanın daha qüdrətli ölkəyə çevrilməsi üçün bütün imkanları səfərbər edəcək. Belə də oldu. Azərbaycanın hər bir vətəndaşının və dövlətimizin maraqlarının təmin edilməsi məsələsi son üç ildə də İlham Əliyevin həyata keçirdiyi siyasətin prioritetini təşkil etdi. Ölkədə dayanıqlı inkişaf, sabitlik və əmin-amanlıq təmin edildi, beynəlxalq mövqelərimiz daha da möhkəmləndirildi.

Seçkilərdən dərhal sonra özünün yeni islahatlar paketini təqdim edən İlham Əliyev inkişaf strategiyasının 11 istiqamət üzrə yol xəritəsini müəyyənləşdirdi. Ötən üç il ərzində də Prezidentin hər zaman xalqının yanında olduğunun, onun problemlərinin həllinə xüsusi həssaslıqla yanaşdığının bir daha şahidi olduq. Bayram və şad günlərdə hər zaman xalqla birlikdə olan Prezident dar gündə də xalq ilə təmasda oldu, vətəndaşları narahat edən problemləri birbaşa dillərindən dinlədi, onların həlli ilə bağlı yerindəcə göstərişlər verdi.

Ümumiyyətlə, Prezidentin mütəmadi olaraq paytaxtda və bölgələrdə vətəndaşlarla keçirdiyi səmimi görüşlər, onların qayğıları ilə yaxından maraqlanması, insanların sosial rifahının yaxşılaşdırılması istiqamətində verilən qərarlar xalqın İlham Əliyevə olan inamını daha da artırdı. Bu amillər həm də Prezidentlə xalqın birliyi konsepsiyasının əsas qayəsini təşkil etdi.

### Ən islahatçı Prezident

Son üç ildə İlham Əliyevin mütərəqqi islahatları bir çox sahələri əhatə etdi. İqtisadi islahatlarla yanaşı reallaşan siyasi islahatlar daha çevik idarəetmə strukturunun yaradılması ilə nəticələndi. Dövlət idarəetmə sistemində modernləşmənin, şəffaflığın təmin edilməsi və idarəetmədə yeni fəaliyyət üslubunun formalaşdırılması istiqamətində böyük uğurlara imza atıldı.

Həmçinin Prezident Administrasiyasının, Nazirlər Kabinetinin və digər dövlət qurumlarının, yerli icra hakimiyyəti orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi istiqamətində ciddi islahatlar aparıldı. Növbədənkənar parlament seçkiləri də bu islahatların tərkib hissəsi oldu.

2019-cu ilin əvvəlindən başlayaraq İlham Əliyev tərəfindən müxtəlif istiqamətlərdə olduğu kimi, sosial sahədə də geniş islahatlar aparıldı. Ekspertlər tərəfindən sosial inqilab xarakterli qərarlar adlandırılan bu fərman və sərəncamlar demək olar ki, əhalinin bütün təbəqələrini əhatə etdi.

Fəaliyyəti ədalətə, humanizm və mərhəmət prinsiplərinə söykənən İlham Əliyev son 3 ildə də ənənəsinə sadiq qalaraq 4 əfv sərəncamı imzalamaqla minlərlə ailəyə sevinc payı bəxş etdi. 2018-ci ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə əlaqədar imzalanan sərəncam isə ən böyük əfv sərəncamı (634 məhkuma şamil edilib) kimi tarixə düşdü.



Bütün bu islahatlar, əlbəttə ki, beynəlxalq səviyyədə təqdir edildi. Azərbaycan Prezidentinin güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində aparılan kompleks islahatlar ölkəmizin yeni rekordlara imza atmasına imkan yaratdı. Dünyada ən vacib və etibarlı reytinq göstəricisi hesab olunan Dünya Bankının “Doing Business-2019” hesabatı İlham Əliyevi ən islahatçı Prezident kimi dəyərləndirdi. Çünki hesabata əsasən Azərbaycan dünyanın 10 islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olundu.

Dünyanı bürüyən qlobal böhran, pandemiya bəlası ilə mübarizə zamanı da İlham Əliyev mühüm təşəbbüslərlə çıxış etdi. Azərbaycan Prezidentinin bilavasitə qlobal lider olaraq dünya səviyyəsində irəli sürdüyü təşəbbüslər, pandemiyaya qarşı birgə mübarizə, qlobal bəladan birgə çıxış yollarının axtarılıb araşdırılması, eyni zamanda iqtisadi tənəzzüldən və bir çox sahələrdəki çətinliklərdən çıxmaqla bağlı birgə konkret tədbirlər planının hazırlanması dünya birliyi tərəfindən dəstəkləndi.

Prezidentin bu məsələdə Ümumdünya Səhiyyə Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa Birliyi, BMT, Qoşulmama Hərəkatı, Türk Şurası kimi dünyanın bir çox aparıcı və nüfuzlu beynəlxalq təşkilatları və qurumları ilə əməkdaşlığa çağırışlarına verilən müsbət rəylər İlham Əliyevin liderlik keyfiyyətlərinin, zəkasının, siyasi iradəsinin uğurlu göstəricisi kimi qiymətləndirilməlidir.

### Baş Sərkərdənin tarixi Zəfəri

Ən nəhayət, İlham Əliyev Ali Baş Komandan kimi də verdiyi vədi gerçəkləşdirdi. Üç il öncə andiçmə mərasimində Prezident bəyan etdi ki, Azərbaycan xalqı heç vaxt bu işğal faktı ilə barışmayacaq və torpaqlarımız düşmən tapdağından azad ediləcək. Buna nail olmaq üçün daha da güclü olmalıyıq və olacağıq.

Ötən il sentyabrın 27-də əks-hücum əməliyyatları ilə başlayan Vətən müharibəsi düşmənə tarixinin ən ağır zərbəsini vurdu. Düzdür, bu savaş zamanı Azərbaycana böyük təzyiqlər də göstərildi. Ancaq qətiyyətli siyasi iradə nümayiş etdirən İlham Əliyev bütün təzyiqlərə mərdanə şəkildə sinə gərərək, öz prinsipial mövqeyindən dönmədi.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu 44 gün müddətində Ermənistanı təslim olmağa məcbur etdi. İkinci Qarabağ müharibəsi Böyük Zəfərimizlə bitdi. Azərbaycan son 200 illik tarixində müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxdı.

Bu Şanlı qələbədən sonra regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Azərbaycan vətəndaşlarının 30 ilə yaxın davam edən doğma od-ocaq həsrətinə son qoyuldu.

İlham Əliyev nəyi necə və nə zaman etməyi özünün yaxşı bildiyini bir daha parlaq şəkildə nümayiş etdirdi. Bu müharibə dünyaya Azərbaycan xalqının nə qədər böyük, yenilməz, dəmir iradəli, müzəffər xalq olduğunu göstərdi. Bu tarixi nəticə bizlər haqqında “məğlub xalq” rəyini sındırdı, xalqımıza özgüvən aşıladı, milli qürurumuzu yüksəltdi.

Vətən müharibəsində qazandığımız qələbə İlham Əliyevin hakimiyyətdə olduğu illər ərzində həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyasının məntiqi nəticəsi idi və tarixi Qələbə ilə Azərbaycan bir daha dünyanın inkişaf etmiş dövlətlərindən biri olduğunu təsdiqlədi.

Bu Zəfərlə adını Azərbaycan tarixinə qızıl hərflərlə yazdıran Ali Baş Komandana ümumxalq sevgisi daha da artdı. Üç il öncə böyük etimad göstərərək İlham Əliyevi özünə lider seçən xalq bir daha seçimində yanılmadığını gördü. Hər bir vətəndaş əmin oldu ki, Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən İlham Əliyev ölkəmizi daha parlaq gələcəyə aparacaq alternativsiz liderdir.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

## 2018 Sürətli islahatlar, qüdrətli dövlət, möhtəşəm Zəfər 2021

# Zəfər sərkərdəsi



**Uğurli liderlik missiyasını 18 ildir ardıcıl nailiyyətlərlə davam etdirən cənab İlham Əliyevin xalq tərəfindən aldığı son ümummili etimaddan 3 il ötür. 2018-ci il aprelin 11-də Azərbaycanın alternativsiz rəhbəri olmaq statusunu yeniləyən Prezident bu gün qlobal miqyasda tanınan, qəbul edilən, bölgənin əsas söz sahibinə çevrilən liderdir. Mükəmməl dövlət idarəçiliyi xüsusiyyətlərini dahi siyasi xadim Heydər Əliyevdən mənimsəyən dövlət başçımız həyatının bütün mərhələlərində kamil liderlik, yüksək peşəkarlıq, ən əsası isə ali vətənpərvərlik xüsusiyyətlərini nümayiş etdirmiş, tariximizə mühüm izlər salmışdır.**

Müstəqilliyimizin ilk illərində ölkəmiz ağır siyasi durumla yanaşı, həm də böhranlı iqtisadi vəziyyətdə idi. Dövlət xəzinəsi boşalmış, zavod və fabriklər yararsız vəziyyətə düşmüş, bir sözlə, ölkənin iqtisadi dayaqları tamamilə laxlamışdır. Belə bir vəziyyətdə hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyev ölkə iqtisadiyyatını qısa müddətdə dirçəltmək üçün xarici şirkətləri Azərbaycana dəvət edərək Xəzər dənizində olan neft yataqlarına maraq yaratmaq istəyirdi. 1994-cü ilin martında Bakıda başlayan danışıqlar sonralar İstanbul və Hyuston şəhərlərində davam etdirildi. Xarici investorları Azərbaycan neftinə sərmayə qoymağa inandırmaq üçün çox gərgin əmək sərf olunmalı idi. Xarici şirkətlərin əksəriyyəti öz maraqlarından çıxış edirdi. Belə bir vaxtda Ulu Öndər Dövlət Neft Şirkətinin Xarici əlaqələr üzrə vitse-prezidenti vəzifəsində işləyən İlham Əliyevi Vaşinqtona göndərdi. İlham Əliyev kamil diplomatik məharəti ilə bu danışıqlarda mümkünsüzü mümkünə çevirərək tərəfdaşları layihəyə inandıra bildi və beləliklə, "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu. Bu neft kontraktı Azərbaycanı inkişaf yoluna çıxardı və neft sənayesinin, bütövlükdə isə ölkənin sonrakı taleyində həlledici rol oynadı. Buradan başlayan missiyanın davamı olaraq, cənab İlham Əliyevin ölkənin elə bir sahəsi olmadı ki, orada müsbət töhfəsi, pozitiv təsiri olmasın.

2003-cü ildə xalqımız müdrik seçim edərək gələcək taleyini Ulu Öndərin siyasi varisi İlham Əliyevə etibar etdi. Son 18 ildə Azərbaycan yeni və müasir keyfiyyət mərhələsinə qədəm qoydu, istər sosial-iqtisadi, istərsə də siyasi baxımdan inkişafın Azərbaycan modeli yarandı. Bu illər ərzində dünyada Azərbaycan qədər inkişaf edən və müsbət mənada dəyişən ikinci bir dövlət olmadı. İnsanların sosial-rifahı və yaşam tərzləri inanılmaz dərəcədə yüksəldi. İlk əvvəllərdə Azərbaycan dövlətinin iqtisadi dayaqları neftdən gələn gəlirlərlə möhkəmlənsə də, sonradan neftdən olan asılılıq tədricən aradan qaldırıldı. Ölkəmizdə baş verən misilsiz inkişafın səbəbləri, əlbəttə, tək neft amili deyil. Dünyada Azərbaycandan nefti, qazı və digər təbii sərvətləri qat-qat çox olan dövlətlər var ki, orada əhali səfalət və yoxsulluq içərisində yaşayır. Burada əsas amil ölkə rəhbərinin idarəçilik və liderlik bacarığıdır.

İlham Əliyevin ağıllı və müdrik dövlət siyasəti, uzaqgörən və prinsipial idarəçilik bacarığı Azərbaycanı ön sıralara çıxardı. Müasir Azərbaycanın inkişafı, dövlət və milli maraqlarımızın qorunması, xalqın rifah halının yüksəlməsi dövlət başçımızın ali keyfiyyətləri sayəsində mümkün olmuşdur. İlham Əliyev özünün əsas vəzifəsini xalqına xidmətdə görməklə tabeliyində olan hər bir məmurdan da bunu təkidlə tələb etməsi onu insanlarımıza sevdirən amillərdən biridir.

Onun siyasətinin mərkəzində daim Azərbaycan vətəndaşının mənafeləri durur. Bu səbəbdən də hər bir Azərbaycan vətəndaşı ona inanmaqla daim etimad göstərir. İlham Əliyev o liderlərdəndir ki, prezidentlik dövründə bir dəfə də olsun reytinqi aşağı düşməmiş, əksinə, daim yüksəlmişdir.

Hakimiyyətə gəldiyi ilk gündən Qarabağ məsələsi Prezidentin xarici, eləcə də daxili siyasətinin əsas xəttini təşkil edirdi. İştirak etdiyi bütün beynəlxalq tədbirlərdə Azərbaycanın 20 faiz torpaqlarının erməni qəsbkarları tərəfindən işğal edildiyini bildirməklə həmin torpaqların bizə məxsus olmasını tarixi fakt və arqumentlərlə dünyaya çatdırır, xalqımızın milli maraqlarını qoruyur və bu məsələdə ikili standart yürüdən dünya dövlətlərini, həmçinin beynəlxalq təşkilatları tənqid edirdi. İlham Əliyev hər bir zaman Dağlıq Qarabağ məsələsinin danışıqlar yolu ilə həll olunmasına çalışmış və qarşı tərəfi sülhə çağırmışdır. Müharibənin baş verməsini istəməyən Prezident mümkün insan tələfatından qaçmaqla problemi qansız həll etməyə səy göstərmişdir. Lakin Ermənistanın baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" deməsi elə danışıqlar prosesinə də nöqtə qoydu. İlham Əliyev hələ Soçidəki "Valday" forumunda çıxışı zamanı buna münasibətini bildirmişdir: "Qarabağ əsl Azərbaycan torpağıdır. Qarabağ Azərbaycandır və nida işarəsi".

İlham Əliyev əminliklə bildirirdi ki, əgər sülh danışıqları nəticə verməsə, istənilən yolla Azərbaycan suverenliyini və ərazi bütövlüyünü bərpa edəcək. Bunu nəzərə alan Ali Baş Komandan İlham Əliyevin daim ordu quruculuğuna diqqət və qayğı göstərməsi ordumuzu dünyanın ən güclüləri sırasına yüksəltmişdi. Və nəhayət, o gün gəldi: 27 sentyabr 2020-ci il...

Həmin gün Ermənistan növbəti dəfə təxribat törədərək Azərbaycan torpaqlarına göz dikdi. Dərhal Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi və dövlət başçısı iclasda qətiyyətlə dedi ki, Azərbaycan Ordusu genişmiqyaslı əks-hücum əməliyyatına başlamışdır. Ali Baş Komandanın bir çağırışı ilə Azərbaycan xalqı onunla birlik, həmrəylik, yüksək vətənpərvərlik və əzmkarlıq nümayiş etdirməklə bir nəfər kimi bu haqq işində dövlət başçısının yanında olduğunu göstərdi. Əli silah tutan hər bir kəs ordu sıralarına yazılmaq üçün növbəyə durdu. Bu, İlham Əliyevin uğurlu siyasətinin nəticəsi və yeni tarixin başlanğıcı idi. Bu siyasətin və birliyin nəticəsində Azərbaycan Ordusu 44 gün ərzində işğal olunmuş torpaqlarımızı azad edərək mənfur düşməni bütünlüklə darmadağın etdi. İlham Əliyevin qətiyyət və iradəsi, xalq-dövlət birliyi, Azərbaycan əsgərinin peşəkarlığı və qəhrəmanlığı sayəsində Ermənistan şərtsiz kapitulyasiyanı qəbul etmək məcburiyyətində qaldı. Bu 44 gün müddətində Ali Baş Komandan həm bir siyasətçi, həm də bir ordu sərkərdəsi kimi vuruşdu.



Həmin dövrdə dünyanın bəzi media qurumları qərəzli informasiya müharibəsi aparmaqla Azərbaycanın haqq işinə kölgə salmağa çalışdı. Ermənipərəst jurnalistlərin təxribat xarakterli suallarına Prezident soyuqqanlı və məntiqi cavablar verməklə onları susdurur və Azərbaycanın bu müharibədə haqlı tərəf olduğunu bir daha dünyaya tutarlı faktlarla sübut edirdi. Ali Baş Komandan Qarabağ məsələsində hətta dünya siyasətində güc nümayiş etdirən dövlətləri də məhz onların ədalətsiz mövqelərinə görə tənqid edirdi. İlham Əliyevin çevik siyasəti nəticəsində dünyada heç bir güc mərkəzi Azərbaycanı ədalətsizlikdə ittiham edə bilməzdi. Müharibə günlərində Prezidentin çıxışları hər bir azərbaycanlının döyüş ruhunu yüksəldirdi. Hər kəs Prezidentin ard-arda verdiyi qələbə xəbərlərini səbirsizliklə gözləyirdi.

Prezidentin dəmir yumruğu birliyimizin simvolu idi. Məhz İlham Əliyevin rəhbərliyi ilə qazanılan Qələbə bizə təkcə itirilmiş torpaqlarımızı qaytarmadı, həm də özünəinamı bərpa etdi, yüksək əzm, iradə, cəsarət və mübarizlikdən yoğrulmuş qəhrəmanlıq ruhumuzu oyatdı, bizi utanc və ümidsizlikdən xilas etdi, bizə böyük qalibiyyətdən doğan yüksək fəxarət hissi yaşatdı. İlham Əliyevin böyük təmkini, uzaqgörən siyasəti, diplomatik bacarığı, sarsılmaz iradəsi və qətiyyəti bizi Şanlı Qələbəyə addım-addım yaxınlaşdırdı. Qədim və doğma şəhərimiz olan Şuşa şəhərinin azad edilməsini məhz Şəhidlər xiyabanından elan etməsi, birinci xanım Mehriban Əliyeva ilə birlikdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edərək onun vəsiyyətini yerinə yetirdiyini bildirməsi bizi çox duyğulandırdı və eyni zamanda da qürurlandırdı.

İlham Əliyev müharibədən sonra işğaldan azad edilmiş torpaqlarımıza səfərlər edərək erməni vandallığını bir daha dünyaya nümayiş etdirdi. Dağılmış məscidləri, yerlə yeksan olmuş, daşı-daş üstündə qalmayan evləri şəxsən dünya mediasına göstərən Ali Baş Komandan ermənilərin bu torpaqlarda etdikləri vəhşiliklər barədə vaxtilə dediyi sözlərdə nə qədər haqlı olduğunu bir daha əyani olaraq yerində göstərdi.

İlham Əliyev bizlər üçün yalnız Prezident deyil, o, xilaskardır və ən əsası, əsl vətəndaşlıq nümunəsidir...

İlham Əliyev Azərbaycan tarixində iz qoyan qalib Sərkərdədir...

***Ruhiyyə ƏLİYEVA,***
***Yeni Azərbaycan Partiyasının üzvü, sahibkar***

# Qalib ordunun Ali Baş Komandanı

**Tarixdə zaman-zaman münaqişələr, müharibələr baş verib. Bəzən ən igid, döyüşkən xalqların da əzəli torpaqları düşmən işğalına məruz qalıb. Xalqın böyüklüyü mübarizlik əzmini qorumasında, heç zaman işğalla barışmamasında, daim döyüşə hazır olmasındadır. Çünki döyüş ruhu qələbəyə zəmin yaradır. Haqqın, ədalətin sonunda yenə qalib gələcəyinə inamı yaşatmaq isə zəfərin başlanğıcıdır.**









Otuz ilə yaxın Ermənistan silahlı qüvvələri XX əsrin sonuncu onilliyində işğal etdiyi torpaqlarımıza bizi həsrət qoydu. Məkrli və qəddar düşmən öz bəd əməlindən çəkinməsə də, Azərbaycan dövləti humanistlik göstərdi. Münaqişəni sülh yolu ilə həll etməyin tərəfdarı olduğunu bütün dünyanın gözü qarşısında hər zaman nümayiş etdirdi. Ancaq beynəlxalq təşkilatlar üzərlərinə düşən vəzifələri yerinə yetirə bilmədilər. Nəticədə, Ermənistan işğal altında saxladığı ərazilərimizi viran qoymaqdan, bütün tikililəri, eləcə də tarixi-mədəni, dini abidələrimizi dağıtmaqdan, yerlə yeksan etməkdən çəkinmədilər.

Azərbaycan xalqı hər zaman dövlətinin başçısı, Ali Baş Komandanı İlham Əliyevin əmrini gözlədi. Prezident İlham Əliyev ən yüksək kürsülərdən dönə-dönə bəyan etdi ki, biz heç zaman torpaqlarımızın işğalı ilə barışmayacağıq. Lazım gələrsə, döyüş yolu ilə ərazilərimizi erməni işğalçılarından geri alacağıq. Azərbaycan Prezidentinin öz çıxışlarında sərt şəkildə: "Əgər erməni əsgəri ölmək istəmirsə, rədd olsun Azərbaycan torpaqlarından!" deyə bəyan etməsi hər bir azərbaycanlının ürəyindən oldu.

Bu illər ərzində öz torpaqlarını geri qaytarmaq uğrunda mübarizə aparan Azərbaycan dövləti daha da qüdrətləndi. Ancaq bütün sahələrdə Ermənistandan güclü olduğunu bilə-bilə müharibəyə başlamadı. Ötən il sentyabrın 27-də Ermənistan dövləti sülh istəmədiyini, təxribatlardan əl çəkməyəcəyini bir daha sübut etdi. Həmin günün səhəri Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, hərbi mövqelərimizi atəşə tutdu. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar oldu.

O gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edərək bu hücumun erməni faşizminin növbəti təzahürü olduğunu bəyan etdi. Dövlət başçısı düşmənin işğalçı siyasətini vurğuladı: "Ermənistan bu təxribatı törətməklə hansı məqsədi güdürdü? İlk növbədə Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər. Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur, bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir".

"Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" Dövlət başçısının çıxışının sonunda dilə gətirdiyi bu sözlərdə ifadə olunan zəfərimizə inam çox böyük və sarsılmaz idi. Xalqda o anlardaca əminlik yarandı ki, yağı düşmənin başladığı bu müharibə haqqın qələbəsi ilə başa çatacaq, qalibiyyət Azərbaycanın olacaq!

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev qismən səfərbərlik elan etdi. Dərhal minlərlə azərbaycanlı vətən torpağının işğaldan azad olunması uğrunda başlayan Vətən müharibəsində iştirak etmək üçün hərbi komissarlıqlara müraciət etdi.

44 gün davam edən Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələri yenə müharibə cinayətləri törətdilər. Döyüş meydanında qorxaq olduqlarını, Azərbaycan əsgərlərindən çəkindiklərini gizlədə bilmədilər. Müzəffər Azərbaycan Ordusunun gücü qarşısında aciz qalan düşmən nəinki cəhbəyə yaxın, hətta uzaq məsafələrdə yerləşən ərazilərimizdə yaşayan günahsız insanlarımızı hədəfə aldı, onları öz evlərində qanlarına qəltan etdilər. Düşmən hər hiyləyə əl atdı. Amma məqsədinə nail ola bilmədi. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti, Azərbaycan xalqının öz rəhbərinə inamı, özünə hörməti, humanistliyi nəticəsində dünyanın gözləri önündə möhtəşəm bir tarix yazıldı.

Vətən müharibəsinin davam etdiyi, əksəriyyətimizin ailə üzvünün, yaxın qohumunun işğalçılara qarşı gedən qanlı-qadalı döyüşlərdə iştirak etdiyi həmin günlərdə hər kəs böyük inamla, sonsuz ümidlə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xalqa müraciətini gözləyirdi. Bu müraciətlərin hər biri möhtəşəm zəfərə addım-addım yaxınlaşdığımıza bizi inandırırdı.

Nəhayət, Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri arasında bəyanat imzalandı. Dövlət başçısı doğma xalqına müraciətində həmin sənədin əhəmiyyətini açıqladı: "Bu bəyanat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir, Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, insanlarımızın 30 illik həsrətinə son qoyulur".

Ermənistanın məğlubiyyətini rəsmi şəkildə təsdiq edən bu bəyanat Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanının, məğlubedilməz ordumuzun şanlı qələbəsinin nəticəsi oldu. Prezident İlham Əliyevin bu müjdəni fəxr və qürurla Azərbaycan xalqına çatdırdığı gün - 2020-ci ilin 10 noyabrı qürur tariximizə çevrildi. O gün Azərbaycan xalqı böyük fəxarət hissi ilə "Biz qalibik!" dedi.

Müzəffər Azərbaycan Ordusu, qalib Silahlı Qüvvələrin Ali Baş Komandanı işğalçılığı əsas məqsədlərinə çevirmiş ermənilərin "böyük Ermənistan" xülyalarının nə qədər boş, cəfəng olduğunu bir daha göstərdi.

Gözlədiyimiz zəfər günü gəldi. 2020-ci il noyabrın 10-da İlham Əliyev xalqa müraciətində dedi: "Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır. 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik. Dedik ki, düşməni torpaqlarımızdan qovacağıq!"

Xalqımızın həmrəyliyi, böyük inamla Ali Baş Komandanın ətrafında sıx birləşməsi, Azərbaycan Ordusunun məğlubedilməzliyi, hünəri və rəşadəti tarixi qələbəmizin mənbəyi oldu. Düşmən bu birliyin qarşısında duruş gətirə bilmədi.

Vətən müharibəsi başa çatıb. Artıq on illər boyu böyük kədər, dərd içərisində qeyd etdiyimiz ərazilərimizin işğalı günləri də tarix kitablarının səhifələrində qalıb. Artıq Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrini məğlubiyyətə uğradaraq azad etdiyi torpaqlarımızda böyük quruculuq işlərinə başlanılıb. Azərbaycan Prezidenti dəfələrlə işğaldan azad edilmiş ərazilərimizə səfər edib.

Ötən il noyabrın 16-da Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində oldular. İlham Əliyev çıxışında vurğuladı: "Mən 17 il ərzində ölkə Prezidenti və Ali Baş Komandan kimi dəfələrlə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz sözlərimi demişdim. Demişdim, biz heç vaxt imkan verə bilmərik ki, tarixi Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Demişdim ki, heç vaxt Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaq. Demişdim ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Demişdim ki, sülh yolu ilə mümkün olmasa, hərbi yolla bunu bərpa edəcəyik. Mənim çıxışlarım hər yerdə var, dərc edilib. Bu sözləri demişəm və buna əməl etmişəm. Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz. Vahid Azərbaycan dövləti var".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

2018 **Sürətli islahatlar, qüdrətli dövlət, möhtəşəm Zəfər** 2021



# “Cənub qaz dəhlizi”nin təşəbbüskar lideri İlham Əliyevdir

## Bunu dünya siyasətçiləri və ekspertləri də təsdiqləyirlər

**Üçüncü minilliyin nəhəng mühəndis qurğusu, üç ölkənin ərazisindən keçərək Azərbaycan neftini dünya bazarlarına çatdıran Bakı-Tbilisi-Ceyhan (BTC) kəmərinin müəllifi Ümummilli Lider Heydər Əliyevdir. Ulu Öndərin vaxtilə “Üç dənizin əfsanəsi” adlandırılan bu möhtəşəm əsəri çox böyük sınaqlardan şərəflə çıxaraq gerçəkliyə çevrildi və dünyanın bir çox siyasətçiləri, ekspertləri etiraf etdilər ki, Heydər Əliyev olmasaydı, BTC də olmazdı.**

BTC-yə ilk neft 2005-ci ilin mayında Səngəçaldan vuruldu, 2006-cı ilin iyulunda isə kəmər tam bir sistem kimi işə salındı. Prezident İlham Əliyev bütün dünyaya bəyan etdi ki, bununla biz “pəncərə yaradaraq beynəlxalq enerji ailəsinə geniş qapı açdıq”. Dedi və Ulu Öndərin yeni neft strategiyasını davam etdirməklə kifayətlənmədi, onu zamanın tələblərinə uyğun olaraq inkişaf etdirdi. Başlanmış yolları böyük dəhlizlərə qovuşdurdu. Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşan layihələr Azərbaycanı həm də qaz ixrac edən ölkə kimi tanıtdı və bu gün dünya etiraf edir: “Cənub qaz dəhlizi”nin təşəbbüskarı İlham Əliyevdir, bu qlobal layihənin aparıcı qüvvəsi Azərbaycandır!”

Xəzərlə Adriatik dənizinin sahillərini birləşdirən, Azərbaycanın Səngəçal qəsəbəsindən İtaliyanın Puqlia məntəqəsinədək 3500 kilometrlik yol qət edən, üç möhtəşəm kəməri möhkəm həlqələrlə bir-birinə bağlayan bu dəhliz Azərbaycanın liderliyi ilə, Prezident İlham Əliyevin uzaqgörən siyasəti, dərin zəkası, dünyada söz və siyasi nüfuz sahibi olması sayəsində gerçəkləşdi. Azərbaycan möhkəm əməkdaşlıq və tərəfdaşlıq platforması yaratdı. Bu sıx əməkdaşlıq və tərəfdaşlıq şəraitində “Şahdəniz”, CQBK-nın (Cənubi Qafqaz Boru Kəməri) genişləndirilməsi, TANAP (Trans-Anadolu Qaz Boru Kəməri), TAP (Trans-Adriatik Qaz Boru Kəməri) layihələrini həyata keçirdi. Xatırladaq ki, bunlar “Cənub qaz dəhlizi”nin dörd seqmentidir.

“Cənub qaz dəhlizi”nin təməli Səngəçal terminalında 2014-cü il sentyabrın 20-də, “Əsrin müqaviləsi”nin 20 ili tamam olan gün qoyuldu. 2018-ci ilin mayında isə həmin yerdə layihənin açılış mərasimi keçirildi. Prezident İlham Əliyev tədbirdə çıxış edərək dedi: “4 il bundan əvvəl bu ərazidə “Cənub qaz dəhlizi”nin təməli qoyulub. O zaman mən tam əmin idim ki, bu layihə uğurla, vaxtında icra ediləcək, baxmayaraq ki bu, çox nəhəng və texniki-iqtisadi cəhətdən çox mürəkkəb bir layihədir. Bu layihə geniş beynəlxalq əməkdaşlıq tələb edən bir layihə idi. İlk dəfə olaraq Azərbaycan belə genişmiqyaslı beynəlxalq iqtisadi və siyasi əməkdaşlığı tələb edən layihəyə start vermişdir, onun təşəbbüskarı olmuşdur. “Cənub qaz dəhlizi”nin rəsmi açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır”.

Layihəni irəliyə aparan dövlət başçısının bax, bu inamı idi, yaratdığı bu əməkdaşlıq platforması idi, hədəfləri düzgün müəyyən etməsi, strategiyanı dəqiq seçməsi idi. Əlbəttə, burada heç bir şərhə ehtiyac yoxdur. Bununla belə, xatırlatmaq yerinə düşər ki, 2015-2020-ci illərdə hər il bir dəfə olmaqla keçirilən “Cənub Qaz Dəhlizi” Məşvərət Şurasının 6 toplantısının hamısına Azərbaycan evsahibliyi edib. Yalnız sonuncu, 7-ci iclas pandemiya səbəbindən videokonfrans şəklində keçirilib. Bunun özü də layihədə Azərbaycanın liderliyini təsdiqləyən faktdır.

Beşinci toplantı 2019-cu il fevralın 20-də keçirildi. O zaman Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı Günter Ottinger Prezidentimizin layihədəki rolunu belə şərh etmişdir: “2014-cü ildə həmkarım, vitse-prezident Şefçoviçlə birgə Şuranı təsis etdiyinə görə Prezident Əliyevə və bu illər ərzində hər il keçirilən tədbirə evsahibliyi etməklə Azərbaycanın nümayiş etdirdiyi möhtəşəm qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istərdim. Mən səmimi-qəlbdən inanıram ki, Məşvərət Şurası bu layihənin inkişaf etdirilməsində mühüm rol oynayıb... Bu, tarixi layihədir. “Cənub qaz dəhlizi” sayəsində, - lakin təkcə bunun sayəsində deyil, - Azərbaycan Avropa İttifaqı üçün əsas strateji tərəfdaşdır... Azərbaycan həmçinin öz iqtisadiyyatının şaxələndirilməsi ilə fəal şəkildə məşğul olur. Bu, açıq-aşkar sizin əməkdaşlığı genişləndirə biləcəyiniz sahədir”.

2020-ci il fevralın 28-də keçirilən altıncı toplantıda Avropa Komissiyasının nümayəndəsi Klaus-Diter Borxardt da Prezident İlham Əliyevin layihəyə rəhbərliyini yüksək qiymətləndirib: “Şahdəniz-2” yatağından hasil edilən qazın Avropa İttifaqına - İtaliyaya qədər nəqli ilə bağlı sadə fakt bizim hamımız üçün fantastik nailiyyət olacaq. Avropa İttifaqı üçün əlbəttə ki, bu layihə həyati əhəmiyyət kəsb edir. Çünki bu, bizim enerji təhlükəsizliyimizi gücləndirir, həmçinin bizim şaxələndirmə strategiyamızın bir hissəsidir, yeni mənbədir və eləcə də daha mühümü olan Avropa bazarına yeni marşrutdur. Burada mən bütün bu illər ərzində bu layihələrə göstərdiyi idarəçiliyə və rəhbərliyə görə Prezident Əliyevə və onun hökumətinə təşəkkürümü bildirmək istərdim”.

Məşvərət Şurasının fevralın 11-də keçirilən builki iclası isə xüsusilə əhəmiyyətli idi. Çünki “Cənub qaz dəhlizi” artıq uğurla başa çatıb. Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı xanım Kadri Simson bu nəhəng layihənin qələbəsində Azərbaycan Prezidentinin zəhmətini və rolunu belə vurğulayıb: “Bu dəhliz vasitəsilə Avropa İttifaqı və Azərbaycan hazırda strateji enerji tərəfdaşlarıdır. Biz bu nöqtəyə təsadüfən, yaxud hansısa şərtlərlə gəlməmişik. Tam əksinə. Biz bu nöqtəyə bu gün ona görə çatmışıq ki, həmin iclasda iştirak edən hər bir şəxs yorulmadan çalışıb və sadiqliyini nümayiş etdirib. Mən əvvəlcə Prezident Əliyevə bütün bu illər ərzində nümayiş etdirdiyi mövqeyinə, qətiyyətinə və strateji idarəçiliyinə görə təşəkkürümü bildirmək istəyirəm.

Azərbaycan dünyada həqiqətən də etibarlı tərəfdaş imici qazanıb. Bu inam və etimad “Əsrin müqaviləsi”ndən, həmin sazişdəki, eləcə də daha sonra Gürcüstanla, Türkiyə ilə birgə həyata keçirdiyimiz ixrac layihələrindəki tərəfdaşlarımızla birgə iş zamanı yaranıb, sınaqdan keçib və əməkdaşlıq əlaqələrini şaxələndirib. Məsələn, “Cənub qaz dəhlizi”nin “onurğa sütunu” adlandırılan TANAP Azərbaycanın və Türkiyənin birgə gerçəkləşdirdiyi layihədir ki, onun uğurla başa çatdırılması ilk növbətə iki qardaş ölkənin dövlət başçılarının səyi nəticəsində mümkün olub. Prezident İlham Əliyev bu barədə belə deyib: “Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə qərara gəldik ki, bizə lazım olan bu nəhəng layihəni özümüz həyata keçirək və belə də oldu”.

Türkiyə Prezidenti isə Azərbaycanın dövlət başçısının bu layihələrdəki xüsusi rolunu qeyd edib: “Qardaşım İlham Əliyevin liderliyini unutmaq əsla mümkün deyil”.

Prezident İlham Əliyev dönə-dönə vurğulayib ki, BP bizim əsas tərəfdaşımızdır. Bu şirkət ölkəmizdə həyata keçirilən ən böyük neft-qaz və ixrac layihələrinin operatoru olmaqla yanaşı, həm də “Cənub qaz dəhlizi”nin bütün seqmentlərində sanballı iştirak payına malikdir. Şirkətin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Conz tarixdə ilk dəfə olaraq Azərbaycan qazının Xəzər dənizindən birbaşa Avropaya nəql olunmasını təmin edən bu layihədə İlham Əliyevin rolunu layiqincə belə dəyərləndirib: “Prezident Əliyevin liderliyi, eləcə də ölkəsi və bütün region üçün gələcəyə baxışı bu tarixi nailiyyətin gerçəkləşməsinə böyük təkan verdi. Onun şəxsi səyləri dünya neft və qaz sənayesində ən mürəkkəb layihələrdən birinə çevrilmiş bir layihənin uğurla həyata keçməsi üçün həlledici rol oynayıb. BP şirkəti olaraq biz qarşıdan gələn onilliklər boyunca regiondakı və Avropadakı insanlara fayda gətirəcək bu layihənin bütün hissələrində iştirak etməkdən böyük qürur duyuruq”.

Prezident İlham Əliyev çıxışlarının birində deyib: “Tarixdə liderlərin rolu haqqında kifayət qədər kitablar yazılıb, elmi əsərlər yaradılıb və müxtəlif fərziyyələr, fikirlər var. Onların hər biri qəbuldur. Ancaq tarix göstərir ki, liderin rolu bir çox hallarda həlledici olur, bu, danılmazdır”.

Həmin fikri, heç şübhəsiz, Azərbaycan Prezidentinin özünə də şamil etmək olar və dünya bunu birmənalı şəkildə təsdiqləyir.

*Flora SADIQLI,*
*“Azərbaycan”*

# Sosial ədalət, inam və xalqa sədaqət...

## Azərbaycan Prezidenti İlham Əliyevin son üçillik fəaliyyəti bir daha bunları sübut edir

**Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycan bütün sahələrdə uğurla inkişaf edir. Bu inkişafın təməlində isə əlbəttə ki, Ulu Öndər Heydər Əliyevin ideyalarının son 17 il ərzində bütün istiqamətlərdə davam etdirilməsi dayanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən səmərəli sosial-iqtisadi siyasət, dərin islahatlar strategiyası Azərbaycanın dayanıqlı inkişafını təmin etməklə yanaşı, həm də ölkəmizin qarşısında yeni perspektivlər açıb.**

Bəli, ölkəmizdə bu gün elə bir sahə yoxdur ki, orada yüksək inkişaf göstəriciləri qeydə alınmasın. Sabitlikdən başlayaraq respublikanın bütün regionlarını əhatə edən sosial-iqtisadi, eləcə də mədəni inkişaf nəticədə əhalinin rifah halının daha da yaxşılaşdırılmasına səbəb olub. Bütün bunların əsasında isə təbii ki, uğurlu iqtisadi siyasət dayanır. Regionların davamlı inkişafı ilə yanaşı, dövlətimizin beynəlxalq əlaqələri, hərbi, siyasi, iqtisadi, sosial sahələrdə əməkdaşlıq coğrafiyası da genişlənib.

Qazanılmış bu nailiyyətlərin əsasında Prezident İlham Əliyevin düşünülmüş, praqmatik daxili və xarici siyasəti dayanıb. Bu, dünyanın aparıcı dövlət və siyasi xadimləri, nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri tərəfindən də dəfələrlə qeyd edilib. Azərbaycanı ilk növbədə sabitlik adası kimi tanıyan dövlət başçıları ölkəmizlə hərtərəfli əməkdaşlığa üstünlük veriblər.

2003-cü ildə ölkədə keçirilən prezident seçkilərində xalqın dəstəyini yüksək səviyyədə qazanan cənab İlham Əliyevin dövlət başçısı seçilməsindən ötən müddət ərzində Azərbaycanın inkişaf dinamikasına nəzər saldıqda qürur duyursan ki, Ulu Öndər Heydər Əliyev heç də əbəs yerə deməmişdir: “Mən Ona özüm qədər inanıram”.

Bu inam Azərbaycan Prezidenti İlham Əliyevin ötən 17 illik fəaliyyəti dövründə özünün təsdiqini əsaslı şəkildə tapdı.

2020-ci ilin 44 günlük Vətən müharibəsindəki möhtəşəm Qələbə isə Azərbaycan Prezidentinin fəaliyyətinin yalnız bir hissəsi deyil, əslində dövlətimizin beynəlxalq aləmdəki nüfuzunun daha da artmasına hesablanmış strategiya, həmçinin xalqımızın arzusunun gerçəkləşdirilməsi üçün hərbi-siyasi taktika idi. Düşmən tərəfinin, eləcə də onun arxasında dayanan beynəlxalq gücün Azərbaycanın qarşısında diz çökdürülməsi möhtəşəm zəfər kimi tarixə yazıldı.

Azərbaycan Prezidenti İlham Əliyev hələ 2003-cü ildə xalqa verdiyi vədləri vaxtında və layiqincə yerinə yetirib. Azərbaycan istər sabitlik, istərsə də təhlükəsizlik baxımından da bir çox ölkə üçün örnəkdir. Respublikamız tolerantlıq nümunəsi göstərir. Burada müxtəlif xalqlara və mədəniyyətlərə məxsus insanlar sülh, əmin-amanlıq şəraitində yaşayır və bundan qürur duyduqlarını gizlətmirlər. Multikulturalizm bizim cəmiyyətin həyat tərzinə çevrilib. Azərbaycan həm də beynəlxalq miqyasda demokratik ölkə imicini qazanmış məkandır.

Son üç il ərzində ölkəmizdə baş verən hadisələr isə normal inkişafı əks etdirməsi ilə yanaşı, həm də xalqımızın istək və arzularını gerçəkləşdirmiş oldu. Dövlət başçısının təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatlara münasibətdə də cəmiyyətin ən müxtəlif təbəqələrinin razılığını, sonsuz rəğbətini müşahidə etdikcə sevinməyə bilmirsən.

Müxtəlif sosioloji tədqiqat mərkəzləri əhali arasında müntəzəm şəkildə sorğular aparır. Yüksək demokratikliyi ilə seçilən, xalqımızın mütləq əksəriyyətinin iradəsini əks etdirən seçkilərin nəticələri dövlət başçısına böyük etimadı göstərir. Ölkəmizdə vətəndaşların Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətə inam və etimad bəslədikləri, xalq-iqtidar birliyinin sarsılmaz təməllərə söykəndiyi həmin sorğularda öz təsdiqini tapır.

Prezident İlham Əliyev qarşıya qoyduğu, bəyan etdiyi strateji hədəflərə nail olunması üçün istər beynəlxalq miqyasda, istərsə də ölkə daxilində məqsədyönlü, ardıcıl, düşünülmüş siyasət həyata keçirdi. Bunun da nəticəsidir ki, güclü dövlət konsepsiyası reallaşdırıldı. Quruculu, birləşdirici kimi tanınan dövlət başçısı Azərbaycan xalqının bütün istək və arzularını reallaşdırmaq üçün var qüvvəsini əsirgəmir. Siyasətində dövləti maraqları ən ali məqsəd kimi görən, bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi Lider məhz belə olmalı idi!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il aprelin 11-də xalqın etimadını yenidən qazanaraq dövlət başçısı seçilməsindən 3 il vaxt ötür. Bu son üç ildə Prezidentin fəaliyyətinin bütün istiqamətlərində əldə edilən uğurları sadalamaqla bitməz. Xüsusən dövlət başçısının sosial təminat baxımından ölkə əhalisinin daim yanında olması, problemlərinin həllində həyata keçirilən layihələr bir daha təsdiqləyir ki, cənab İlham Əliyev hələ 17 il əvvəl verdiyi vədi heç vaxt unutmayıb. O, hər bir azərbaycanlının prezidenti olması ilə xalqın sevgisini qazanmaqda, qorumaqdadır. Sosial sahədə daha həssas təbəqə olan aztəminatlı, şəhid ailələrinin, qazilərin, bir sözlə, həssas təbəqənin daim diqqət mərkəzində saxlanması bu baxımdan xüsusi önəm daşıyır. Yeni Prezidentlik dövrünə şəhid ailələrinə kompensasiya verilməsi barədə fərmanın imzalaması ilə başlayan İlham Əliyev bu müddət ərzində Azərbaycan vətəndaşının rifahının yüksəldilməsini daim prioritetdə saxlayıb. Şəhid ailələrinə birdəfəlik ödəmənin əhatə dairəsi daha da genişlənib ki, bu da 12268 şəhidin vərəsələrini əhatə edib.

Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə mənzillərin alınması üçün isə 35 milyon manat ayrılıb. 30 yanvar 2019-cu il tarixli “Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında” fərmanı ilə şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği artırılaraq, 2019-cu il fevralın 1-dən 300 manat müəyyən edilib.

Dövlət başçısının tapşırığı ilə ölkə əhalisinin rifahının yaxşılaşdırılması istiqamətində atılan addımlar, aparılan islahatlar sosial təminat növləri üzrə ödənişlərin hər biri üzrə ciddi artım dinamikası ilə müşahidə edilməkdədir. Bu tendensiyanı 2018-2020-ci illərin sosial mənzərəsinə nəzər saldıqda müsbət, aydın şəkildə görmək olar. Xüsusilə 2019-cu ildə reallaşan islahatlar nəticəsində minimum əməkhaqqı 2 dəfəyə yaxın artırılaraq, 130 manatdan 250 manata çatdırılıb.

Aparılan islahatlar nəticəsində son 3 ildə pensiyaların orta aylıq məbləği 60 faiz artıb. Bu ilin əvvəlinə nisbətən isə həmin artım 10 faiz təşkil edib. Pensiyaların orta aylıq məbləği 330, o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləği 361, əlilliyə görə pensiyaların orta aylıq məbləği 290, ailə başçısını itirməyə görə pensiyaların orta aylıq məbləği 267 manatadək artırılıb.

Onu da qeyd edək ki, bu ilin əvvəlindən pensiyaların indeksləşdirilərək artırılması üçün illik əlavə 444 milyon manat ayrılıb. Həmçinin bu ilin əvvəlindən təqaüdlərin artımı və yenilərinin təsis edilməsi üçün isə əlavə 40 milyon manat sərf olunacağı nəzərdə tutulub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Prezident təqaüdü ilə təmin olunanların sayı son iki ildə 5 dəfə artaraq, 60 mindən 300 minə, il ərzində aylıq sosial müavinət alanların sayı isə 2017-ci ildəki 368,7 mindən 2020-ci ilin sonunadək 401,3 min nəfərə çatıb.

Ümumilikdə, bu gün 2,4 milyonadək insan sosial təminat növləri üzrə ödənişlərlə təmin edilir. Prezident İlham Əliyevin 9 avqust 2018-ci il tarixli fərmanı və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan DOST konsepsiyası dövlət sosial xidmətlərinin müxtəlif sahələri üzrə 132 növdə xidmətin “bir pəncərə”dən, modern və çevik, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırıb. Ümumilikdə, DOST xidmətləri ilə əhatə olunanların sayı bu ilin 1 mart tarixədək 303 mini ötüb.

2019-2025-ci illər üzrə Regional DOST proqramı çərçivəsində 17 DOST mərkəzinin və 44 DOST məntəqəsinin açılması nəzərdə tutulur.

Azərbaycan xalqı qəti şəkildə əmindir: həyata keçirilən sosial-iqtisadi, eləcə də mədəni, həmçinin struktur islahatları, gənclərə göstərilən hərtərəfli dəstəklə etimad bundan sonra da daha böyük nailiyyətlər əldə olunmasına təkan verəcək.

*Məhəmməd NƏRİMANOĞLU,*
*“Azərbaycan”*

# Prezidentin təşəbbüsünə növbəti dəstək





Azərbaycan dövləti Vətən savaşında şəhid olmuş və yaralanmış hərbi qulluqçuların ailələrinə daim diqqət və qayğı göstərir. Müharibədə ön və arxa cəbhədə xidmət edərək şəhid və qazi olmuş hərbi qulluqçular Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə müxtəlif dərəcəli orden və medallarla təltif olunmuş, onların ailələrinə maddi yardımlar edilmişdir.

Bu təşəbbüsə qoşulan Azərbaycan Milli Elmlər Akademiyası Azad Həmkarlar İttifaqının və Yasamal Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Yasamal rayonunda 40 şəhid ailəsinə 18 çeşiddə ərzaq yardımı göstərilmişdir. Onların 3-ü akademiya əməkdaşlarının, 4-ü 2016-cı il Aprel döyüşlərində şəhid olmuş hərbi qulluqçuların, 33-ü isə II Qarabağ savaşı şəhidlərinin ailələridir. Yardımın təqdim edilməsində AMEA Azad Həmkarlar İttifaqının sədri professor Habil Qurbanov, Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov, AMEA Azad Həmkarlar İttifaqı Rəyasət Heyətinin üzvləri, Yasamal Rayon İcra Hakimiyyəti Aparatının məsul işçiləri iştirak etmişlər. Şəhid ailələri göstərilən diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildirmiş, dövlətin və ictimaiyyətin onlara daim göstərdiyi qayğıdan razılıqlarını ifadə etmişlər.

Onu da qeyd edək ki, AMEA Azad Həmkarlar İttifaqı digər sosial tədbirlərin keçirilməsində də fəallıq göstərir. Təşkilatın dəstəyi ilə Akademiya şəhərciyində yerləşən inzibati binaların 50 min kv.m sahəsi koronavirus pandemiyası əleyhinə dezinfeksiya, dezinseksiya, deratizasiya edilmişdir. Covid-19 pandemiyası Azərbaycanda yayılmağa başladığı gündən bugünə kimi AMEA-nın inzibati binası dəfələrlə Azad Həmkarlar İttifaqının maliyyə dəstəyi və Akademiya şəhərciyinin rəhbərliyinin təşkilatçılığı ilə dezinfeksiya olunmuşdur.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

**ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!**

# Qəbələdə şəhidin xatirəsi anılıb



Aprelin 10-u Vətən müharibəsi şəhidi, Qəbələ rayonunun Yeni Dizaxlı kəndindən olan Tural Cəlilovun doğum günüdür.

AZƏRTAC xəbər verir ki, şəhidin doğum günü ilə əlaqədar Qəbələ Rayon İcra Hakimiyyətinin, rayon təhsil şöbəsinin rəhbər işçiləri, şəhidin təhsil aldığı kənd məktəbinin kollektivi və ailə üzvləri Tural Cəlilovun məzarını ziyarət edib, xatirəsinə ehtiramlarını bildiriblər.

Anım tədbirində 44 gün davam edən Vətən müharibəsində qazanılan tarixi Qələbədən, həyatının 25-ci ilində əbədiyyətə qovuşan Turalın keçdiyi şərəfli döyüş yolundan, qəhrəmanlığından, Vətənini sevən cəsur şəxsiyyət kimi yetişməsindən söz açılıb.

Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin qəlblərdə əbədi yaşayacağı, heç zaman yaddaşlardan silinməyəcəyi xüsusi vurğulanıb.

Şəhidin valideynləri onlara dövlət səviyyəsində göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

# YAP Bərdə rayon təşkilatının üzvləri şəhid Asif Abışovun ailəsini ziyarət ediblər

Yeni Azərbaycan Partiyası (YAP) Bərdə rayon təşkilatının üzvləri "Şəhid ailələrinə qayğı" aksiyası çərçivəsində Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçu Abışov Asif Əlövsət oğlunun ailəsini ziyarət ediblər.



AZƏRTAC xəbər verir ki, görüş zamanı Azərbaycan Ordusunun 44 günlük müharibədə şücaətindən, şəhid Asif Abışovun keçdiyi döyüş yolundan söhbət açılıb. Bildirilib ki, Asif Abışov sentyabrın 27-də düşmənin törətdiyi təxribata qarşı əks-hücuma başlanan Vətən müharibəsində Xocavənd rayonu istiqamətində şəhidlik zirvəsinə ucalıb. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

YAP rayon təşkilatının sədri Fəqət Şadlinskaya bildirib ki, 2020-ci il ölkəmiz üçün Qələbə ili kimi tarixə düşdü. Otuz ilə yaxın işğal altında qalan torpaqlarımız Prezident İlham Əliyevin uzaqgörən və qətiyyətli siyasəti, xalqımızın birliyi və müzəffər Ordumuzun peşəkarlığı sayəsində azad olundu. Qəhrəman gənclərimizin Vətən uğrunda göstərdiyi fədakarlıqlar dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Onların hər biri orden və medallarla təltif edilib, ailələri dövlətin diqqət və qayğısı ilə əhatə olunub.

Şəhidin atası Əlövsət Abışov, anası İsbət Hətəmova və qardaşı Arif Abışov Asifin hərbdəki xidmətlərindən və ömür yolundan danışıblar. Eyni zamanda, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razılıqlarını bildiriblər.

Partiya fəalları ailənin çətinlikləri ilə maraqlanıb, bəzi problemlərinin həlli üçün köməklik göstəriblər. Daha sonra partiya fəalları şəhid Asif Abışovun ailə üzvləri ilə birlikdə şəhidin qəbrini ziyarət edib, kəndin mərkəzində şəhidin adına inşa edilmiş bulaqla tanış olublar.

# Aprel və Günnüt döyüşlərindən sonra Vətən müharibəsində də düşmənə qənim kəsilən kəşfiyyatçı

Səddam Həsənov sanki kəşfiyyatçı olmaq üçün gəlmişdi dünyaya. Vətənə bağlılığı onu öz niyyətinin ardınca apardı. Şərəfli ömür yolu keçən Səddam Vətən müharibəsində şəhadətə yüksələrək şanlı tariximizi yazanlardan biri oldu.




AZƏRTAC xəbər verir ki, Həsənov Səddam Aydın oğlu 1992-ci il oktyabrın 15-də Beyləqan rayonunun Yeni Mil kəndində dünyaya göz açıb. Uşaqlıqdan fiziki və zehni istedadı ilə seçilən Səddam beş yaşından idmanla məşğul olub.

Şəhid anası Naibə Sarıyeva qəhrəman övladının xatirələrini qürurla dilə gətirir. Səddamın qoçaq və ağıllı bir övlad olduğunu söyləyən qəhrəman anası deyir: "Biz övladlarımızı hər zaman Vətənə xeyirli bir oğul olaraq yetişdirməyə çalışdıq. Səddam Vətənə bağlı idi, hələ uşaq yaşlarından döyüşlə bağlı oyunlar oynayar, "böyüyəndə hərbçi olacağam", - deyə söyləyərdi. Onun üçün Vətən və ana eyni ifadəni kəsb edirdi".

Səddam həqiqi hərbi xidmətə yollananda Naxçıvanda yerləşən N saylı hərbi hissədə kəşfiyyatçı olaraq xidmətə başlayıb. Xidmətini bitirdikdən sonra ordu sıralarına qoşulmağa qərar verib. O, gizirlik kursunu bitirdikdən sonra yenidən Naxçıvanda N saylı hərbi hissədə kəşfiyyat taborunun kəşfiyyat bölüyündə qrup komandirinin müavini olaraq xidmətini davam etdirib. Xidməti dövründə bir çox xüsusi təlimlərə qoşulub. Paraşütçü və dağçılıq kurslarını müvəffəqiyyətlə bitirib.

Günnüt əməliyyatında şücaətilə seçilən Səddam, həmçinin Aprel döyüşlərində də düşmənə qənim kəsilib. Daha sonra Tərtər istiqamətində xidmətini davam etdirib.





"28 yaşı vardı. Hər dəfə ona evlən deyəndə, cavab verərdi ki, torpaqlarımız azad olandan sonra. Qarabağın azad olunması onun ən böyük arzusu idi. Səddamın bu arzusu gerçəkləşdi", - deyə şəhid anası söyləyir.

Səddam haqqında danışan əmisi Telman Sarıyev bildirir ki, o, bir amal uğrunda yaşayırdı - Vətən torpaqlarını yağı düşməndən azad etmək. Bu arzusuna da çatdı. Sentyabrın 27-də erməni təxribatına cavab olaraq əks-hücuma keçən ordumuzun ön sıralarında xüsusi təyinatlı kəşfiyyatçı kimi Səddam da vardı. Onun ilk döyüş yolu Murov istiqamətindən başlayıb. Həmin zaman 4 postun alınmasında və 40-dan çox erməni əsgərinin məhv edilməsində xüsusi rolu olub. Daha sonra Suqovuşanın azad olunmasında şücaəti ilə seçilib. Səddam və döyüşçü yoldaşlarının növbəti tapşırığı Cəbrayıl istiqamətində olub. Qəhrəman kəşfiyyatçı Hadrut uğrunda gedən döyüşlərdə də iştirak edib. Oktyabrın 7-də özü yaralı olsa da, digər yaralı yoldaşlarını xilas edən zaman şəhadətə ucalıb.

Şəhid bacısı Fərqanə Kərimova deyir ki, o, uşaqlıqdan hərbçi olmaq istəyirdi. "Deyirdi ki, böyüyəndə hərbçi olub torpaqlarımızı azad edəcəyəm. Televiziyada ancaq hərbi verilişlərə baxardı. Qardaşım arzusuna çatdı və torpaqlarımızın azad edilməsi uğrunda canını fəda etdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin", - deyə şəhid bacısı vurğulayıb.

Səddam ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

# "Yaşıl Marafon" çərçivəsində bal verən ağaclar əkilib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Ümumrespublika Yaşıllaşdırma Marafonu" ("Yaşıl Marafon") çərçivəsində Bərdə rayonunda bal verən ağacların əkilməsi üzrə kütləvi aksiya keçirilib.






IDEA İctimai Birliyindən AZƏRTAC-a bildirilib ki, aprelin 9-da könüllü gənclərin iştirakı ilə baş tutan aksiya zamanı 1250 ədəd göyrüş və 625 ədəd akasiya ağacları əkilib.

"Yaşıl Marafon" layihəsi üzrə təşkil edilən aksiya, eyni zamanda, IDEA İctimai Birliyinin ölkədə ekosahibkarlığın inkişafına dəstək layihəsinə töhfə vermək baxımından mühüm əhəmiyyət kəsb edir. Sözügedən layihənin məqsədi biomüxtəlifliyin qoruyucusu olan arıların Azərbaycanda arealını artırmaq, eyni zamanda, ölkədə arıçılığın inkişafına dəstək verilməsindən ibarətdir.

Məlumdur ki, arı və digər tozlandırıcıların biomüxtəlifliyin mühafizəsində oynadığı vacib rolu nəzərə alaraq, arıçılıq kənd təsərrüfatının ekoloji baxımdan ən təhlükəsiz və faydalı növü hesab edilir. Bal verən arılar bitkilərin tozlanmasında fəal iştirak edərək onların məhsuldarlığını artırır və davamlılığını yüksəldir. Bitkilər aləminin inkişafı və arıların varlığı bir-birindən asılıdır. Arılar və bəzi başqa həşəratlar bitkiləri tozlandıraraq təkcə bitkilərin fərdi bərpasını yox, həm də müəyyən növlərin inkişafını təmin edir.

Ümumi ekoloji vəziyyətin yaxşılaşdırılmasında, eyni zamanda, iqlim dəyişmələri ilə bağlı təsirlərin minimuma endirilməsində əvəzsiz rolu olan yaşıllıqların artırılmasına xüsusi önəm verən IDEA İctimai Birliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə ölkəmizin digər rayonlarında da genişmiqyaslı ağacəkmə tədbirlərini davam etdirir.

Yaz və payız mövsümlərində ölkə üzrə 1 milyona yaxın ağac əkilməsini hədəfləyən layihə tərəfdaşları hər kəsi bu təşəbbüsə dəstək olmağa və təbiətimizin yaşıl gələcəyi naminə birləşməyə çağırır.

# Hazırkı dövrədək ölkəmizdə vurulan vaksinlərin sayı 1 milyon 153 min 549-a bərabərdir

Azərbaycan Respublikasında daha 41 min 827 nəfər yeni koronavirus (COVID-19) infeksiyasına qarşı peyvənd olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 32 min 886, ikinci mərhələ üzrə peyvənd vurulanların sayı 8941 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksinlərin sayı 1 milyon 153 min 549-a bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 739 min 319, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 414 min 230 nəfərdir.








# Dünən Bakıda 550 küçə dezinfeksiya edilib

Dünən paytaxtda təmizliklə bağlı daxili iməcilik və geniş dezinfeksiya tədbirləri keçirilib.

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iməcilik zamanı səkilərin kənarlarının, bordürlərin və işıq dirəklərinin, yol kənarındakı məhəccərlərin, köşklərin, mağazaların vitrinlərinin, həmişəyaşıl ağacların yuyulması həyata keçirilib, yeni ağaclar, kollar əkilib, mövcud ağaclara və yaşıllıq sahələrinə aqrotexniki qulluq göstərilib.

Səhər saatlarından etibarən Bakı Şəhər İcra Hakimiyyətinin strukturları tərəfindən bu il üçüncü, pandemiyanın əvvəlindən isə 21-ci dəfə həyata keçirilən gücləndirilmiş dezinfeksiya işləri zamanı 550 küçə dezinfeksiya olunub.

Görülən bu işlər Bakı şəhərində sakinlərimizin həyatının təhlükəsizliyinə yönəldilən tədbirlərin bir hissəsi olaraq mütəmadi davam etdiriləcək.






# Koronavirusa 2192 nəfər yoluxub

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 1554 nəfər müalicə olunaraq sağalıb, 2192 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 33 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 283 min 579 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 249 min 13 nəfər müalicə olunaraq sağalıb, 3879 nəfər vəfat edib. Aktiv xəstə sayı 30687 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 5 min 197 test aparılıb. Dünənki test sayı isə 14912-dir.



# "Buta Airways" Rusiyanın "Jukovski" hava limanına reyslərin yerinə yetirilməsinə başlayacaq

**Aşağıbüdcəli aviadaşıyıcı "Buta Airways" Bakıdan "Jukovski" aeroportuna xüsusi reyslər həyata keçirməyə başlayacaq.**

Uçuşlar aprel ayının 23-dən həftədə bir dəfə - həftənin cümə günləri Bakı - Jukovski hava limanı (IATA: ZIA) və geri istiqamətində yerinə yetiriləcək.

Ölkədəki epidemioloji vəziyyətlə bağlı tətbiq edilmiş məhdudiyyətləri və qaydaları nəzərə alaraq aviaşirkət biletləri yalnız iki tarif üzrə təklif edir - "Standart" və "Super". Hər iki tarifə ödənişsiz qaydada yer seçimi və hava limanında qeydiyyat opsiyaları daxildir.

Qeyd edilən reyslərə biletlər "Buta Airways" aviaşirkətinin rəsmi saytında ("Super" və "Standart" tarifləri üzrə) və akkreditə olunmuş agentliklərində (yalnız "Super" tarifi üzrə) mövcuddur. Aviabiletlərin qiyməti 55 avrodan başlayır.




Pandemiya dövründə həmin reyslərə həm gediş, həm gəliş zamanı Heydər Əliyev Beynəlxalq Aeroportunun 1-ci Terminalında xidmət göstəriləcəkdir.

Reyslərə mövcud epidemioloji məhdudiyyətlər şəraitində uçuş icazəsi olan kateqoriyalı sərnişinlər qəbul olunacaq.

Bakı-Jukovski hava limanı istiqamətində aviareysin sərnişinlərinin nəzərinə:

- Rusiya ərazisinə giriş hüququ olmalıdır. Pandemiya dövründə RF ərazisinə giriş qaydaları aviaşirkətin saytında qeyd edilmişdir: https://www.butaairways.az/az/covid/russia

- koronavirus infeksiyasının olmadığı barədə arayış təqdim edilməlidir. Azərbaycanda COVID-19 üçün test verilə bilən klinikaların siyahısı aviaşirkətin saytında qeyd edilmişdir: https://www.butaairways.az/az/covid/clinics

Jukovski hava limanı-Bakı istiqamətində reysin sərnişinlərinin nəzərinə:

- Azərbaycana giriş hüququnun olub-olmadığı yoxlanılmalıdır. Azərbaycana giriş icazəsi olan şəxslərin kateqoriyasının siyahısı aviaşirkətin saytında aşağıdakı link üzrə qeyd edilmişdir: https://www.butaairways.az/az/covid/azerbaijan

- koronavirus infeksiyasının olmadığı barədə arayış təqdim edilməlidir. Testin nəticəsində həmçinin QR-kod göstərilməlidir. Bu kod hava limanında qeydiyyat masalarında yoxlanılacaq. QR-kodla arayışlar təqdim edən Rusiya klinikalarının siyahısı ilə həmçinin aşağıdakı link vasitəsilə tanış olmaq olar: https://www.butaairways.az/az/covid/azerbaijan

Tərəfdaş klinikalar şəbəkəsi genişləndikcə siyahı yenilənəcəkdir.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına müvafiq olaraq aviareyslərlə Bakıya gələn bütün sərnişinlər iki həftə ərzində özünütəcrid şəraitində qalmalıdırlar.

Hər iki istiqamət üzrə reyslərin sərnişinləri COVID-19 testinin nəticəsinin uçuşdan əvvəl 48 saat ərzində etibarlı olduğundan əmin olmalıdırlar.

Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və ölkədəki epidemioloji vəziyyətlə əlaqədar olaraq sərnişinləri qarşılayan və yola salan vətəndaşlar terminal binasına buraxılmayacaq.



# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | (012) 440-46-94, (012) 441-19-91 |
| *"Azərpoçt" ASC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Kaspi" MMC* | (012) 432-39-55, (012) 510-82-24 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Zabrat Hava Limanı ərazisində təlim keçirilib





Fövqəladə Hallar Nazirliyinin (FHN) Xüsusi Riskli Xilasetmə Xidməti Zabrat Hava Limanı ərazisində təlim keçirib.



FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, təlimin keçirilməsində məqsəd şəxsi heyətin qanunsuz müdaxilə aktlarının qarşısının alınması üzrə vərdişlərinin təkmilləşdirilməsi olub.

Təlimə Xüsusi Riskli Xilasetmə Xidmətinin Kinoloji taborunun 10 nəfərdən ibarət şəxsi heyəti və 10 xüsusi təlim keçmiş xidməti it cəlb olunub.



Təlim zamanı kinoloji taborun əməkdaşları sərnişinlərin və xidməti personalın təxliyəsi, şərti partlayıcı qurğunun aşkarlanması, zərərsizləşdirilməsi və digər operativ tədbirlər üzrə bilik və bacarıqlarını təkmilləşdiriblər.

# 47 yanğına çıxış və 7 halda köməksiz vəziyyətdə qalma faktları üzrə qəza-xilasetmə əməliyyatları həyata keçirilib

Son sutka ərzində Fövqəladə Hallar Nazirliyinin (FHN) "112" qaynar telefon xəttinə daxil olmuş zənglər əsasında nazirliyin aidiyyəti qurumları tərəfindən 47 yanğına çıxış və 7 halda köməksiz vəziyyətdə qalma faktları üzrə qəza-xilasetmə əməliyyatları həyata keçirilib.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, FHN üzərinə düşən vəzifələrinin icrası, o cümlədən əhalinin və ərazilərin təbii və texnogen xarakterli fövqəladə hallardan qorunması istiqamətində fəaliyyətini davam etdirir.

Görülmüş təcili və təxirəsalınmaz tədbirlər nəticəsində yanğınların operativ söndürülməsi, insanların həyatının xilas olunması təmin edilib.

Ümumilikdə ötən sutka ərzində doqquz nəfər xilas edilib, bir nəfərin meyiti isə aşkarlanaraq aidiyyəti üzrə təhvil verilib. Həmçinin Kür çayında batmış iki nəfərin axtarışları dalğıc-axtarış qrupu tərəfindən davam etdirilir.

# Ermənistanda seçkiöncəsi gərginlik artır

**Qarşıdan gələn növbədənkənar parlament seçkiləri ilə əlaqədar Ermənistanda gərginliyin artması müşahidə edilir. Belə ki, müxalifət hakimiyyətə qarşı etiraz aksiyalarını daha da intensivləşdirmək istəyir.**



İkinci Qarabağ müharibəsində itkin düşmüş erməni hərbçilərinin yaxınları isə yenidən ayağa qalxıblar. Onların bu günlərdə Müdafiə Nazirliyinin binası qarşısında keçirdikləri aksiyadan müxaliflər öz məqsədləri üçün istifadə etməyə çalışırlar. Lakin ötən ayların reallığı göstərir ki, müxalifətin Paşinyanı devirmək üçün imkanları yoxdur. Elə bu səbəbdən də müxalifət ölkə xaricində dəstək axtarır. Maraqlıdır ki, Paşinyan da bu məqsədlə xaricə daha çox üz tutmağa başlayıb. Onların son dövrlərdə Rusiya ilə artan təmasları bunun təsdiqi hesab edilə bilər. Həm hakimiyyət, həm müxalifət indi daha çox Rusiyanın, buradakı erməni diasporunun dəstəyini almağa çalışır.

Paşinyanın Rusiyaya son səfəri də ekspertlərin fikrincə, daha çox buna hesablanıb. Rus hərbi ekspert İqor Korotçenko deyir ki, Yerevan və buradakı siyasi qüvvələr, o cümlədən də Paşinyan Kremldən çox asılıdır: "Təsadüfi deyil ki, Paşinyan Kremldəki danışıqlarda özünü tərəfdaş kimi yox, müftəxor kimi aparır. Ondan soruşmaq istərdim: "İşləməyə çalışmısınız?"

Ekspert ermənilərin işləmək istəklərinin olmadığını da bildirib: "Boş-bekarlar kütləsi Yerevanda dolaşır, mitinqlər keçirir, işləmək istəmirlər. Rusiya isə onlara subsidiya, güzəştli kreditlər verməlidir, silah tədarük etməlidir, onların təhlükəsizliyini təmin etməlidir. Bəlkə, onlara sadəcə rus general-qubernatoru lazımdır?"

Amma Rusiyanı daha çox maraqlandıran Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış bəyanatların müddəalarının icrasıdır. Təsadüfi deyil ki, Paşinyanla görüş zamanı Putin Azərbaycan, Rusiya, Ermənistan liderlərinin Dağlıq Qarabağ üzrə 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il bəyanatlarının həyata keçirilməsinin gedişinə xüsusi toxunub. Putin Ermənistanın inkişafı üçün bölgədə kommunikasiyalar üzərindən blokadanın götürülməsinin vacibliyini qeyd edib. Onun sözlərinə görə, regionda iqtisadi-ticarət əlaqələri və nəqliyyat marşrutlarının bərpa olunması Ermənistanın inkişafı üçün yeni imkanlar yaradacaq.

Ermənistanın Respublika Partiyası sədrinin müavini Armen Aşotyan isə bildirir ki, Nikol Paşinyan artıq ölkəni təmsil edə bilmir. O, Paşinyanın Putin qarşısında özünü daha çox itirməsinin də bunun sübutu olduğunu qeyd edir: "Moskva görüşü ilə bağlı videoda aydın görünür ki, Nikol Paşinyan strateji müttəfiqlə münasibətlər çərçivəsində hərbi-texniki və ümumiyyətlə, ikitərəfli hərbi formatın dəqiq adlarını xatırlamır, bilmir və hətta təsəvvür etmir. İclasın ilk kadrlarından bir daha aydın olur ki, bütün erməni xalqının adına utanc gətirən bu cahil və səliqəsiz avara hələ də Ermənistanı və erməni xalqını təmsil edir. Özünün 4 dəqiqə 37 saniyəlik giriş nitqində bu cılız 10 dəfə şparqalkasına baxmağı bacardı. Tam 10 dəfə".

Sabiq prezident Robert Koçaryan da ölkə xaricində dəstək axtarır. Tanınmış rusiyalı politoloq Aleksey Fenenko bildirir ki, Koçaryanın Ermənistan daxilində dəstəyi yoxdur: "Robert Koçaryan nə olursa-olsun, artıq siyasətdən getmiş sayılır. Adətən ayrıldıqdan sonra qayıtmaq son dərəcə çətin olur. Üstəlik, Robert Koçaryan müxalifətin digər lideri Vazgen Manukyandan daha mülayimdir. Erməni radikalları isə hakimiyyətdə aqressiv siyasətçi istəyirlər. Koçaryanın problemi onun radikallar üçün həddindən artıq mülayim, qərblilər üçün ruspərəst, ruspərəst seçicilər üçün isə çox qərbpərəst sayılmasıdır. Bu, onun əsas problemidir. Onun Ermənistanda heç bir elektoral dəstəyi yoxdur. Biz bir fiquru da unuduruq, halbuki o siyasi ssenaridə çox vacibdir. Söhbət Ermənistan prezidenti Armen Sarkisyandan gedir. O, Nikol Paşinyana qarşı oyuna başlayarsa, nəticə Ermənistanın hazırkı baş naziri üçün çox əlverişli olmaya bilər. Vazgen Manukyanın elektoratına gəldikdə, bu, küçə və aqressiv şəhər marginalıdır. Onlar müharibənin nə olduğunu yaxşı anlamırlar, amma böyük məmnuniyyətlə "Müharibə tələb edirik!", - deyə qışqırmağa hazırdırlar. Manukyan da məhz onlara oynayır. Ermənistan siyasətinin xüsusiyyətləri ilə bağlı vacib bir məqam da əlavə etmək istərdim. "Qarabağ klanı"nın tam dağılması və parçalanması baş verdi. Əvvəllər bu klan əhəmiyyətli bir qüvvə idi, ancaq keçən payız hadisələrindən sonra onun kiçik qruplara parçalandığını görürük. "Qarabağlılar" heç bir konsolidasiya edilmiş namizəd irəli sürə bilmirlər və bu, Paşinyanın xeyrinədir".

Bu vəziyyətdə hesab edilir ki, kənar müdaxilə olmasa, Ermənistanda yenidən Paşinyan hakimiyyət başında qalacaq. Amma onun da erməni xalqının tələblərini yerinə yetirməsi üçün Azərbaycan və Türkiyə ilə münasibətlərini normallaşdırması olduqca mühümdür.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



## Sumqayıt Şəhər İcra Hakimiyyəti yanında Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi

## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti **30 dekabr 2021-ci il** tarixə kimidir.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək olar. Əlaqələndirici şəxs: **Rövşən Fərəcov**
Ünvan: Sumqayıt şəhəri, 4-cü mikrorayon, 27A
E-mail: Sumqayit_2012@mail.ru
Tel: İş 018 642-00-61, Mobil 050 338-29-05
Tender 3 (üç) LOT üzrə keçiriləcək.

LOT 1 - Yaşayış binalarının əsaslı təmiri (fasadların və girişlərin təmiri) işlərinin satın alınması
LOT 2 - Sumqayıt şəhərində küçə, yol, mikrorayon və məhəllələrin ərazilərindəki asfalt örtüyünün təmiri işlərinin satın alınması
LOT 3 - Sumqayıt şəhərində küçə və prospektlərə yol cizgilərinin çəkilməsi işlərinin satın alınması

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba
LOT 1 üzrə 2000 (iki min) manat
LOT 2 üzrə 4000 (dörd min) manat
LOT 3 üzrə 1000 (bir min) manat
məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Bank rekvizitləri:**
**H/h: AZ84AİİB33010019442501776125**
**VÖEN: 9900003611**
**Bank: "KAPİTAL BANK"ın 1 saylı Sumqayıt filialı**
**VÖEN: 2902198151**
**Kod: 200253**
**M/h: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK: AİİBAZ 2X**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:
1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.
2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır).
3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır).
4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri; - malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;*
- *malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin Əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*
- *Dövlət Vergi Xidməti tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;*
- *Dövlət Sosial Müdafiə Fondu tərəfindən fonda borcu olub-olmaması barədə arayış;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **18.05.2021-ci il saat 12:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **26.05.2021-ci il saat 12:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri **27.05.2021-ci il saat 12:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***


## 9 aprel 2021-ci il tarixdə "Moskva konfetlərindən" avtomobil qazan!" adlı tirajlı stimullaşdırıcı lotereyanın qaliblərinə hədiyyələr təqdim edildi

23 fevral - 31 mart tarixləri arasında ölkənin bütün "Bravo" marketlərində keçirilmiş lotereyada 19 hədiyyə oynanılırdı. Bunlar hərəsindən 3 ədəd olmaqla soyuducu, paltaryuyan, tozsoran, televizor, telefon, tablet və 1 ədəd superpriz, 2020-ci il istehsalı "Skoda Rapid" avtomobili idi. "Moskva konfetləri"nin Feysbuk və İnstaqram səhifələri ilə canlı yayımlanan tədbirdə kampaniyanın şanslı iştirakçılarının hədiyyələri müəyyənləşdi. 009087, 089451, 024959 nömrəli biletlərin sahibləri soyuducu, 047922, 005457, 048336 nömrəli biletlərin sahibləri paltaryuyan, 025598, 032662, 093628 nömrəli biletlərin sahibləri tozsoran, 025520, 061054, 052040 nömrəli biletlərin sahibləri televizor, 048931, 015577, 085955 nömrəli biletlərin sahibləri telefon, 048690, 058693, 077545 nömrəli biletlərin sahibləri tablet qazandı. Lotereyanın əsas uduşu olan "Skoda Rapid" avtomobilinin yeni sahibi isə 025222 nömrəli biletin sahibi İbrahim Səfərli oldu.

"Moskva konfetləri" olaraq kampaniyanın bütün iştirakçılarına təşəkkürümüzü bildirir, qalibləri isə təbrik edirik!

## ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərova oğlu

**FƏRİD ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəcilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərova oğlu

**FƏRİD ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5107
Sifariş 620
Qiyməti 40 qəpik